# ETNOPEDAQOGIKA

*(Mühazirə mətnləri )*

## Mövzu 1. Etnopedaqogika, onun ümumi əsasları və xüsusiyyətləri

**Plan**

- **Xalq pedaqogikasının təcrübədən yaranması**
- **Xalq pedaqogikasının obyekti və mövzusu**
- **Xalq pedaqogikasının elmi pedaqogika ilə ümumi və fərqli cəhətləri**
- **Xalq pedaqogikasnn mənbələri**

**Ədəbiyyat**


- Ə.Həşimov. Azərbaycan Xalq pedaqogikasının bəzi məsələləri. Bakı, «Maarif », 1970.
- Ə.Həşimov. Xalq pedaqogikası akademik pedaqogıkanın mənbələrindən biri kimi (Etnopedaqogika və etnopsıxologiya: mənbələr və müasir problemlər. Respublika elmi konfransının tezisləri). Bakı, 1992.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogıkası. Bakı, «Patronat», 1993.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogıkası (dərslik). Bakı, «Ünsiyyət», 2000.
- Ə.Həşimov. Müdriklik çeşməsi. «Azərbaycan məktəbi» jurnalı. 1994, №1 - 4.


### ● Xalq pedaqogikasının təcrübədən yaranması

Bəşəriyyət tarixi inkiaf yolu keçərək gəlib XXI əsrə çatmışdır. Bütün bu tarixi dövr ağlın, zəkanın, biliyin qüdrəti ilə müşayiət olunmuşdur. İndi müxtəlif elm sahələri, o cümlədən pedaqogika elmi mövcuddur. Biz pedaqoji işi qurmağın tərzlərini bu elm vasitəsilə öyrənirik. Lakin tarix çox qədimdir və onun uzaq dərinliklərində heç bir elm, o cümlədən pedaqogika elmi yox idi. Amma insanlar yaşayır, öyrənir və öyrədirdilər. Bu necə olurdu?

Hazırki şəraitdə biz pedaqogika elmini öyrənərkən onun tarixini də diqqət mərkəzində saxlayırıq; dünyanın məşhur şəxsiyyətlərinin, o cümlədən Q.Təbrizi, S.Urməvi, Ə.Xaqani, N.Gəncəvi, N.Tusi, İ.Nəsimi, M.Füzuli, Y.A.Komenskı, K.D.Uşinski və başqalarının adını çəkir, əsərlərindən nümunələr gətiririk. Bəs bu insanları kim yetişdirmişdir? Onların təlim-tərbiyəsi ilə hansı pedaqoqlar məşğul olmuşlar?

Bu suallara cavab tapmaq üçün insanlığın keçdiyi inkışaf mərhələlərini yada

salmalıyıq. İlkin mərhələ ibtıdai icma dövrüdür. Bu dövrdə insanlar əvvəlcə sürü, sonra qəbilələr şəklində yaşayırdılar. Gündəlik həyati ehtiyaclarını ödəmək üçün əməklə məşğul olurdular. Əmək prosesində təcrübə yaranırdı və həmin təcrübə cavanlara öyrədilirdi. Biz həmin təcrübələri və öyrətmə, izahat işlərini pedaqoji işin rüşeyimləri adlandıra bilərik.

Cəmiyyətin inkişafı, bir ictimai-iqtisadi formasiyadan başqasına keçid təcrübəni artırır, təlim və tərbiyə ilə bağlı konkret fikir və qənaətlər yaradırdı. Həmin fıkir və qənaətlər dildən-dilə keçərək cilalanır və bir nəfərin yox, ümumən xalqın malına çevrilirdi. Beləliklə, xaq pedaqogikası təcrübədən keçərək yaranırdı. Məsələn, ov zamanı hansı ov alətinin daha səmərəli olduğunu, təcrübədə görür və onu bir qədər də təkmilləşdırərək hazırlamağı başqalarına öyrədirdilər. Yaxud da təbiəti müşahidə edərək öz təsərrüfatlarını - əkinlərini, heyvandarlığı, maldarlığı ilin fəsillərinə uyğun olaraq idarə etməyi, yağışı, qarı, küləyi, dağı, dərəni, seli nəzərə almağı öyrənir və böyüyən nəsilə də başa salırdılar. Beləliklə, təcrübədən yön alaraq xalqın pedaqogikası yaranırdı. Bu proses təkcə bizdə deyil, dünya xalqlarının hamısının həyatında məhz belə, yaxud buna bənzər şəkildə baş vermişdir. Qəti şəkildə demək olar ki, pedaqoji fikir və ideyaların yaranmasında əmək prosesi əsas olmuşdur. Bu gün tarixdə adı məlum olan və əsərlərindən faydalandığımız dahi şəxsiyyətlər isə cə-miyyətin müəyyən inkişaf prosesindən sonra dünyaya gəlmiş və xalqın fikir dünyasından qidalanaraq, tərbıyə almış, yetişmişlər. Beləliklə, deyə bilərik ki, **xalq pedaqogıkası insanların əsrlər boyunca topladığı təcrübə əsasında yaranmış və nəsildən nəslə əmanət edılərək dövrümüzədək gəlib çatmış cəmiyyətdaxili qanun – qaydalar, davranış normalarıdır və hər bir xalqın əxlaqi, etik, estetik baxışları həm də onun pedaqogıkasıdır.** Həmin qanun-qaydalar xalqın yaratdığı folklor nümunələrində, adət-ənənələrdə qorunmuş və yaşamışdır.

- **Xalq pedaqogikasının obyekti və mövzusu**

Xalq pedaqogikası bütün xalqa məxsusdur. Yəni onun konkret yaradıcısı məlum deyil. Amma burada bir incəlik var ki, onu diqqət mərkəzində saxlamalıyıq; Xalqın tərkibi zəkasına, mənəviyyatına, dünyabaxışına, yaş və fərdi xüsusiyyətlərinə görə müxtəlif insanlardan ibarətdir. Təbiidir kı, onların hamısı müdrik, başqalarına öyüd –

nəsihət verə bilmək dərəcəsində hazırlıqlı ola bilməzlər. Hətta çoxunun, o cümlədən uşaqların, yeniyetmə və gənclərin tərbıyəyə daim ehtiyacı olur. Demək, xalq pedaqogikasını müdrik insanlar yaratmışlar. Onlar həyatı, inkişafı, əmək prosesini müşahidə edərək və yaşlaşdıqca qazandıqları təcrübələr əsasında konkret qənaətlərə gəlmiş və bu barədə fıkir yürütmüşlər. Fikirlər atalar sözləri, zərb məsələlər, tapmacalar, yanıltmaclar, nağıllar, dastanlar və s. şəklində ifadə olunmuşdur. Xalq pedaqogikasının **obyekti** insandır. Yəni müdrik şəxsiyyətlər başda olmaqla xalq böyüməkdə olan nəslin və cəmiyyətdəki bütün insanların kamilləşməsinə çalışmışdır. Buna görə də irili-xırdalı bütün xalq pedaqogıkası nümunələrində diqqət mərkəzində insan, onun formalaşması və inkışaf etməsi problemi dayanır. Elə buradan da sual yaranır. Bəs xalq pedaqogikasının mövzusu nədir? Xalq pedaqogikasının **mövzusu tərbiyədir.**

Elmi pedaqogikadan bildiyimiz kimi, tərbiyənin istıqamətləri çoxşaxəlidir. Yəni hər bir insan əməyi sevməli, əxlaqlı, fiziki cəhətdən sağlam olmalı, etik və estetik keyfiyyətləri ilə seçilməli, hüquq və vəzifələrini bilməlıdir. Xalq pedaqogikasında da bütün bunlar diqqət mərkəzində dayanır. Xalqın yaratdığı folklor nümunələrinin mövzusu tərbiyədir. Xalq haqlı olaraq bu qənaətdədir ki, tərbıyə hamı üçün lazımdır. Ona gənc nəsil də, qadınlar da, kışılər də möhtacdır; başqa sahələrdə olduğu kimi, tərbıyədə də kişilərlə qadınlar arasında hüquqi baxımdan fərq olmamalıdır. Xalq pedaqogikasında insan şəxsiyyətinə ləkə gətirən bütün mənfiliklər pislənir, gözəlliklər təbliğ olunur.

- **Xalq pedaqogikasının elmi pedaqogika ilə ümumi və fərqli cəhətləri**

Xalq pedaqogikası kütlələrin tərbiyəsini yaxşılaşdırmaq üçün daim səy göstərmişdir. Bu məqsədlə xalq mənimsədıyi və istifadə etdiyi təcrübəni möntəzəm olaraq zənginləşdirməyə çalışmışdır. Böyüməkdə olan nəslin yaş dövrlərini ciddi nəzərə almış, hər yaş dövrünə uyğun tərbiyə vasıtələri yaratmışdır. Tərbiyədə əyaniliyə yüksək qiymət vermişdir. Rəğbətləndirmə, cəzalandırma, nümunə və s. üsullardan istifadə etmiş, tərbıyənin bütün tərkib hissələrını daim diqqət mərkəzində saxlamışdır.

«Pedaqogika tarixi» kursundan aydındır ki, dünyanın bütün inkişaf etmiş ölkələrində

dahi şəxsiyyətlər öz dıdaktik müddəalarını irəli sürərkən xalq pedaqogikasına istınad etmişlər. Orta əsr mütəfəkkirlərimizin, o cümlədən Ə.Xaqani, N.Gəncəvi, M.Füzuli, Ə.Cami və başqalarının əsərlərində bunu aydın görmək olar.

A.A.Bakıxanovun nəsihətləri, S.Ə.Şirvaninin mənzum hekayətləri məhz xalq pedaqogikasından qidalanmışdır. Adını çəkdiyimiz digər klassiklərin yaradıcılığında da belədir.

Elmi pedaqogikanın banisi Y.A.Komenski «Böyük didaktika», «Yaxşı təşkil olunmuş məktəbin qanunları», «Dünyanın labirint yolları» əsərlərində xalq pedaqogıkasından istifadə etmişdir. Ümumən, Komenskinin pedaqoji sistemi xalq təfəkküründən yaranmışdır. Deməli, xalqın pedaqoji ideyaları elmi pedaqogikanın özül daşlarını təşkil etmişdir. Bu gün elmi pedaqogika qidalandığı mənbələr sırasında xalq pedaqogıkasının adını öndə çəkir.

Bütün bunlar xalq pedaqogikasının elmi pedaqogika ilə qaynaq nöqtələri və **ümumi** cəhətləridir. Lakin **fərqli** cəhətləri də var; onlar aşağıdakılardır:

● xalq pedaqogikasının tarixi elmi pedaqogikadan qədimdir.

● elmi pedaqogikanı yalnız bu elmlə məşğul olan şəxslər yaratmışlar, xalq pedaqogikasını isə milyonlarla xalq kütlələri.

● elmi pedaqogikada ciddi sistem var, xalq pedaqogikasında isə tərbiyə ilə bağlı fikirlər sistemsiz halda şifahi ədəbiyyat nümunələrinə səpələnmişdir.

● xalq pedaqogikasında elmi istilahlar yoxdur.

● xalq pedaqogikasında yaş dövrləri elmi pedaqogıkada olduğu kimi konkret bölgülərə əsaslanmır; uşaqlıq, yeniyetməlik, gənclik, ahıllıq, qocalıq dövrləri gəzişən rəqəmlərlə şərtlənir.

● xalq pedaqogikası elmi pedaqogikanın mənbələrindən biridir.

● elmi pedaqogikaya nisbətən xalq pedaqogikası həyata daha yaxındır.

● xalq pedaqogikası çoxluğun, kütlələrin pedaqogıkasıdır. Lakin elmi pedaqogikada ixtisaslaşma var (tiflopedaqogika, surdopedaqogika, oliqofrenopedaqogika və s.)

● Gah poeziya, gah nəsr, bəzən lirizm, bəzən epiklik xalq pedaqogikasına xas olan xüsusiyyətlərdəndir. Elmi pedaqogıkada belə rəngarənglik yoxdur.

- Xalq pedaqogikasının üslubu bədii, dili obrazlıdır, ona görə də tez sirayət edir.
- Şifahi xalq ədəbiyyatı nümunələrinin hamısı bir küll halında pedaqoji biliklər toplusudur. Bu toplu xalqın tərbıyə haqqında dahiyanə düşünülmüş həmişəyaşar sılahıdır.
- Xalq pedaqogikası hər bir xalqı başqalarından fərqləndirən özünəməxsus məktəbidir.
- Elmi pedaqogika gördüyü işin nəticəsini öyrənmək və dəqiqləşdirmək üçün təcrübə mühitini özü yaradır, xalq pedaqogikasında isə təcrübə təbii yolla yaranır, xalq sadəcə onu görüb – götürür.
- Elmi pedaqogikada mühit, şərait, quruluş, həyati baxışlar dəyişdikcə müddəalar bir-birini inkar edə bilir, xalq pedaqogikası isə inkarolunmaz və həmişəyaşardır. Ona görə də keçdiyi inkişaf yolunun nəticəsi olaraq elmi pedaqogika ötən əsrin ortalarından etibarən xalq pedaqogikasını etiraf etmiş, böyüməkdə olan nəslin təlim və tərbıyəsində ondan istifadəni vacib saymışdır.
- **Xalq pedaqogikasının mənbələri**

Biz qeyd etmişik ki, xalq pedaqogikası həyati təcrübə əsasında yaranmışdır. Həyat isə çox geniş və əhatəlidir. Onun hər üzü, çətinliyi, mürəkkəbliyi var. Adəti, ənənəsi, toyu, bayramı da öz yerində. Bütün bunlar hamısı xalq pedaqogikasının mənbələridir və onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- ailələrin tərbiyə işində qazandığı təcrübə;
- adət – ənənələr;
- folklor nümunələri;
- maddi mədəniyyət abidələri;
- xalq idman növləri;
- tarixi və etnoqrafik materiallar.

Xalq bu mənbələrlə bağlı təcrübədən faydalanaraq öz pedaqoji fikir və düşüncələrini inkişaf etdirmişdir.

**Mövzu 2: Folklor etnopedaqogikanın tarixi salnaməsidir.**

**Plan:**

1. Epistemik və aksioloji baxımdan folklorun tərbiyəvi əhəmiyyəti.
2. Görkəmli şəxsiyyətlər xalq və onun şifahi ədəbiyyatının tərbiyəvi dəyəri haqqında.
3. Folklor əsərləri nəsillərin mənəvi qida qaynağı, ibrət dərsliyi və kamal dünyasıdır.
4. Müxtəlif xalqların etnopedaqoji materiallarında əks olunmuş fikirlərdə oxşarlıq və bunların səbəbləri.

**Ədəbiyyat**.


1.Ə.Ş.Həşimov. "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri".Bakı, 1970.

2.Ə.Ş.Həşimov."Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə". Bakı,1984.

3.Ə.Ş.Həşimov. "Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri".

4. Ə.Ş.Həşimov, F.B.Sadıqov. "Azərbaycan xalq pedaqogikası".Bakı, 2000.

5.H.Q.Qədirzadə. Ailə və məişətlə bağlı adətlər, inamlar,etnoqrafik əlaqələr.Bakı, 2003.

6.İ.İ. Əliyev. Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı, 2004.

7.Ə.S.Bayramov.Etnik psixologiya məsələləri.Bakı,1996.

8.Q.N.Volkov. Gtnoredaqoqika. M,2000.

9.Kukuşkin V.S., Stolərenko L.D. Gtnoredaqoqika i gtnopsixoloqiə. Rostov-na-Donu. 2000.


Tərbiyənin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. Cəmiyyətinin inkişafı tarixində elə bir dövr olmamışdır ki, orada yaşlı nəslin nümayəndələri gənc nəslin tərbiyəsi qayğısına qalmamış olsun. Lakin müxtəlif zamanlarda, müxtəlifinkişaf mərhələlrində tərbiyənin mahyyəti, xarakteri və uşaqlara aşılanması yolları eyni səviyyədə olmamışdır. Ən qədim zamanalarada tərbiyə işi sadə,tərbiyə məsələləri üzrə bilik, bacarıq və baxışlar məhdud olmuşdur. Ilk insanlar yaşamaqdan ötrü yemək-içmək şeyləri; paltar, sığınacaq yeri və s qeydinə qalmalı, bütün bu hallarda əməklə məşğul olmalı,zəhmət çəkməli, təcrübə toplamalı və həmin təcrübəni öz övladlarına, gənc nəslə aşılamalı idilər. Bu,tarixi zərurət idi. Zaman keçdikcə, insanların biliyi və həyat təcrübəsi artır,

dünyagörüşü zənginləşirdi. Tərbiyə sahəsindəki təcrübə və bilik də artır, zənginləşirdi. Onu sələflərdən xələflərə vermək işi xüsusi ustalıq, qayda-qanun,adət-ən'ənə tələb edirdi. Bu yolla xalq pedqqogikası yaranırdı.

Alimlərin haqlı dediyi kimi, hələ müasir mə'nada pedaqoji elmlərin olmadığı vaxtlarda insan təcrübəsi davranış nümunələrinin intəhasız təkrarlarından elə normalar, elə qaydalar, elə qadağalar və öyüd-nəsihətlər xalq pedaqogikasının məğzini təşkil etmişdir ki, onlar, hər şeydən əvvəl, mütərəqqi adət və ən'ənlərdə, etnoqrafik və tarixi materiallarda, xüsusi folklorun atalar sözü, məsəllər, nağıllar, dastanlar, bayatılar, tapmacalar və sair janrlarda öz ifadəsini taparaq tarix bou minlərlə nəsillərin, həmçinin ən görkəmli fikir adamlarının, bədii söz ustalarının formalaşmasında müstəsna rol oynamış və cilalana-cilalana bu günə qədər gəlib çatmış, indi də tərbiyəvi əhəmiyyətini itirməmişdir.

Xalq pedaqogikasının bizə çatan yadigarları, materialları müdriklik dəfinəsidir. Onlar yığcamlığı, siqləti, obrazlılığı,dərin ictimai-pedaqoji məzmunu, ədəbi-tarixi koloriti, əxlaqi-etiq tövsiyəsi, nəsiyətamiz ruhu ilə xalqın kamal dünyasıdır. Xalq pedaqogikası materiallarının hər birində həyatın, tərbiyənin bu və ya digər məsələsi üzrəzəhmətkeş kütlələrin rəal qənaəti, inamı, e'tiqad və təsəvvürü əks olunmuşdur. Buna görə də həmin materiallar xalqın insanı silah və tərbiyə yoluna çağırışıdır.

Misal üçün , ən qədim dövrlərin yadigarları olan sınamalara diqqət edək.

Əksəriyyətinin (bəlkədə hamısının) yaranma tarixi islamaqədərkidövrə aid olsa da, sınamalar (inanclar) zehni, əxlaqi, etik, esteti, ekoloji və praktik əhəmiyyətini bu gün də saxlamaqdadır. Xalq pedaqogikası materiallarının bir qismi kimi həmin nümunələr uşaqlara həyat hadisələrinə, ağıl və mə'nəviyyatın zahiri nişanələrinə, davranış və məişət məsəllərinə dair bilik vermiş, onlarda çörəyə, maddi ne'mətlərə hörmət, təbiətə, heyvanlara qayğılı münasibət və sair müsbət keyfiyyətlər tərbiyə etmişdir.

Əcdalarımız qədim zamanlarda uşağın fiziki inkişafını tə'min etmək, onun sağlamlığına mane olan, adama fənalıq gətirən hadisə və qüvvələri zərərsizləşdirmək, mal-qaranı xəstəlikdən qorumaq, təbiət qüvvələrini ram etmək və s naminə müxtəlif növ adət-ən'ənə, sehr düsturları, ovsrdaun (əfsun) və s yaratmış, tərbiyə sahəsindəki əməli fəaliyyətdə onlardan da istifakəndə etmişlər. Məsələn, körpə uşaq şər qovuşanda evdən eşiyə çıxarılarkən onun yanına pambıq, şəkər, kömür qoyaraq sehr edilərmiş.... “Pambıq – xata-baladan uzaq olub xoşbəxt, işıqlı həyatın olsun, saç-saqqalın ağarsın; şəkər– dilin həmişə şirin olsun; kömür– sənə pis nəzərlə baxanın gözü qaralsın, günü qara olsun” deməkmiş.

Zaman keçdikcə sehrin tə'sir qüvvəsini artırmaq məqsədilə sözdən də istifadə edilmiş və həmin sahədə çoxlu folklor nümunələri yaradılmışdır.

Xalq pedaqogikasının, o cümlədən də Azərbaycan xalq pedaqo- gikasının ən kütləvi və tərbiyəvi baxımından qiymətli vasitə və mənbələrindən biri də nəğmələr olmuşdur. Növ və xarakter e'tibarilə nəğmələr müxtəlifdir; əmək nəğmələri, laylalar, mövsüm və mərasim nəğmələri, toy nəğmələri, deyişmələr, sevgiyə, məhəbbətə aid nəğmələr və s.

Güman edildiyinə görə, ilk söz sənəti əmək nəğmələridir və söz sənəti əmək prosesi ilə əlaqədar olaraq yaranmış inkişaf etmişdir; inkişafın hələ aşağı mərhələlərində iş, musiqi və şe'r bir vəhdət şəklində olmuşdur. Özü də bu üçlük vəhdətinin əsas ünsürünü iş təşkil etmişdir.... Onları birləşdirən isə hər üçünə aid ritm olmuşdur.

Əmək nəğmələri işdə gərginliyi və yorğunluğu aradan qaldırmaq, ritm yaratmaq və uşaqlara əmək sevərlik keyfiyyətini aşılamaq onlara bədii zövq vermək məqsədilə yaradılmışdır. Ilk əmək nəğmələri qısa və son dərəcə sadə olmuşdur. Məsələn :

Hütə, hütə, hütə, ho,
Hütə, hütə, hütə, ho .
Öküzüm, maralım, hütə
Qaldı avalım hütə.
...Gün getdi, yağış gəldi,
Gəl, keçə kalım, hütə.
Hütə, hütə, hütə, ho,
Hütə, hütə, hütə, ho .

Azəbaycan folklorunda əməyə aid nümunələr aydın göstərir ki, kişilər qoyun otaranda, yer şumlayanda, ev tikəndə, balıq tutanda, ağır yük qaldıranda və s işi oxuya-oxuya görmüşlər; qadınlar qoyun-keçi sağanda, cəhrə əyirəndə, xalı, cecim, palaz toxuyanda hananın arxasında gördükləri işin ritminə, ahənginə uyğun olaraq mahnı oxumuşlar, zümzümə etmişlər. Nəticədə, saysız-hesabsız sayaçı sözləri, holavarlar və növ əmək nəğmələri ( çoban nəğmələri, sağın nəğmələri, ovçu nəğmələri, hana nəğmələri, ipəkçi nəğmələri, balıqçı nəğmələri və s ) yaradılmışdır. Həmin nəğmələr tarix boyu gənc nəsli əmək sevərlik ruhunda yetişdirməkdə, uşaqlara zövq verməkdə və əmək fəaliyyəti ilə bağlı biliklər, təsəvvürlər aşılamaqda mühüm əhəmiyyət kəsb etmişdir.

Xalq nəğmələrinin bir qismi mövsüm və mərasimlərlə bağlıdır. Misal üçün, taxıl döyümü zamanı xırman üstündə oxuyardılar:

A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.

Müəyyən qismi “Nəğmələr. Inanclar. Alqışlar ”kitabında (Bakı 1986) toplanmış belə nəğmə nümunələri ilə tanışlıq açıq-aydın şəkildə göstərir ki, onlar təbiətin kortəbii qüvvələrinə qarşı mübarizədə yaranmışdır. Ulu nənə və babalarımız yaratdıqları bu nəğmələrlə həmin qüvvlərə tə'sir etməyə, onları özlərinə ram etməyə, təsərrüfat işlərində kömək etməyə çağırmışlar. Mövsüm-mərasim nəğmələri, adətən, müəyyən münasibətlərlə ( məsələn, təsərrüfat işinin başlanması, biçinin qurtarması, məhsul yığımı, sağımı, yun qırxımı,uşaqların anadan olması, nişan taxma və evlənmə mərasimi və s münasibətlərlə ) əlaqədar icra edildiklərindən onlarda ciddi tərbiyəvi elementlər olmuşdur. Belə ki. həmin nəğmələr, bir tərəfdən, uşaqalrın əqli, estetik və fiziki qabiliyyətlərini fəallaşdırmış, digər tərəfdən onları sözün geniş mə'nasında həyata ( ailə həyatına, təsərrüfat həyatına, maldarlığa, əkinə-biçinə və s) hazırlamaqda mühüm rol oynamışdır.

Tərbiyəvi baxımından uşaq nəğmələri və sözlü oyunlar ( laylalar, oxşamalar, arzulamalar, düzgülər, sanamalar, çaşdırmaclar, yanıltmaclar və s) da az əhəmiyyətlər kəsb etmir. Hamıya mə'lumdur ki, uşaqların dinc yuxusu, rahatlığı, sağlamlığı, xoş əhval-ruhiyyəyə, gözəl ovqata malik olması, nitqin inkişafı, düzgün danışıq və tələffüz vərdişlərinə yiyələnməsi, söz ehtiyatının artması və s çox vacib məsələ kimi həmişə yaşlı nəslin nümayəndələrinin fikrini məşğul etmişdir ki, bunun nəticəsində xalq

pedaqogikasında laylalar, oxşamalar, sanamalar, öcəşmələr, acışmalar, düzgülər kimi çoxlu vasitələr yaradılmışdır. “Uşaq nəğmələri” adı ilə mə'lum olan bu vasitələrdə hər şey psixoloji və pedaqoji ustalıqla ölçülüb-biçildiyindən həmin nümunələr uşaqlar tərəfindən asanlıqla qavranılır, ritmlə, taktla və böyük həvəslə oxunur, tez də yadda qalır. Laylaların tə'siri altında körpə balalar ana dilinin səslərini dərk etməyə, ana nəvazişinə alışmağa başlayır. Laylaların məzmunu, onların ifasındakı həzinlik, emosionallıq uşaqların dinc yuxusu üçün şərait yaradır; oxşamalardakı xoş ahəng, zəriflik, şuxluq körpələrdə xoş ovqat yaradır, onların “fantaziyasını” formalaşdırır; onlarda çeviklik, hazırcavablıq keyfiyyətlərini inkişaf etdirir; yanıltmaclar uşağa dildə olan çətin sözləri düzgün tələffüz etməyi öyrədir, dəqiq və tez danışmaq vərdişlərinə yiyələndirir; çaşdırmalar diqqətli olmağın və məntiqi danışmaq bacarığının vacibliyinə inam tərbiyə edir; düzgülər uşaqların əyləndirir, onların ritm hissini, diqqətliliyi inkişaf etdirir; sanamalar sayı körpələrə asan yolla öyrədir və s. Qısasını desık, uşaq nəğmələrinin hər bir növü xalq müdrikliyindən nur alan səciyyəvi tərbiyə daşıyır. Buna görədə xalq pedaqgikasında onlar tərbiyə vasitəsi rolunu oynayırlar. əyani olmaq üçün uşaq nəğmələrinin bə'zi növləri üzrə nümunə verək:

**Layla**

Laylay, gözüm, bəbəyim,
Hər arzum, hər diləyim,
Dar gündə, bəd ayaqda
Sənsən mənim köməyim.
Balam, laylay, a laylay,
Gülüm, laylay, a laylay!

Xalq uşaqların tə'lim-tərbiyəsi məqsədilə tapmacalardan da geniş surətdə istifadə etmiş və çoxlu tapmaca yaratmışdır. Müasir pedaqoji istilahlarla desək, tapmaca xalq tə'liminin evristik üsuludur. Çünki tə'limin evristik üsulunda olduğu kimi, hər bir tapmacada da cismin, əşyanın, hadisənin və s müəyyən əlamətləri, nişanələri,yxud xüsusiyyətləri verilir və uşaqdan həmin həmin nişanə və xüsusiyyətlərə istinad etməklə nəzərdə tutulan əşyanı, cismi tapmaq tələb olunur. Bu cavabtapma prosesində uşağın təfəkkürü fəaliyyətə gəlir, zehni axtarışlar, fikri araşdırmalar baş verir. Nəticədə, uşağın zehni inkişaf edir, hafizəsi yeni biliklərlə zənginləşir.

Zəhmət adamları hələ evrestik üsul pedaqogikaya bir termin kimidaxil olmazdan çox-çox əvvəllər uşaqları ətraf aləmin cismin və hadisələri ilə tanış etmək işində tapmacalaradan bol-bol istifadə etmiş, uşağın zehnini inkişaf etdirməkdə bunların böyük əhəmiyyət kəsb etdiyini düzgün başa düşmüşlər.

“Əqli tərbiyə ” fəslində görəcəyimiz kimi, tapmacaların mövzusu dairəsi çox geniş və rəngarəngdir. Təkcə bunu deyək ki, 1971-ci ildə “Elm” nəşriyyatı tərəfindən çap edilmiş “Azərbaycan tapmacaları”nda ( toplayan, tərtib edən N.Seyidov ) təbiət və təbiət hadisələri, nəbatat aləmi, mədəni bitkilər, ağaclar, bostan vətərəvəz məhsulları, meyvələr, yabanı və dənli bitkilər, heyvanlar, quşlar, həşəratlar, heyvandarlıq məhsulları, insan və onun bədən üzvləri, geyim və bəzək əşyaları, çadır, ev və onun hissələri, ev təsərrüfatında işlənən şeylər,silahlar, xörəklər, musiqi alətləri, kənd təsərrüfatı alətləri, mətbuat, texnika, və s üzrə 1500 -ə qədər tapmaca toplamışdır. Nəzərə alınsa ki, bu nümunələr Azərbaycan tapmacalarının cüz'i hissəsidir, onda tapmacaların bilik mənbəyibaxımından pedaqoji material kiminecə böyük əhəmiyyət kəsb etdiyini sübuta yetirməyə ehtiyac qalmaz.

Erkən orta əsrlərdə və sonrakı dövrlərdə yaradılmış tapmacalarda kağıza, kitaba,yazı ləvazimatına, yazıya,oxuya və s aid nümunələrdə az deyildir. Konkretlik naminə onlardan bə'zilərini qeyd edək:

Qara kişi, əlində şişi, şişini əyər, toxumu səpər (Yazı)

Ağ yerə toxum səpərlər (Yazı)

Ağ çöldə qara toyuq (Səhifə və yazı)

Ağ kövşəndə yer şumlayıram ( Kağız üstə yazı yazmaq)

Adət və nəsihətlər, ustadnamələr milyonlarla adamların həyat təcrübəsinin ümumiləşdirilməsidir, ağlın, zəkanın məhsuludur, ona görə indi də özünün tərbiyəvi əhəmiyyətini saxlamaqda davam edir. Buna əmin olmaq üçün aşağıdakı nümunələrə nəzər salmaq kifayət edər:

–Azərbaycan xalqı deyər ki, atanın (valideyinin) boynunda övladının üç borcu vardır: böyütmək, tərbiyə edib oxutdurmaq və evləndirmək.

–Ailə içərisində ən hörmətli şəxs ata-ananı hesab edərlər. Övlad ata-anasına hörmət etməli, onun sözünü çevirməməli, üzünə ağ olmamalı, nəsihətlərinə qulaq asmalıdır. “ Yuxarıda allah, aşağıda ata-ana ”, yaxud “ Ana haqqı– tanrı haqqıdır”, –deyərlər. Ata evə girəndə ayağa qalxar onun xidmətində dayanar, buyruqlarını can-başla yerinə yetirərlər. “Ata-ana qarğışı tutar” – deyərlər. Ana südü müqəddəsdir. “Ananın südü sənə haram olsun”, “Ananın südü burnundan gəlsin” –sözləri qarğış və “Ananın südü sənə halal olsun” müqəddəs and kimi işlənir. Yaxşı igid üçün, namuslu qız-gəlin üçün “ halal süd əmib” –deyərlər.

....Qızının tərbiyəsi əsasən anadan, oğlun tərbiyəsi isə atadan hesab edilir: “Qızı ana öyrədər”, “ Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə səfərə çıxmaz” deyərlər.

Azərbaycan xalqının adətinə görə, qısqanclıq, arvada e'tinasızlıq göstərmək yaramaz. Evin dirəyi, evi düzəldən arvad hesab edilir. Hətta yaxşı qız haqqında “filankəsin qızı ilə evlənsən, evin dirəyi qızıldan olar” –deyərlər. Arvad yaylığını qabağa atanda bütün günahdan keçərlər. Arvadın çarqatı tapdanmamalıdır. Arvadın “dilli”olması (deyingənlik mə'nasında) mənasında mənfi sifət kimi qiymətləndirilir. Kişinin namusu da arvadı isməti, ərinə sədaqəti ilə ölçülür.

Azərbaycanlılar dost arasında qardaşdan irəli hesab olunur: “Hər şeyin təzəsi, dostun köhnəsi”, “ Dostu yaman gündə sınarlar”, “Dostun varsa candan– qorxma cahandan”, “ Dost sirrini dosta verər”, “Dost dosta tən gərək, tən olmasa gen gərək” –deyərlər.

....Qocalara və yaşlılara qarşı həssas olmaq, ehtiram göstərmək, onların buyruqlarını yerinə yetirmək yaşca kiçik olanların borcudur. Gənclər yaşlıların nəsihətlərini diqqətlə dinləməlidirlər. Onlardan qabaq çörək kəsmək, qabağa keçmək və söhbətə başlamaq hörmətsizlikdir. Cavanları pis hərəkətlərdən çəkindirmək üçün onları döymək dərəcəsinə gəlsə də, qocaya əl qaldırmaq olmaz...

“Qonaq evin yaraşığıdır”, “Qonaq sevənin süfrəsi boş olmaz” “Qonağı gəlməyən qara evlər yıxılası yey”, “Qonaqsız evdə xeyir-bərəkət olmaz” –deyərlər. Hər bir azərbaycanlı na'məlum şəxsin: “Allh qonağı istəyirsənmi?” sualına “Allhada qurban olum qonağına da” – deyə cavab verər və onu məmnuniyyətlə qonaq saxlarlar

“ Qonşu qohumdan da irəli bilərlər”, yaxud “Qonşu qonşuya baxar, canını oda yaxar”, “Qonşun pisdir köç qurtar” –deyərlər

*Nəsihətlərdən:*

Ağıl və kamal dövlətdən yüksəkdir, ağıllı olmağa çalış.
Ağlını biliklə zənginləşdir, biliksiz ağıl paltarsız bədən kimidir.

*Ustadnamələrdən:*

Dəli könül, nə divanə gəzirsən,
Bivəfa dilbərdən sənə yar olmaz!
Düz çıxmaz ilqarı, əhdi, peymanı,
Hərcayıda namus, qeyrət, ər olmaz!

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə.
Ot bitər kökü üstə, əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz!

Azərbaycan xalqının pedaqoji fikrini əks etdirən folklor nümunələ- rindən danışarkən ibratamiz mif, əfsanə və rəvayətlərdən söz açmaq olmaz.

Başqa xalqlar kimi, qədim azərbaycanlılar da dünyanın və həyatın mənşəyi, təbiət hadisələri, mövhumi varlıqlar, əfsanəvi qəhrəmanlar, ruhlar və s haqqında inam, təsəvvür və e'tiqatlarını təcəssüm etdirən çoxlu əsatirlər, mifoloji rəvayətlər, əfsanələr yaratmışlar. Qədim dövelərin fikir və məhsullarından olna həmin sənət incilərində öz zamanının pedaqoji, əxlaqi, ictimai-estetik idealları da özünəməxsus şəkildə (sadəlöv e'tiqat formasında) mə'nalandırılmışdır.

Azərbaycan mifik əsərlərində el-obaya məhəbbət, doğma yurdu və xalqı qorumaq naminə keçilməz dağa çevrilmək sə'yi, camaata başçılıq etmək və xoşbəxtlik üçün daha ləyaqətli və ağıllı olmaq motivi, bakirəlik, ismətli və sədaqətli olmaq ideyası, övlada qayğı, valideyin məhəbbəti və s belə məsələlər üstün yer tutur. Bu baxımdan həmin əsatirlər, əfsanələr, mif və rəvayətlər indidə özlərinin pedaqoji təravətlərini saxlayır və xalq pedaqogikasının qiymətli materialları kimi faydalanırlar.

Əyani olmaq üçün bir-iki nümunəyə diqqət yetirək:

## Əsatir

Bir el ağsaqqalının boya-başa çatmış yeddi oğlu varmış. Özü də qocalmışdı. Yağılar fürsəti bada vermir, tez-tez basqın edib eli talayırlarmış. Günlərin birində yağılar yenə basqın edirlər. Yeddi qardaş qoşun yığıb onların qabağına çıxır. Ancaq bunlar az, yağılar isə çox və neçə ilin qantökənləriydi. Yeddi qardaşın qoşunu basılır. Qardaşlar görür ki, qoşun basıldı, yağılar yenə eli çalıb, talayacaqlar, üzlərini göyə tutub tanrıya yalvarırlar ki, ay tanrı, bizi keçilməz dağa döndər, qabağı kəsək yağılar elimizə soxulmasınlar.

Tanrı onları eşidir: qardaşların yeddisi də dağa dönüb yan-yana düzülürlər. Yağılar keçməyə yol tapmır, qayıdıb bi yolluq gedirlər. El-oba salmat qalır.

## Tarixi şəxsiyyətlərlə bağlı rəvayətlərdən

**Süleyman məhkəməsi**

Bir gün Süleyman peyğəmbərin yanına iki qadın gəlib onların arasında olan mübahisəni həll etməyi xahiş edirlər. Qadınlardan biri deyir:

–Biz bir kişinin arvadıyıq. Eyni vaxtda hərəmiz bir oğlan doğmuşuq. Dünən gecə bu qadın yuxulu olub,öz uşağını altına salıb boğmuş,sonra ğlü uşağı gizlicə yanıma qoyub oğlumu götürmüşdür. Uşağımı ondan alıb mənə verməyinizi xahiş edirəm.

O biri qadın bütün bu deyənlərin yalan olduğunu bildirir.

Süleyman onların hər ikisini diqqətlə dinlədikdən sonra deyir.

–Indi ki, iknizdə uşağın sizə verilməyini tələb edirsiniz, mən arzunuza əməl edirəm.

O, sağ qalmış uşağı yanına gətirməyi əmr edir.

Uşağı bələkdə gətirib Süleymanın qarşısına qoyurlar. O, qılıncını uşağın başı üzərində qaldırıb deyir:

–Indi uşağı tən yarı bölüb hərənizə bir tərəfini verəcəyəm. Onda ikinizdə razı qalarsınız.

Uşağın əsl anası dərhal Süleymanın ayaqlarına sərilir. Söyləyir ki, onu öldürmə, o biri arvada verməyə razıyam.

Yalançı ana isə:

–Mən sizin ədalətli hökmünüzdən razıyam, – deyir.

Süleyman qadınların hərəkətindən uşağın əsl anasının kim olduğunu öyrənir, yalançı qadını isə cəzalandırır.

Azərbaycan xalq pedaqogikasının materialları arasında xalq tamaşaları, nağıllar və dastanlar da özlərinə məxsus yer tutur.

Xalq tamaşaları xalq tərbiyəsinin həm vasitə həm də mənbələrin- dən , həm də təşkil formalarından biridir.

Dinləyicilərdə tamaşaçılarda müsbət fikir formalaşdıran, məfi keyfiyyətlərə ikrah hissi doğuran, bədii zövqü və görüş dairəsini genişləndirən xalq tamaşaları (xalq dramları) çoxdur. “Əkində yox, biçində yox, yeyəndə ortaq qardaş”, “Kosa-kosa”, “kilim arası”və s belələrindəndir.

Xalq dramları bayram günlərində, el şəklində daha təntənəli şəkildə keçirilərmiş. Çox zamanlar məclisdə sazandalar çalar, xanəndələr oxuyar, adamlar oynayar, zarafatlaşar və şənlənərlərmişlər. Beləliklə həmin tamaşalar admların mənəviyyatını formalaşdirmaqda mühüm əhəmiyyət kəsb edərmiş. Odur ki, belə tamaşa və dramları qoruyub saxlamaq, dahada zənginləşdirmək və qeydinə qalmaq lazımdır.

“Xalq pedaqigikasının parlaq nümunəsi” (Uşinski)olan nağıllara gəldikdə, onları mütəxəssis alimlər adətən üç  əsas qrupa bölürlər: a) heyvanlar aləmindən bəhs edən nağıllar, b) əsatiri nağıllar, c) məişət nağılları. Bu nağılların əksəriyyəti (I və II qrupdan olan nağıllar) öz köklərinə görə qədim dövrlərə aiddir. Ancaq bunlar da ( hətta, ilan, inək, at, qurd, öküz və s totemlərlə əlaqədar olan nağıllarda belə) ictimai və əxlaqi-pedaqoji məsələlər böyük ustalıqla əks etdirilir. “Zəmanənin hökmü” nağılı da buna misal ola bilər.

Həmin nağılda ilanla Əlimardanın arasında baş verın hadisələrin fondunda xlq insanın formalaşmasında mühitin böyük rol oynadığını açıq-aşkar şəkildə qeyd etmişdir.

Uşaqlar üçün yaradılmış nağıllarda da həqiqət ünsürləri qüvvətli olmuşdur. Uşaqlara tez və asan çatsın deyə, bu ünsürlər əksər halda həşəratların, heyvan və quşların dili ilə verilmişdir.

Nağılların pedaqoji əhəmiyyətindən danışarkən böyük rus pedaqoqu K.D.Uşinski yazırdı ki, xalq nağılları, xalq pedaqogikasının ən parlaq nümunəsidir və bu məsələdə də heç kəs onunla müsaqibəyə girə bilməz.

Nağıllara nisbətən dastanlar özhəcmi və məna tutmu etibarilə daha böyük epik janrdır. Ancaq əslində onlar da xalq nağıllarından, əfsanə və rəvayətlərdən yaranmışdır. Dastanlar da üç növdə, xarakterdə olur: a) qəhrəmanlıq dastanları, b) məhəbbət dastanları, c) ailə-əxlaqi dastanlar.

"Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Kərəm", "Qaçaq Nəbi" və s dastanlar – I qrupa, "Aşıq Qərib", "Abbas və Gülgəz", "Əsli və Kərəm" kimi nağıllar –II qrupa, "Alıxan və Pəri" qəbilli dastanlar isə –III qrupa aiddir. Tərbiyə baxımından bunların hər üçü də qiymətlidir. Onlardakı tərbiyə ideyaları, pedaqoji adət və ən'ənələr insanı həyata hazırlamaqda, ona pislə yaxşını fərqləndirməyi öyrənməkdə müstəsna rol oynayır.

Lətifələr də xalq pedaqigikasının qiymətli abidələrindəndir. Azərbaycan xalq lətifələrinin müəyyən qismi Bəhlul Danəndənin, çoxu Molla Nəsrəddinin, bə'ziləri Cühanın, Dəli Şirinin və başqalarının adı ilə bağlıdır. Müəllifi məlum olmayan və ayrı-ayrı regionların (Şəkinin, Kürdüstanın, Qarabağın) adına çıxılan lətifələr də az deyildir.

Xalq lətifələrin bəziləri köhnə məktəbi, savadsız müəllimləri, yararsız dərslikləri və tə'lim üsulları ustalıqla ifşa edir. Buna "Molla və alim", "Məsdər", "Gedə bilmirəm" adı ilə mə'lum olan lətifələri misal göstərmək olar.

"Molla və alim" lətifəsini xatırlayaq.

"Başqa məmləkətlərin birində Teymurləngin yanına bir alim gəlir və tərcüməçi vasitəsilə bir çox söhbətlər etdikdən sonra bu məmləkətin alimləri ilə göüşmək istədiyini bildirir. Teymur bütün alimləri yığır. Ancaq bu alimlərdən hüç biri əcnəbi alimlə mübahisəyə girişməyə cəsarət eləmir. Axırda bunların bir qədər qorxduqlarını görən Molla mübahisəni öz boynuna götürür. Məclis qurulur. əcnəbi alim yerdə bir dairə çəkib üzünü Mollaya tutur. Molla bir az fikirləşib dairəni iki yerə bölür. Görür alim dillənmir, bir cızıq da çəkib dairəni dörd yerə bölür, üç hissəsini özünə tərəf çəkir, bir hissəsini isə əcnəbi alimə verir kimi hərəkət edir. Əcnəbi alim razılaşır. Bundan sonra alim əlini arxası yerə doğru yumulu bir vəziyyətdə tutaraq molladan cəvəb gözləyir. Mollada əlini tamamilə bunun əksinə barmaqlarını yerə doğru tutmaqla cavab verir. Üçüncü dəfə alim özünə işarə edərək yeyir kimi hərəkət göstərir. Mollada tez cibindən bir yumurta çıxardır və qollarını quş qanadı kimi çırpır.

Alim gülərək Mollanın əlindən öpür. Molla gedir. Teymur tərcüməçi vasitəsilə alimdən soruşur:

–Bu işarələrdən biz heç bir şey anlamadıq.

Alim deyir:

– Dünya haqqında fikirlər müxtəlifdir. Mən yerdə dairəni cızmaqla yer kürəsinin yumru olduğunu deyərək bu barədə sizin alimin fikrini bilmək istədim. Maşallah sizin alim tez kürənin ekvatorunu çəkdi, sonra dörd yerə bölərək, üç hissənin su, bir hissənin quru olduğunu qeyd etdi. Sonra mən kürə üzərində olan bitkilərin həyatı haqqında fikrini bilmək istədim. Aliminiz buna da doğru cavab verdi.bütün bitkiləri yağışın və günəş şüaları vasitəsilə yaşadığını dedi. Üçüncü sual olaraq mən insanlar, heyvanlar haqqında

onun fikrini bilmək istədikdə, o, tez bir yumurta ilə quşların dəxi bu cinsə aid olduğunu mənim yadıma saldı...”

Xalq pedaqogikasının misilsiz yadigarı olan folklorun digər nümunələri (o cümlədən vücudnamələr, qaravəllilər,aşıq qoşmaları və s) də eyni dərəcədə qiymətli və təqdirəlayiqdir. Ayrı-ayrı dövrlərin və xalqların ən qabaqcıl nümayəndələri onlardan bol-bol bəhrələnmiş və öz əsərlərində tez-tez istifadə etmişlər.

Xalq hikməti “ağsaçlı tarixin”məhsuludur. Ağsaçlı tarix isə hər bir şəraitdə həmişə maraqlı bir dövr kimi qalacaqdır, çünki həmin dövr çox sonrakı daha yüksək inkişafın bünövrəsində durur.

Xalq hikmətinin əksər nümunələri, ümumiyyətlə, folklor on milyonlarla yaradıcı adamın zəkasının bəhrəsi olduğundan, gürkəmli şəxsiyyətlər tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Məsələn, xalqın şüurunu, dünyabaxışını, o cümlədə pedaqoji baxışlarını müəyyənləşdirməyi “böyük vəzifə, ən böyük dahilərin sə'yinə layiq nəhəng zəhmət ” yesab edən V.Q.Belinski həmin məqsədlə folklor materiallarını tədqiq etməyə çağıraraq yazırdı: bu materiallar və ümumən, “xalq ədəbiyyatı elə bir güzgüdür ki, onda xalq həyatı bütün səciyyəvi cəhətləri və özünəməxsus əlamətləri ilə əks etdirir”.

N.A.Dobrolyubov deyirdi ki, folklor ədəbiyyatı xalqın əqlinin, xarakterinin, inamın və təbiətcə baxışın in'ikasıdır.

M.Qorki yazırdı ki, “.....zəhmətkeş xalqın şair ilə fəhlənin eyni adam olduği dövrdə yaranmış şifahi poeziyası ölməz bir poeziyadır”.

L.N.Tolstoy el ədəbiyyatının mahiyyəti onun xalqın həyatındakı rolundan danışarkən demişdir: əbəs yerə düşünürlər ki, bu ədəbiyyat yalnız xalq əyləncəsinin bəhrəsidir. Əksinə, o, xalqın şərəfi, ləyaqəti və zəkasıdır. Bu ədəbiyyat xalqın mə'nəvi simasının təməlini qoymuş və möhkəmlət- mişdir, onun tarixi yaddaşıdır, ruhunun bayram libasıdır, xalqın zəhmətlə, təbiətlə, ataların və babaların ehtiramı ilə bağlı olan gündəlik adət və ən'ənələrlə keçən adi ömrün özünündə dərin məzmunu ilə tamamlamışdır.

Professor Mirzə Kazım bəy yazırdı ki, “... hər xalqın tarixi əbədi inkişafında özünün yaradıcılıq məhsulu olan əfsanələrin, adət və ən'ənələrin əhəmiyyəti böyük olmuşdur... xalqın yaratdığı folklor nümunələri keçmişin sirrini və qaranlıq mədələlərini izh etməklə mühüm rol oynamışdır....xalq idrakının məhsulu olan nümunələr, onun təxəyyülü və fantaziyasının zəngin qida mənbəyinə çevrilir”.

C.Cabbarlı deyir ki, “... xalqın keçdiyi dövrləri, yas və bayramlarını, adət və ən'ənələrini, tərzi-təfəkkürünü, bu və ya başqa bir vəqiəyə qarşı münasibətini... bütün əhvali-ruhiyyəsini, bütün psixolojisini, eyni zamanda onun mədəni səviyyəsini, ədəbi istedad və bacarığınıöyrənmək üçün ilk vasitə və ən doğru bir tərcüman varsa, onun dillərdə dastanlar, mahnılar, nağıllar və ilaxır kimi dolaşan el ədəbiyyatıdır”.

Digər tərəfdən xalq pedqogikasının qiymətli yadigarı folklor birdən-birə indiki şəkildə meydana çıxmamışdır: o, cəmiyyətin həyatı, inasanların ictimai, əxlaqi, estetik-fəlsəfi ilə birlikdə inkişaf etmiş və dəyişmişdir. Xalqın bədii və pedaqoji mədəniyyətinin tərəqqi və inkişafı sinifli cəmiyyətlərdə həmişə istismarçı sinif və təbəqələrin ideologiyasına qarşı mübarizə ilə qaçılmaz surətdə bağlı olmuşdur. Çünki, zəhmətkeş kütlələrin xoşbəxt gələcəyə doğru irəliləməsi ideyaları azadlıq, yaxşı həyat, yaxşı tə'lim- tərbiyə mübarizədə əmək adamlarını silahsızlaşdırmağa çalışan ideyalarla dinc yanaşı yaşamamışdı, yaşaya da bilməzdi.

Folklor materialları içərisində bir-birinə zidd fikirlərin olması bir də bundan irəli gəlir ki, onlar ictimai həyatın müxtəlif sahələrində, müxtəlif fəaliyyətlərdə, müxtəlif şəraitdə və iqtisadiyyat üzərində yaradılmışdır. Onları yaradan və hətta eyni sinfə, eyni zümrəyə mənsub olan insanların özləridə həyat təcrübəsi və bilikləri e'tibari ilə eyni səviyyədə olmamışdır. Məzlum xalq bir çox təbiət və cəmiyyət hadisələrinin mahiyyəti haqqında dürüst mə'lumatlara malik olmadığından üzünü bə'zən göylərə, təbiətə və mövhumi qüvvələrə tutmuşdur. Nəticədə, müəyyən qondarmalar da düzəlt- mişdir. Çünki, dürüst bilik olmayan yerdə adətən qondarma meydana çıxır. Odur ki, ilk baxışda ziddiyyətli görünən folklor nümunələrinin hamısını istismarçı siniflərin ayağına yazmaq, onların yaradıcılığı hesab etmək düzgün olmaz. Axı hər ziddiyyət sinfi ziddiyyət deyildir. Ona görədə bə'zən iki cür münasibət ifadə edən folklor nümunəsinin hər ikisinin müəllifi məhz əməkçi xalqın özü olur. Məsələn çox ehtimal ki, “ot öz kökü üzərində bitər”, “tələsən təndirə düşər” kimi atalar sözləri də məhz zəhmət adamları yaratmışlar. Çünki, bu qəbil fikirləri doğruldası real səbəblər həyatda mövcuddur. Yaxud “gödək adam xəbis olar” tipli atalar sözünü həmişə bədsərəncam “cənablara” , hakimlərə bağlamaq olmaz. Demək xalqın öz sözündə də xılt var və bu maddi gerçəkliyin özü ilə bağlı şeydir.

A.V.Lunarçaski demişkən, yeni nəsillər köhnə nəsillərin qavrayırlar, onlar köhnə nəsillərin çiynində dururlar, minlərlə nəsillərin əldə etdiyi bütün qiymətli şeyləri əxz edirlər, lakin bununla birlikdə xürafatı da, eyibləri də, bütün çirkabı, bütün xltı, bütün üfunəti də qəbul edirlər. Harada isə filtir (süzgəc), harada isə tor qoymaq lazımdır ki, o, bütün qiymətli şeyləri, bütün qüdrətli axını, yaxşı adətləri və nailiyyətləri özündə keçirsin, çirkabı, xıltı və üfunəti isə buraxmasın.

Dediklərimizin yekunlaşdırsaq, mə'lum olar ki:

–xalqın müdrikliyini, onun demokratik və bəşəri ideyalarını, əsrlər uzunu ümumiləşdirdiyi nəticələri, həyatın bütün hadisələrinə, tərbiyə məsələlərinə baxışını əks etdirən folklor nümunələri eyni zamanada xalq pedaqogikasının qiymətli yadigarlarıdır. Onlar zəhmətkeşlərin tarixi- mədəni irsinə daxil olduğundan və elmi pedaqogika da tarixi-mədəni irsdəki qiymətli cəhətlərdən yaradıcılıqla istifadə etdiyindən müasir tərbiyə sistemində də özünəməxsus yer tutur.

–Azərbaycan xalq pedaqogikası abidələrindəki qiymətli tərbiyəvi fikirlər tarix boyu milyon-milyon adamların, o cümlədən pedaqoji fikir nümayəndələrinin ümumi inkişafın qüvvətli tə'sir etmişdir. Bu abidələr xalq pedaqogikasının yadigarları kamal dünyası, ibrət dərsliyi olub indi də insanları ayrı-ayrı hadisələrin xüsusiyyətləri ilə tanış edir, insanın biliklərini dərinləşdirir; hissini, təxəyyülünü, təsəvvürünü inkişaf etdirir; adama az sözlə geniş fikir söyləməyi öyrədir; adamın nitqini canlı xalq dilinə yaxınlaşdırır, söz ehtiyatını zənginləşdirir;

–xalqın həyat təcrübəsindən çıxardığı hökmləri, tərbiyəvi fikirləri düzgün və yerində işlətməklə istənilən nəticəni əldə etmək olar;

–zəhmətkeş kütlənin tərbiyəyə aid fikir və görüşləri həyatilik cəhətdən çox qüvvətli olub, real səciyyə daşıyır; bu fikir və görüşlər elmi pedaqogika üçün səciyyəvi olan xəlqilik, kollektivçilik, humanistlik kimi mütərəqqi məzmunları ilə fərqlənir. Bununla belə, utopizimdən, fanatik tə'sirlərdən və ziddiyyətlərdən də azad deyildir. Buna görə də xalqımızın həmin sahədəki irsindən istifadə edərkən ona tarixi nöqteyi-nəzərdən və tənqidi yanaşmaq lazımdır.

## Mövzu 3. Folklor etnopedaqogikanın qiymətli yadigarı və milyonların ibrət dərsliyi tərbiyə məktəbi kimi.

**Plan**

- **Folklor ümumxalq sərvətidir**
- **Bütün yaş dövrlərini və həyatın bütün məqamlarını əhatə edən dəyərli tərbiyə vasitəsi**

**Ədəbiyyat**


- Ə.Həşimov,F.Sadıqov. Azərbaycan xalq pedaqogıkası. Bakı, «Patronat». 1993.
- A.Nəbiyev. Nəğmələr, insanlar, alqışlar. Bakı, «Yazıçı». 1986.
- P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, «Maarif». 1992.
- Azərbaycan folkloru antologiyası. I (1994), II (1999), III (2000), IV (2000), V (2001), VI (2002), VII (2002), VIII (2003), IX (2004), X (2005) cildlər.


- **Folklor ümumxalq sərvətidir.** Azərbaycan dilində el ədəbiyyatı, şifahi xalq ədəbiyyatı, şıfahi ədəbiyyat, şifahi xalq yaradıcılığı kimi tanınan ədəbiyyata elmi terminologiyada **folklor** deyilir. Əsli ingiliscə olan bu sözün mənası **«xalq müdriklıyi»** deməkdir.

Tarixdə xalqlar bir sıra özünəməxsus əlamətlərə görə səciyyələnirlər; irq, dil, hərbi, psixoloji və s. əlamətlərlə bərabər, xalq müdrikliyi də bu sıradadır. Xalq müdrikliyi sadə anlayış olmayıb tarixi inkişaf prosesinin nəticəsidir. Dahi şəxsiyyətlərin qeyd etdiyi kimi, insanı əmək yaratmışdır. Elə xalqın müdrikliyi də əmək prosesində yaranmışdır. Kollektiv iş görən-ağır bir şeyi qaldıran, hansısa qüvvədən qorunan ibtidai insan, işini yüngülləşdirmək üçün mahnıya, rəqsə ehtiyac hiss etmişdir və bu yerdə ritmlə deyılən söz ona qüvvə vermiş, maneəni dəf etməsinə kömək olmuşdur. Həmin sözlər ağızdan-ağıza, nəsildən-nəslə keçdikcə cilalanmış, müdrik kəlamlara çevrilərək həm mənsub olduğu xalqın, həm də bütün bəşəriyyətin sərvətinə çevrilmişdir. İnsanların həyat təcrübəsi, şəxsiyyətin inkışaf prosesi ilə bağlı biliyi artdıqca folklorun da növləri artmışdır. İnsan dünyaya gətirdiyi övladların böyüyüb ərsəyə çatmasında, əsl insan kimi yetişməsində folklorun faydasını görmüş və onu

daha da inkişaf etdirmişdir. Beləliklə, xalqın pedaqoji fikir dünyası yaranmışdır.

Xalqımız qədim tarixə malik olduğu kimi, onun folkloru da qədimdir. Xalqın sevinci, kədəri, toyu, yası, əməyi, istırahəti, körpəsi, böyüyü folklorda əks olunmuşdur. Əvvəldə qeyd etdıyımiz kimi, atalar sözləri, laylalar, bayatılar, holovarlar, sayaçı sözləri, düzgülər, sanamalar, oxşamalar, nazlamalar, lətıfələr, yanıltmaclar, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar  və s. folklor nümunələridir və xalqın tarixi təcrübəsi əsasında yaranmışdır. Onların hər birinin həyatda müstəsna əhəmiyyəti var.

Prof. Ə.Həşimov bu barədə yazır: «Xalq pedaqogıkasının bizə çatan yadigarları, materialları müdriklik dəfinəsidir. Onlar yığcamlığı, siqləti, obrazlılığı, dərin ictimai pedaqoji məzmunu, ədəbi-tarixi koloriti, əxlaqi-etik tövsiyəsi, nəsıhətamiz ruhu ilə xalqın kamal dünyasıdır. Xalq pedaqogikası materiallarının hər birində həyatın, tərbiyənin bu və ya dıgər məsələsi üzrə, zəhmətkeş kütlələrin real qənaəti, inamı, etiqad və təsəvvürü əks olunmuşdur». Bu səbəbdən də biz folkloru ümümxalq sərvəti kimi dəyərləndiririk».

● **Bütün yaş dövrlərini və həyatın bütün məqamlarını əhatə edən dəyərli tərbiyə vasitəsi**

Xalqın yaratdığı bütün şifahi xalq ədəbiyyatı nümunələri insanın tərbiyəsinə, mənəvi kamillik yoluna istıqamətləndirilməsinə xidmət edir. Dünyaya gəldiyi gündən uşaq estetik, isti, məhrəm, işıqlı arzularla dolu sözlər dünyasına düşür; ona layla çalınır:

**Layla dedim yatasan,**
**Qızılgülə batasan.**
**Qızılgülün içində**
**Şirin yuxu tapasan.**

Laylalar insanın tərbiyəsinə istiqamətləndirilmiş ilk folklor nümunəsidir. Hələ yeriməyi, danışmağı bacarmayan, ətrafdakıları tanımayan uşağın ruhuna sığal çəkir; ağlayırsa sakitləşir, yuxusuzdursa yatır. Anasının, nənəsinin səsini, ünsiyyətini duyur. Əmin-amanlıq və gözəllik içində böyüyür.

Uşağın yuxudan oyanmasını ata-ana və evdəki digər böyüklər bir qədər də gözəl əhval-ruhiyyə ilə qarşılayırlar. Onu atıb-tutur, oynadır, əzizləyir, oxşayırlar. Bu

əzizləmələr üçün xalqımız oxşama və nazlamalar qoşmuşdur. Məsələn, körpəni qucaqlarına alaraq, barmağın ucunda xəfifcə əvvəlcə bir yanağına, sonra o biri yanağına, axırda çənəsinə toxunaraq demişlər:

**Burda yağ var,**
**Burda bal var,**
**Gülən, gülən, gülən.**

Bu nəvaziş körpənin təbəssümünə səbəb olmuşdur. Bir neçə aydan sonra onu atıb-tutaraq əzizləmə söyləmişlər:

**Atın-tutun bu balamı,**
**Şəkərə qatın bu balamı.**
**Şəkərdən şirin olsa,**
**Güllərə qatın bu balamı.**

**Atın-tutun bu balanı,**
**Şəkərə qatın bu balanı.**
**Atası evə gələndə**
**Qabağa tutun bu balanı,**
**Qucuna atın bu balanı.**

Yaxud, aşağıdakı sözlərlə oxşamışlar:

**Dağda darılar,**
**Sünbülü sarılar,**
**Qoca qarılar**
**Bu balama qurban.**

Onu çimizdirib geyindirəndə oğlan uşağları üçün oxumuşlar:

**Papağımı yan qoymuşam,**
**İçinə biyan qoymuşam,**
**Gəlib-gedən qızların**
**Ürəyinə qan qoymuşam.**

Qızlar üçün isə belə demişlər:

**Qızım qızlar içində**
**Gül sünbüllər içində**
**Qızıma elçi gələcək**
**On beş yaşın içində.**

Uşaq tədriclə böyüdükcə tərbiyə prosesinə xırda oyunlar əlavə olunur. Məsələn, onu qucaqda oturdub bir əlindən tutur, şəhadət barmaqla xəfifcə ovcunun içinə toxunur və deyirlər:

**Lüli-lüli hödə,**

**Aş bişdi bu öydə.**

Sonra çeçələ barmaqdan başlayaraq bir-bir qatlaya-qatlaya deyirlər:

**Bu yedi,**
**Bu içdi,**
**Bu yığışdırdı,**
**Buna qalmadı.**
**Bu da küsdü, uçdu,**
**Uçdu, uçdu, uçdu,**
**Gəlib qondu bura.**

Yavaşcadan uşağın burnunun ucuna təmas edirlər; uşaq da gülür.

Tədriclə yerimək və diş çıxarma başlanır. Təzəcə ayaq açmağı «Yer dəmirdəndir, göy dəmirdəndir» deyə qarşılayırlar və onun əllərindən tutub «dar-dar» deyə-deyə yerimək öyrədirlər.

Xalqın sınaqlı inancına görə, dişin çıxma prosesini qabıqlı baş soğan asanlaşdırır. Dişin çıxacağı ərəfədə onun yeri gicişir, bu zaman baş soğanın üstündən boşalıb soyula bıləcək qabıqları götürərək bərk qabıqlı halda uşağın əlinə verirlər. Uşaq instinktiv olaraq onu ağzına aparır və dişləməyə çalışır. Yaranan sürtünmədən dişin üstü açılır və o görünür. Ailə bunu «düyülər göründü» deyə sevinclə qarşılayır, «diş hədiyi» bişirilir. Hədik qohum-qonşuya paylanır. Uşaq isə belə oxşanıb əzizlənir:

**İki dişi var qabaqda,**

**Çörək qoymaz tabaqda.**

Uşaq böyüdükcə ona danışmaq, saymaq, oyunlar öyrədilir.

Saylarda barmaqlardan istifadə edilir. Bəzən hər barmağa ad qoyularaq bu işi həm də oyuna çevirirlər. Məsələn, baş barmaqdan başlayaraq sıra ilə göstərib deyirlər:

**Baş barmaq,**
**Başala barmaq (şəhadət barmaq),**
**Uzun hacı (orta barmaq),**
**Gül papıcı (adsız barmaq),**
**Balaca bacı (çeçələ barmaq).**

Barmaqlarla bağlı daha bir oyun öyrədilir ki, burada uşaqlar lap balacalıqdan düzlüyə, halallığa istiqamətləndirilir. Yuxarıda qeyd edilən tərzdə uşağın barmaqları göstərilərək deyilir:

**Bu (çeçələ) deyir: gəlin gedək oğurluğa,**
**Bu (adsız) deyir: hanı nərdivan?**
**Bu (orta )deyir: məndən uzun nərdivan?**

**Bu (şəhadət) deyir: Allahdan qorxmursuz?**
**Bu (baş) deyir: Allah gəlsə qaçarıq.**

Sonra uşağa başa salınır: Bu dörd barmaq səhv etdi. Şəhadət barmaq düz deyir; oğurluq pis işdir, onu heç kəs görməsə də Yaradan görür. Ondan utanmaq və qorxmaq lazımdır.

Uşaq böyüdükcə oyunların da tərzi dəyişir və tədriclə mürəkkəbləşir. Nitqin və zehnin inkişafına xüsusi diqqət yetirilir. On dairəsində say yorğunluq hiss etdirmədən düzgü şəklində öyrədilir:

**Bir, iki-bizimki,**
**Üç, dörd-qapını ört.**
**Beş, altı-daş altı,**
**Yeddi, səkkiz-Firəngiz,**
**Doqquz, on-qırmızı don.**

Bu dövrdən etibarən uşaqların həyatını növbənöv düzgülər, sicilləmə, yanıltmac, çaşdırma, tapmaca, nağıl və oyunlar bəzəyir. Onların hər birində yüksək pedaqoji tələblər qoyulur. Məsələn, «Əmim oğlu Soltan ağa» **oyun-müraciətdə** məsuliyyət hissi, elmə, təhsilə hörmət, ehtiram təlqin olunur:

Bir nəfər uşaq tək, qalanlar dəstə ilə üz-üzə dayanırlar. Dəstə deyir:

**Əmim oğlu Soltan ağa,**
**Gəlin gedək oynamağa,**
**Oynamağın vaxtıdır,**
**Qızıl gülün taxtıdır.**

«Soltan ağa» cavab verir:

**Oynamağın vaxtı deyil,**
**Qızılgülün taxtı deyil,**
**Dərsimi hazırlaram,**
**Sonra gedib oynaram.**

Yaxud uşaqların nitqini inkişaf etdirmək üçün böyüklər onlara yanıltmac söylədirlər. **Yanıltmaclar** uşaqları düzgün danışıq və nitq vərdişlərinə yiyələndirir, söz ehtiyatlarını artırır. Yanıltmaclarla bərabər, bir sıra **sicilləmə-düzgülər** də bu niyyətlə yaradılmışdır. Yanıltmaclardan əsas məqsəd dildə olan çətin sözləri yaxşı tələffüz etməyi bacarmaq və yersiz fasilələrdən uzaq olaraq rəvan nitq vərdişlərinə yıyələnməkdən ibarətdir. Yanıltmaclar həm nəsr, həm də şeir şəklində olur. Bir-birinə uyğunlaşmayan, çətin deyilən, dilə yatmayan sözləri el ustalıqla sıraya düzüb didaktik sənət nümunəsi yaratmışdır. Məsələn, bir neçə yanıltmaca diqqət yetirək:

**Aş asmış aşpaz Abbas,**

**Az asmış aşpaz Abbas.**

**Ay qılquyruq qırqovul,**

**Gəl bu kola gir, qılquyruq qırqovul.**

**Cüt dükcə, cüt-cüt dükcə, üç cüt dükcə.**

**Cöngə, göy cöngə, gömgöy cöngə, dümgöy cöngə və s.**

Yanıltmac söyləməyin şərti var: sözlər aydın və düzgün tələffüz olunmaqla sürətlə deyilməlidir. Bu yöndən bəzən bir neçə uşaq arasında yarış da keçirilir. Yanılan, çaşan uduzmuş hesab edilir.

**Düzgülərdə** də sürətli nitq tələb olunur, çaşmaq ehtimalı yanıltmaclardan azdır. Məsələn:

**A teşti, teşti, teşti,**
**Vurdum, Gilanı keçdi.**
**İki xoruz savaşdı,**
**Biri qana bulaşdı.**
**Qan elədim quşumçun,**
**Yetdi Kəmər başımçın.**
**Kəmər getdi oduna,**
**Qarğı batdı buduna,**
**Qarğı deyil, qamışdır,**
**Beş barmağım gümüşdür,**
**Gümüşü verdim tata,**
**Tat mənə darı verdi.**
**Darını səpdim quşa,**
**Quş mənə qanad verdi.**
**Qanadlandım uçmağa,**
**Haqq qapısın açmağa.**
**Qapıcı qapı toxur,**
**İçində bülbül oxur.**
**Məndən kiçik qardaşım**
**Allah kəlamın oxur:**

Nitq inkişafı dövründə xalq həm də təfəkkürün, ağıl və zehnin inkişafı qayğısına qalmış, **tapmacalar** söyləmiş, onlara cavab istəmişdir. Tapmacalar bu və ya digər əşya, hadisə, məfhum haqqında olur. Həmin əşya və hadısənin bir əlaməti, bir keyfiyyəti dolayı yolla söylənilir, başqa cəhətləri isə gizli saxlanılır. Məsələn:

**Hacılar haca gedər,**
**Əhd edər, gecə gedər.**

**Bir yumurta içində**
**Yüz əlli cücə gedər. ( Nar)**

**Uzun-uzun dərvişlər**
**Bizə qonaq gəlmişlər.**
**O qədər oynamışlar,**
**Torpağa qarışmışlar ( Yağış)**

**Sandığım var mərəndi,**
**Nə qıfılı var, nə bəndi,**
**Elə açılır, elə yumulur,**
**Heç kəs bilməz o fəndi. (Kələm)**

Balaca uşağa çətinlik üz verəndə də xalq onu əzizləmə tərzində, sevərək aradan qaldırmağa çalışmışdır. Məsələn, uşaq yıxılanda ağlayır. Böyüklər onu sakitləşdirmək üçün soruşurlar: «Duzu dağıtdın?» Uşaq əsası olmayan bu sualdan təəcüblənir;ətrafına baxır və ağlamaq yadından çıxır.

Artıq yeniyetməlik yaşında olanlara isə yixildiqları təqdirdə belə sual vermirlər. Onların pərtliyini aradan qaldırmaq üçün ərklə deyirlər: «O boyda yeri sənə verərlər?»

Uşaq xəstələnəndə isə qayğı ilə soruşurlar: «Nə olub, sərçələr təpik atıb?» Bu sual yeniyetməliyə qədər olan dövrə aiddir və kiçicik varlığa qayğının, onu himayənin təzahürüdür.

Yıxılıb azacıq əziləndə isə uşaq ağlayırsa, onu sakitləşdirmək üçün deyirlər: «Gətir öpüm, sağalsın»

Uşaq böyüdükcə folklor nümunələrinin çeşidi və istıfadə imkanları artır. Eyni vaxtda nağıllar, əfsanələr, lətıfələr, atalar sözləri, nəğmələr onların həyatına daxil olur və milli ruhda böyümələrini, sağlam ruhda tərbiyə almalarını şərtləndirir.

Elə buradaca qeyd etmək lazımdır ki, folklor insanla bərabər yol gedir, insan yaşa dolduqca onun da məzmunu və məntiqi dərinləşir, mövzusu uşaq aləmindən ayrılıb gənclik və müdriklik məqamlarına daxil olur, son nəfəsə-ölümədək gedib çatır. Sonda **ağılar** deyilir.

**Əzizinəm səsə mən,**
**Enib gəldim səsə mən.**
**Nə ana var, nə bacı,**
**Səsim qatım səsə mən.**

**Gəldi gülüm, ağlaram,**

**Oldu zülüm ağlaram.**
**Bir vəfasız yel əsdi,**
**Tökdü gülüm, ağlaram.**

İnsan cürbəcür **oyunlar** oynayır.«Gizlənpaç»dan, «Beşdaş»dan,«Qaçdı-tutdu»dan başlayıb cıdıra, «Çovğan»a, gəşt tutmağa qədər yüksəlir, igid olur, cəngavər kimi, pəhləvan kimi ad çıxarır.

Maldarlıqla, heyvandarlıqla məşğul olur, holovarlar, sayaçı sözlər oxuyur: təsərrüfatından şövqə gəlir, işinin avand olmasına can atır.

**Qara kəlim, gündə mən,**
**Kölgədə sən, gündə mən.**
**Sən yat qaya dibində**
**Qoy qaralım gündə mən.**
**Xırda-xırda çəpişlər**
**Otların başın dişlər.**
**Gedər yaylağı gəzər,**
**Gələr aranda qışlar.**

**Nənəm qoynun qarası,**
**Qırxlığı polad parası,**
**Yaz günü dələməsi,**
**Qış günü qovurması.**

İnsan sağın sağıb, əkin əkib, ova çıxıb, ipək yetişdirib, xana toxuyub, balıq ovlayıb, iş görə-görə nəğmələr oxuyub; axşamlar evində ailəsini-uşağını başına yığıb, nağıl, dastan danışıb, lətifə, zərb-məsəl, atalar sözü söyləyib.

Həyatın elə bir məqamı, elə bir incəliyi yoxdur ki, xalq bu barədə qəti hökmünü verməsin. Həmin hökmlər atalar sözləridir. **Atalar sözü** və məsəllər xalqın həyatı, məişəti, əmək fəaliyyəti ilə bağlı olan formaca kiçik, mənaca geniş janrlardandır. Hər atalar sözünün məzmununda bir kitab qədər məna dayanır. Ona görə də xəzinə timsalındadırlar. Nümunə üçün oğuznamələrdən bir neçə sözə diqqət yetirək: «Çubuq ikən əydinsə, əyibsən; pərdilik olandan sonar əyə bilməzsən». «Kim qazarsa, dərin quyu, özü düşər üzüquyulu».

Birinci söz tərbiyə prosesi ilə bağlıdır; təbiətlə müqayısəli tərzdə söylənmişdir.Yəni ağacın çubuq hissəsini asanlıqla əymək mümkün olduğu halda, böyüyüb tikinti materialı əndazəsinə çatmış budağı əymək olmur. İnsan da belədir. Onu körpəlikdən düzgün tərbiyə etmək lazımdır ki,sonra fəsadlar yaranmasın. Digər sözün olduqca sadə məntiqinin

içərisində böyük məna var. Yəni kim nə əməlin sahibidirsə, etdiyinin xeyri də özünə gəlir, zərəri də. Paraleli belədir: «Nə tökərsən aşına, o çıxar qaşığına». Qısa şəkildə izahını verdıyımiz bu sözlərin hər birində mənəvi tərbiyə ilə bağlı saatlarla görülən işin cövhəri qəliblənib və inkaredilməzdir.

Atalar sözləri və **məsəllər** arasında incə fərq var. Məsəllər sözgəlişi, bəzən də naməlum kimi görünən hadısəyə izahat vermək üçün işlənir və işlənməzdən əvvəl belə deyilir: «Məsəl var deyərlər…» sonra həmin məsəl çəkilir. Məsələn: «Göyçə muncuq handadır, mənim canım ondadır», «Filin biri də gəldi» və s.

Hər məsəlin arxasında kiçik bir hekayət dayanır və yeri gələndə atalar sözü məsələ, məsəl atalar sözünə çevrilir.

Elə bir azərbaycanlı tapılmaz ki, o gün ərzində atalar sözündən istifadə etməsin.Uşaq vaxtlarında tapmacalar, düzgülər söyləməsin, nağıllar öyrənməsin, onların təsiri ilə qəlbində estetik duyğular, xeyrə məhəbbət, şərə nifrət yaranmasın. Azərbaycan xalqının hər bir övladı dünyaya gələndə folklorla-laylalarla qarşılanır, gedəndə də folklorla-bayatı və ağılarla yola salınır. Gəlimlə gedim arasındakı ömür payını isə yenə lə folklorla qovuşquda yaşayır. Bütün həyatını folklorun müşayiəti ilə keçirən hər bir şəxs xalqının övladı olmaqla, xalqın özünəməxsus keyfiyyət və tələbləri ruhunda böyüyüb formalaşır. Çünki folklor xalqın tərbiyə məktəbidir.

**Mövzu 4. Etnopedaqogika şəxsiyyəti formalaşdıran amillər haqqında**.

**Plan:**

1. Azərbaycan xalq pedaqogikası materiallarında insan və onun ictimai vəzifəsi probleminin qoyuluşu.
2. İnsanın yaş dövrləri və omların xüsusiyyətləri.
3. İnsanın şəxsiyyət kimi formalaşmasına təsir edən amillər.

**Ədəbiyyat**.

1. Ə.Ş.Həşimov. "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri".Bakı, 1970.

2. Ə.Ş.Həşimov."Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə". Bakı,1984.

3.Ə.Ş.Həşimov. "Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri".

4. Ə.Ş.Həşimov, F.B.Sadıqov. "Azərbaycan xalq pedaqogikası".Bakı, 2000.

5.H.Q.Qədirzadə. Ailə və məişətlə bağlı adətlər, inamlar,etnoqrafik əlaqələr.Bakı, 2003.

6.İ.İ. Əliyev. Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı, 2004.

7.Ə.S.Bayramov.Etnik psixologiya məsələləri.Bakı,1996.

8.Q.N.Volkov. Gtnoredaqoqika. M,2000.

9.Kukuşkin V.S., Stolərenko L.D. Gtnoredaqoqika i gtnopsixoloqiə. Rostov-na-Donu. 2000.

Yeni doğulmuş uşaq necə inkişaf edir? Onun şəxsiyyəti hansı qüvvələrin tə'siri nəticəsində formalaşır? Uşaqlar ayrı-ayrı yaşlarda nə kimi xüsusiyyətlərə malik olur? Belə suallara yaşlı nəsli tarix boyu düşündürmüşdür. Həmin nəslin nurani-pirani nümayəndələri bu cür suallar ətrafında müxtəlif fikirlər söyləmişlər. O fikirlərin bir qismi sinifli cəmiyyətlərdə hakim siniflərin ideyologiyasına uyğun şəkildə bayağılaşdırı- lıbsa, bir qismi öz təravətini indi də saxlayır və elmin müasir nəticələri ilə təsbit olunur. Məsələn, hələ nə qədim insanlar belə, doğulan uşaqların gündən-günə böyüyüb dəyişdiyinin, öz həyatları ərzində müxtəlif fiziki və mə'nəvi keyfiyyətlərə yiyələndiyinin canlı şahidi olmuşlar. Onlar, eyni zamanda dəfələrlə görmüşlər ki, ayrı-ayrı ə'zaları (burnu, əli gözləri və s) sısi, yerişi, təbəssümü və s əlamət və xüsusiyyətləri öz valideynlərinə çəkir,

həlləm-qələm adamların uşağı isə, adətən həlləm-qələm olur; yaxud bəzən uşaq öz valideyninin mübtəla olduğu xəstəliyə düşür; nadir hallarda olsa da kütbeyin, yelbeyin ata-ananın övladında həmin əlamətlərə təsadüf olunur .

Bütün bunların həqiqi səbəblərini, iqtisadi, siyasi, ictimai, bioloji və pedaqoji əsaslarını bilməyən adamlar müşahidələrinin nəticəsini təqribən belə ümumiləşdirirdilər: "Nütfədən pak olan özü pak olar, namərddən törəyən, bil, napak olar", " Nütfədən qarışan şeyidbaz olar" (Aşıq Ələsgər), "...Bədəsil əsil olmaz, boyunca qızıl qala" (bayatılardan), yaxud:

Bədöy mənzilinə hər at yeriməz,
Nanəcib öyüd versən, götürməz,
Ölənədək nişanını itirməz
Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat.
(Aşıq Hüseyn)

Ot bitər kök üstə əsli nə isə,
Yovşan bəsləməklə çəmənzar olmaz.
Vəfalıya əmək çəksən itirməz,
Bədəsil nəsihət, öyüd götürməz.
Qabaq tağı tər şamama bitirməz,
Göy söyüddə heyva olmaz, nar olmaz.
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı budağında bar olmaz.
(Xəstə Qasım)

Belə misalları başqa Dədə aşıqlardan da gətirmək olar. Azərbaycan xalq bayatısı da şübhə ilə soruşur:

Axça dinarmı olar?
Heyva, de, narmı, olar?
Əyri bitən bir söyüd
Gəlib çinarmı olar?

Irsiyyət və qismət nəzəriyyələri ilə səsləşən yuxarıdakı yozmalara görə guya uşaqdakı bütün sifətlər də anadangəlmədir, fitridir, irsən keçmədir, yaxud da Allah tərəfindən verilmədir; yəni uşağın hakim və ya məhkum, zalım və ya adil, mərd və ya namərd, əxlaqlı və ya əxlaqsız,ağıllı və ya kütbeyin olmasının bütün səbəbi ya onun "əsli-nəcabətində", "zatında", ya da "taleyində" axtarılmalıdır. Uşağın "əsli-nəcabəti", "zatı" necədirsə özü də hökmən elə olcaqdır. Yaxud qəzadan insanın taleyi, qisməti necə müəyyən olunmuşsa, elə də olacaq; hər bir şey (o cümlədən də mühit və tərbiyə ) insanın əvvəlcədən müəyyənləşdirilmiş həyat yolunu dəyişdirə bilməz. Yəni insanın təşəkkül və inkişafında mühitin və tərbiyənin heç bir rolu yoxdur. Anadan "aciz və namərd doğulanı" mühit düzəldə bilməz. "Qoz beli qəbir düzəldər" aforizmi də əslində bu mənada olub, mühitin və tərbiyənin gücsüzlüyünə işarə edir.

Bütün antaqonist cəmiyyətlərdə hakim siniflərin mənafeyi naminə bayağılaşdırılan və həmin siniflərin ideoloqları tərəfindən daha da dərinləş- dirilən belə baxış, yozum və

mənalandırma qeyri-elmi və mürtəcə mahiyyətdə olub, tərbiyəçini tərk silah edir, iasanı acizləşdirir, müti hala salır. Bu cür insan “Qəzayə razı olur” və daim belə bir ümidlə yaşayır ki, “Qismət olsa gələr Yəməndən, qismət olmasa çıxar dəhandan”, “Qəza ilə oyun olmaz”. Bir hakda ki, “Yazılan pozulmaz”, bir halda ki, “Qəzadan qaçmaq olmaz” və “Olacağa çarə yoxdur”, daha başqa əməllər nə edə bilər?

Uşağın inkişafına dair xalq pedaqogikası nümunələrindən yuxarıda misal gətirdiyimiz obrazlı fikirlərə real, elmi aspektdə yanaşsaq, onlarda böyük həqiqət olduğu aydın görünər. Həqiqət də budur li, uşaq canlı bir ülviyyət təbii varlıq kimi dünyaya gəldiyi üçün onun inkişafında irsiyyətin rolu özünü hökmən biruzə veriri. Irsiyyət amili olmasaydı, həyat da olmazdı, insanı yetişdirən təkamül mümkün olmazdı. Hər məxluq özünəbənzər başqa bir məxluqu məhz ona görə yaradır ki, onun hüceyrəsində müəyyən genetik məlumat vardır və bu məlumat nəsildən-nəsilə keçir. Artıq geneika elmi müşahidə, statistika, sistologiya, bir yumurta ekizlərinin öyrənilməsi və s bu kimi üsullarla müəyyən etmişdir ki, insanın fərdi xüsusiyyətlərinin bir kökü irsən keçən genetik materiallarda , xromosomlardadır. Mütəxəssislər dediyi kimi, irsiyyət sistemi, irsi əlamətlərin məcmusu cinsi hüceyrələrin nüvəsində--- xromosomlardadır. Bunlar minlərlə kiçik “hissələrdən”---- genlərdən ibarətdir. Genlərin hər biri isə çox mürəkkəb quruluşludur, və elementar vahidlərin daşıyıcısıdır. Xromosom və genlərdə baş verən dəyişmələr nəticəsində meydana gələn xassələrin, anormallığın, zehni inkişafca qeyri-adiliyin, geriliklərin və s nöqsanların əsas köklərindən biri məhz valideyinin və övladının irsiyyətində olur. Uşaq yalnız ictimai mühitin deyil, həmdə ailənin bioloji əsaslarının məhsuludur. Məhz bunun nəticəsidir ki, valideyini səhhətcə çox zəif olanailələrdə uşaqların bioloji əsaslarıda adətən zəif olur.

Şəxsiyyətin təçəkkül tapmasında və inkişafında mühitin, insanı əhatə edən kollektivin, dostların, məişət şəraitinin, cəmiyyətin inkişaf və fəaliyyətinin cərəyan etdiyi təbii və ictimai şəraitinməcmusunun roluna dair xalqın fikrini müəyyən etməkdənötrü xalq pedaqogikası abidələrindən olan atalar sözlərinə, nağıllara və s diqqət yetirmək kifayət edər.

Ümumiyyətlə, real həyatda olduğu kimi, Azərbaycan xalq nağıllarda da qəhrəmanın inkişafı, başqa cür hərəkət etməsi, əksər halarda onun düşdüyü mühitlə şərtləşir.

Mühit kimi tərbiyə də insanın inkişafında, təkmilləşməsində mühüm rol oynayır. Elə “tərbiyə” sözünün lüğəti mənası, bəsləyib yetişdirmək, böyütmə, alışdırma, vərdiş etdirmə deməkdir.

Xalq pedaqogikası materiallarında şəxsiyyətin təşəkkül tapıb inkişaf etməsində mühitlə yanaşı, tərbiyənin də əsas rol oynadığını ifadə edən aforistik fikirlər çoxdur. Misal olaraq, “Adam adam sayəsində adam olar”, “Damcı daşı deşər, söz-başı” və s hikmətamiz kəlamları göstərə bilərik. Həmin kəlamlarda belə bir həqiqət təsdiq edilir; uşaq kamil ustad, tərbiyəçi sayəsində eşidməklə, görməklə formalaşıb sözün əsl mənasında adam olur. Yəni onun şəxsiyyət kimi yetişməsində tərbiyə əsas rol oynayır.

Xalqa görə, inkişaf üçün insan olmaq üçün yaxşı mühit və tərbiyə zəruri olsa da, bunlar özlüyündə hələ azdır. Mühit və tərbiyə çox şeyə qadirdir, lakin onlar irsi keyfiyyətlərdən məhrum olan adamı düzəldim tam normal hala sala bilməz: “Şorakət yerdə bostan əksən, adı bostan olar, tağı tağ olmaz (tənbəl arvada cins inək versən, ayranı bol olar yağı yağ olmaz)”, “Hər oxuyan Molla Pənah olmaz”, “ Bədəsil əsil olmaz”, “Söyüddən çinar olmaz”, yəni Füzuli demişkən, “Cövhərindən eyləmək cismi cüda asan deyil” .

Doğrudan da, şoran yerdə yaxşı məhsul yetişdirmək, söyüdü çınara döndərmək, cismi cövhərindən ayırmaq mümkün olmadığı kimi, digər qabiliyyəti anadangəlmə kəsirli olan uşağı da həmin qabiliyyət sahəsində Vaqif kimi xüsusi istedad sahibi etmək son dərəcə çətindir, bəlkədə heç mümkün deyildir. Xalqın bu sahədəki aforizmləri adamda "ağ lövhə" nəzəriyyəsinin "banısı" ingilis alimi Con Lokkun və eləcə də insanın inkişafında tərbiyə və mühitin rolu həddindən artıq şişirdən XVIII əsr fransız materialistinin həmin məsələdəki baxışlarına qarşı çıxan V.Q.Belinskinin fikirlərini xatırladır. V.Q.Belinski də deyirdi ki, palıd ağacını alma yetişdirməyə məcbur etmək olmaz. Çinki, onda alma yetişdirmək imkanı yoxdur. Körpənin ruhu da üzərində istənilən şeylər yazıla bilər, elə bir imkandır ki, ondan adam ola bilər. Bu fikirləri ilə Belinski də insanda qabiliyyətlərin inkişaf etməsi üçün irsən keçən qüvvələrin böyük rol oynadığını göstərir. Xalq pedaqogikasında da məsələ təqribən bu şəkildə qoyulmuşdur.

Sual olunur: xalq pedaqogikasınsa nəyə görə insanda qabiliyyətlərin inkişaf etməsi üçüçn irsən keçən qüvvələrin rolu ilk sıraya çəkilmişdir? Buna səbəb nədir?

Xalqın mühit və tərbiyəyə nisbətən irsiyyətə üstünlük verməsi, bizcə, bununla izah eidlməlidir ki, əvvala, irsi oxşarlıq, zahiri-biruni əxzətmə saatdakı saniyə ölçən əqrəbin hərəkəti kimi əyandır: mühit və tərbiyənin möhürü, izi isə dəqiqəni və ya saatı göstərən əqrəblərin hərəkəti kimi süstdür (məlum olduğu kimi saatda üç əqrəb var: saniyəölçən, dəqiqə ölçən, saat ölçən). Insan birinci əqrəbin hərəkətini aydınca görə bilir. Ikinci və üçüncü əqrəbin hərəkətini isə o cür görmək olmur. Lakin bu o demək deyildir ki, həmin əqrəblər hərəkət etmir. Bunlar sadəcə, gözlə görünəcək dərəcədə hərəkət etmir. Insanda da belədir: irsi oxşarlıq asanlıqla gözə çarpdığı halda, tərbiyə və mühitin alınan "pay" və onun əks-sədası, yəni dəruni mənəvi təkamül, saatı göstərən əqrəbin hərəkəti kimi "gizli" görünən olur.

Digər tərəfdən görünür ki, irsiyyət amilinin birinci plana çəkilməsində qədim və orta orta sər mühitinin spesifikası (təhsilin bəsitliyi, elmlərin inkişaf səviyyəsi, maarif, təhsil və tərbiyə ocaqlarının seyrəkliyi, yaxud heç olmaması və s) də az rol oynamamışdır.

Ancaq zəhmətkeş xalqın irsiyyət məsələsi barəsindəki fikirlərindən belə nəticə çıxarmaq düz olmaz ki, guya xanlıq, şahlıq, bəylik və s bu kimi rütbələr də ata-anadan övlada irsən keçir və ya keçməlidir: guya istismarçı siniflərə mənsub uşaqlar öz nəslindən mühitindən asılı olaraq zəka və qabiliyyətləri etibarı ilə zəhmətkeşlərin uşaqlarından üstün olurlar: guya cəmiyyətdə "ali" və "alçaq" irqlər vardır və "alçaq" irqin nümayəndələri zəkalarının məhdudluğuna görə "ali" irqlərin zülmü altında yaşamalıdırlar: guya ağıllı, nəcib, kamil adam ancaq varlı təbəqələrin içərisindən çıxa bilər. Əksinə, xalq bu məsələyə başqa cür baxır. Onun nağıl və dastanlarında vəsf etdiyi qəhrəmanlar – zəhmətkeş kütlələrin nümayəndələri əqli, əxlaqi, fiziki və estetik cəhətdən istismarçı hakim sinfin "mötəbər" nümayəndələridən xeyli yüksəkdə dururlar. Misal etibarı ilə, "Ağ atlı oğlan", "Keçəlin məhkəməsi", "Kəndli və padşah" kimi nağılları nəzərdən keçirmək kifayətdir. Birinci nağılın qəhrəmanı yoxsul dəvəçi qızının oğlu Nərbaladır. O, nağılda çox ağıllı, qoçaq, təvazökar və mərd bir adam kimi, padşaha və onun əlaltılarına qarşı mübarizə aparan, yüksək mənəviyyatlı və xeyirxah qəhrəman kimi təsvir olunur.

"Keçəlin məhkəməsi" nağılında isə "keçəl" özünü şahdan və vəzirdən ağıllı, ədalətli, fərasətli vəqabiliyyətli olduğunu camaatın önündə sübut edir. O, padşahın və onun əlaltılarının ağılsızlığını, acgöz və rüşvətxorluqlarını isbat etməklə onları biabır edir.

Adi kəndlinin hakim sinfin mötəbər nümayəndələrindən, vəzirlərdən daha ağıllı olduğunu nümayiş etdirmək nöqteyi-nəzərindən “Kəndli və padşah” nağılı da xarakterikdir: padşah üç vəziri ilə çöldə gəzərkən qoca bir bağbana rast gəlir və ona üç sualla müraciət edir. Bağban hər bir suala müvafiq cavab verir. Vəzirlər bu sual və cavabın mənasını başa düşə bilmirlər. Çarələri kəsilir, kəndlinin yanına gedirlər. Ona çox yalvarırlar. Kəndli deyir:

–Bu iş müftə başa gələn deyildir, hərəniz bir torba qızıl gətirməsəniz mə'nasını deməyəcəyəm.

Vəzirlər razı oldular, qızılları gətirib kəndliyə verdilər. Kəndli dedi:

–Əvvəl padşah məndən soruşdu: “Deyəsən, dağlara qar düşübdür”, yəni başım ağarıbmı? Mən dedim: “Aranı da qar basıb”, yəni saqqalım da ağarıb. Sonra padşah soruşdu: “Deyəsən, uzaqlar qaranlıqdır?”–o demək istəyirdi ki, gözlərin işıqdan düşüb, üzaqları seçə bilmirsən. Mən isə dedim: “Heç yaxında da işıq görmürəm”, yəni yaxını da yaxşı görmürəm. Üçüncü dəfə padşah soruşdu: “Qoşalar necə işləyir?”, yəni iki ayağın necə işləyir? Mən isə dedim: “qoşalara birini də qoşmuşam olub üç”, yəni ağacla gəzirəm. Ən axırda padşah dedi: “Sənin yanına üç qoyun göndərəcəyəm, onları elə qırx ki, sənə də, övladlarına bəs olsun”. Mən padşahın sözündən düşündüm ki, o, siz üç vəziri mənim yanıma göndərəcək ki, sizdən pul alım ömrümün axırına qədər ehtiyacsız yaşayım.

Vəzirlər utana-utana padşahın yanına gəlib əhvalatı danışdılar. Padşah isə: –Sizin üçünüzdə bir kəndlinin ağlı qədər ağıl yoxdur, –deyə onları vəzifədən qovur və kəndlini özünə vəzir tə'yin edir. Nağılın belə bir sonluqla qurtarması bir də buradan irəli gəlir ki, xalq hamının, xüsusən hakimiyyət başında oturanların yüksək və nəcib nəcib sifətlərə yiyələnməsini, ağıllı və müdrik olmasını arzu etmişdir.

Kamilliyin sinfi mövqeyi ilə bağlı olmadığını sübut edən belə poetik pedaqoji nümunələrin sayını xüyli artırmaq olar.

Lakin qeyd etdiyimiz misalların özü də təsdiq edir ki, insanın nəcib, ağıllı-kamallı və tərbiyəli olması onun nəcabətindən, yaxud malik olduğu sərvətdən asılı deyil: hər sinfin içərisində yetkin adam çıxa bilər: çox vaxt yoxsul təbəqədən elə adamlara rast gəlmək olur ki, onlar ümumi inkişaf səviyyəsi nöqteyi-nəzərdən “yuxarı” sinif nümayəndələrindən qat-qat yüksəkdə dururlar.

Qısası bəşəri təkamüldə irsiyyətin nisbəti üstün rol oynamasın dair xalqımızın fikir və qənaətini təhrif etmək olmaz. Bu üstünlük hüç də mühit və tərbiyə amillərinin rolunu azaltmır və ya inkar etmir, bəlkə özünü obyektiv gerçəkliyin inkaredilməz mənzərəsi kimi göstərir.

Yeri gəlmişkən deyək ki, xalq hikmətindən bəhrələnmiş mütəfəkkir və pedaqoqların əsərlərində hər üç amil haqqında çoxlufikirlər vardır. Məsələn, Nizami Gəncəvinin:

Tə'limdir düzəldən işləri sap tək
Omazmı cəhd etsə, bir insan mələk?

Ağıllı adamlarla durub-oturan, həmsöhbət olan, ünsiyyət bağlayan hər kəs son nəticədə mərifət əhli olar; özünü bilməzlərə qoşulanın isə tərbiyəsi, xasiyyəti pozular,ömrü zaya gedər. Odur ki,kamalı olan hər kəs belələrindən uzaq olmalı, onlarla oturub durmamalıdır.

Başqa sözlə desək, uşağın düşdüyü mühit onda müvafiq xüsusiyyətlər yaradır

“Fəzliyə nəsihət” əsərində və bir çox başqa şerlərində Füzuli bitkinin toxumundan nəşvi-nüma tapmasını, böyüməsini çiçək açıb bar verməsini, həmçinin meyvənin yenidən bitki və bəhrə verməsini obrazlı şəkildə qeyd etdikdən sonra həmin qanuna uyğunluğun insana da aid olduğunu söyləyir və oğlunun simasında bütün gəncliyə tövsiyə edir ki, həddi buluğa çatanda valideyn himayəsindən, ata-ana qəyyumluğundan çıxın, özünüzə müstəqil həyat qurun, öz əməyiniz hesabına yaşayıb hörmət və e'tibar qazanmağı bacarın.

Valideyndən övlada keçən irsi xüsusiyyətlərin dəyişə bildiyini uşağın valideyinin tam surəti olmadığını təsdiq edən fikirlərə A.Bakıxanovun “Kitabi-nəsihət”ində də təsadüf ounur: “İnsanın şərafəti kamal və həsəb iləndir, nəsəb ilən deyil, belə ki, qabiliyyətli övlad nəsəbin şərafətindən biehticadır”.

Azərbaycanın ictimai- siyasi, fəlsəfi və pedaqoji fikir tarixində xüsusi yer tutan M.F.Axundov bir çox məsələlərdə olduğu kimi şəxsiyyətin formalaşmasına tə'sir göstərən amillərin rolunu düzgün qiymətləndirmək məsələsində öz sələflərindən xeyli irəli getmiş və daha yüksək səviyyəyə qalxmışdır. “M.F.Axundov deyir ki, insan öz təbiəti e'tibarı ilə nə mehriban, nə qəzəbli, nə qorxaq, nə də əməyi sevən deyildir”. Təhsilə, tərbiyəyə, elmə və ümimən “maarifə qiymət vermək, onu xalq kütlələrinin mənafeyinə tabe temaya sə'y göstərmək, ictimai mühitin inqilabi yolu ilə dəyişdirməyin zəruriliyini qəbul etmək burada insanın fəal rolunu nəzərə almaq M.F.Axundovun pedaqoji baxışlarının metodoloji əsaslarıdır”.

Xalq pedaqogikası materiallarında uşaqların yaş dövrləri və hər yaş dövrünün xüsusiyyətləri barədə də maraqlı fikirlər vardır. Azərbaycan folkloru materiallarından birində deyilir:

Bir yaşında çiçəyə bənzər idim,
Yaşyarımda dörd ayaqlı yeridim.
Iki yaşda su istərəm, içərəm,
Bacı-qardaş bir-birindən seçərəm.
Üç yaşında döndüm üçılmış gülə,
Açılmayan dilim döndü bülbülə.
Dürd yaşında ovsarımı çeynərəm,
Bir saat da bir yerdə dincəlmərəm.
Beş yaşında coşub-daşıb qaynadım,
Altı yaşda yaştaşımla oynadım.

Diqqət edilsə, bu parçada uşaqlıq dövrünün özünün keyfiyyətcə bir-birindən fərqlənən müəyyən mərhələlərə bölündüyünü və hər mərhələni səciyyələndirən əlamətlərin sadalandığını aydın görmək olar: “bir yaş – çiçəyə, üç yaş–açılmamış gülə, dörd yaş– bülbülə, beş yaş– coşob-daşır, qaynayır, altı yaşda kollektivə qoşulur– yaşadşı ilə oynayır”.

Əvvəllər bəlkə də bəslənən “çiçək” – “çağa” sonra tədricən iməkləyir

–“dörd ayaqlı yeriyir”, “yemək içməyə olan ilkin ehtiyaclarını müstəqil ödəməyə meyl güstərir, ətrafındakiları cinsə və qohumluq dərəcəsinə görə fərqləndirməyi bacarır və s”. Üç yaşında uşaq “açılmamış gülə bənzəyir”, şaqraq gülüşləri ilə evə, ailəyə, aləmə sevinc gətirir, tədricən şirin dil açıb dörd yaşında “bülbül kimi” ötməyə başlayır. Bu yaşdan e'tibarən, o, artıq bir yerdə dayana bilmir, “bir yerdə dincəlməyir”, “ovsanın

çeynəyib", həyətə, bayıra, bağ-bağçaya qaçır, uşaqlara tay-tuşlarına qoşulub, onlarla birlikdə oynayır.

Bəs tərbiyə işinə, uşağın şəxsiyyətini formalaşdırmağa hansı yaşdan başlamağa lazımdır? Zəhmətkeş xalq tərbiyə işini lap ilk anlardan, yə'ni uşağın bələkdə olduğu vaxtlardan başlamağı vacib bilmişdir, çünki "Qırxında öyrənən gorunda çalar", yaxud, "Qocanı öldürmək olar, öyrətmək olmaz". Odur ki, xalq obrazlı şəkildə deyir: "Ağac yaş ikən əyilər". Bu atalar sözünün pedaqoji məzmunu pedaqoq-müəllim M.T.Sidqinin sözlərində daha geniş şəkildə şərh olunubdur: "...Uşaqlıq yaş ağaca bənzər", təzə yaş ağac hər nə qədər əyri olsa, düzəltmək asandır və insanın da kiçikliyində tərbiyə qəbul etməsi vazeh mətləblərindəndir. Ümumən xalqa görə , uşaq erkən elə tərbiyə edilməlidir ki, cavanlıqda (15-17yaş) başqalarına, ehtiyacı olnalara kğmək əli uzada bilsin, obarazlı desək, öz gözü ilə onları isidə bilsin, cavanlıqda da elə formalaşmalıdır ki, yaşa dolduqda ağıllı söz-söhbəti və məsləhətləri ilə başaqalarına hikmət öyrədə bilsin. Budur, həmin fikrin xalq deyimi:

Uşaq ikən elə yan ki,
Cavanlıqda közün olsun!
Cavanlıqda elə yan ki,
Qocalanda sözün olsun!

Buraya qədər deyənlərdən aydın olunur ki:

–şəxsiyyətin təşəkkül və inkişafına tə'sir göstərən amillərə, onların mahiyyətinə və insan ömrünün yaş bölgüsünə aid zəhmətkeş xalqın müxtəlif zamanlarda söylədiyi fikir və mülahizələr akademik pedaqogikanın müasir nəticələrinə uyğun gəlir: insanın inkişafı irsən gətirdiyi qüvvələrlə, düşdüyü mühitlə və aldığı tərbiyə ilə bağlıdır;

–yaxşı nəticə əldə etmək üçün tərbiyə işini kiçik yaşlarından başlamaq, müxtəlif yaş dövrlərinə uyğun aparmaq – hər dğvrün səciyyəvi xüsusiyyətlərini nəzərə almaq lazımdır;

–Azərbaycanın görkəmli şəxsiyyətləri xalqın tərbiyəvi fikirlərindən bəhrələnməklə yanaşı, onları daha da cilalamış və yenidən xalqın sərəncamına qaytarmışlar.

## Mövzu 5 . Mühit və irsiyyətin uşağın boya-başa çatmasında rolu haqqında.

**Plan**

- **Xalq pedaqoqikasında qismətin insan həyatına təsirilə bağlı fikirlər və irsiyyət amili**
- **Şəxsiyyətin formalaşmasında xalqın mühit amilini nəzərə alması**
- **Xalq pedaqoqikasında tərbiyə amili**

**Ədəbiyyat**


- Ə.Həşimov. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı, «Maarif». 1991.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogıkası. Bakı, «Patronat». 1993.
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif». 1996.
- Ə.Ağayev.Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi.Bakı, «Avropa».2005.
- İ.Əliyev. Təlim-tərbiyə prosesində etnopedaqoji materiallardan istifadə. Bakı, «Nurlan », 2005
- Aşıq Ələsgər (II kitab). Bakı, «Elm». 1973.
- Atalar sözü, ağlın gözü. Bakı, «Elm». 1976.
- Tarixi rəvayətlər. Bakı, «Altun kitab». 2007.


- **Xalq pedaqoqikasında qismətin insan həyatına təsirilə bağlı fikirlər və irsiyyət amili.** Xalqın fikir dünyasında mərkəzi fiqur insandır. Bütün folklor nümunələrində istər birbaşa, istərsə də alleqorik yolla deyilmiş sözlər şəxsiyyətin inkişafı namınədir. Uşağın böyüyüb boya-başa çatması prosesini və ondan sonrakı dövrü əsrlər boyu izləyərək xalq bu prosesin qanunauyğunluqları ilə bağlı qəti qənaətə gəlmişdir; yəni şəxsiyyətin formalaşmasına təsir edən amilləri müəyyənləşdirmiş və bu barədə öz hökmünü vermişdir. Qeyd edək ki, xalqın şəxsiyyətin formalaşması ilə bağlı fikirləri əsasən elmi pedaqogikanın müddəaları ilə üst-üstə düşür. Lakin bəzi fərqlər də vardır.

Şəxsiyyətin formalaşmasında xalq **irsiyyət, mühit** və **tərbiyə** amilinin həlledici rol oynaması qənaətindədir. Bu gün intəhasız araşdırmalardan sonra elmi pedaqogika da irsiyyət, mühit və tərbiyə amilinin üzərində dayanır. Onlardan hər birinin şəxsiyyətin formalaşmasında təsirli olduğunu sübut edir. Lakin xalq elmi pedaqogikadan fərqli olaraq həm də bu fikirdədir ki, insanın həyatında qismət və alın yazısı da rol oynayır.

Xalqın qismətlə bağlı fikirlərinə görə, insan dünyaya öz alın yazısı ilə gəlir. Onun

taleyi, həyatda görəcəkləri Yaradan tərəfindən müəyyənləşdirilir. Xalq «qismət nəzəriyyəsi» ifadəsini işlətməsə də uzun illərin təcübəsi və müşahıdələr nəticəsində bu qənaətə gəlmişdir ki, həyatdakı, bir sıra olaylar insanın özündən asılı deyil. Qarın, yağışın qarşısını almaq qeyri-mümkün olduğu kimi, «Olacağa da çarə yoxdur». İnsan ona verilən taleyi yaşamalıdır. Bu, qismətdir. Xalqın qismətlə bağlı fikirləri bir sıra atalar sözlərində qəlibləşmişdir: «Sən saydığını say, gör fələk nə sayır», «Yazıya pozu yoxdur, təqdirə tədbir», «Qismət İlahi», «Əzəldən yazılmasa, qul başına qəza gəlməz», «Qismətdən artıq yemək olmaz», «Qismətdən qaçmaq olmaz», «Ruzi verən Allahdır», «Allah! Allah! Deməyincə işlər düzəlməz», «Bir igidin Qara dağ yumrusunca malı olsa, yığar, toplayar, qismətindən artıq yeyə bilməz» və s.

Aşıq yaradıcılığında da qismətə inam güclüdür. Qəzavü-qədərin labüdlüyü, qaçılmazlığı təkrar-təkrar qeyd edilir. Məsələn, ustad Aşıq Ələsgər deyir:

**Qəza tutdu, qədər məni budadı,**
**Ağlatdı dostları, güldürdü yadı.**
**Zəhirmara döndü ağzımın dadı,**
**Əlimdə şərbətim ağı kəsildi.**

Bu beytdə isə aşıq irsiyyət, məsələsinə də toxunmuşdur:

**Müxənnətlər vədə verdi, gəlmədi**
**Qəza qəhr eylədi, iş düzəlmədi**

Xalq mahnısında («Girdim yarın bağçasına») qismətlə bağlı deyilir:

**Gəl, gəl, gəl, gözəlim, gəl,**
**Sevirəm səni.**
**Əgər qismətim olarsa,**
**Alaram səni.**

Qismətlə bağlı fikirlər məişətdən və folklordan adlayaraq yazılı ədəbiyyata da sirayət etmişdir. Məsələn, Ş.İ.Xətainin şerlərindən birində oxuyuruq:

**Qəzadan bir sapand daşı**
**Bir altun kasəni qırsa,**
**Nə artırar daşın qədrin,**
**Nə düşər kasə qiymətdən.**

Xalqın qismətlə bağlı fikirləri həm qismət nəzəriyyəsini təsdiqləyir, həm də irsiyyət nəzəriyyəsinin içindən keçərək onları birləşdirir. Xalq irsiyyətə inanır, irsən gələn xüsusiyyətləri qəbul edir: Diqqət yetirək: «Südlə gələn sümüklə çıxar», «Ot kökü üstə bitər», «Əsil itməz», «Qurdun balası qurd olar», «İlanın ağına da lənət qarasına da», «Quyuya su tökməklə, quyu sulu olmaz» və s.

Bildiyimiz kimi, pedaqoji fikir tarixində müəyyən məqamlarda irsiyyət nəzəriyyəsi hakim sinifin mənafeyınə xidmət etmişdir; yəni hökmdarın övladı hökmdar olar, nökərin balası nökər. Heç şübhəsiz, sinfi mənafe naminə irəli sürülən bu fikir yanlışdır. O uşağın böyüdüyü mühit və ailə tərbiyəsi amilinin üstündən adlayaraq irsiyyəti əsassız şəkildə qabardır. Xalqın pedaqoji baxışlarında bu elementlər yox deyil. Lakin küll halında ümummilli mənafeyə xidmət etdiyi üçün onun müddəaları sinfililikdən azaddır. Xalq irsiyətə real təcrübədən yanaşır. Təcrübə isə göstərir ki, istər fiziki, istərsə də mənəvi keyfiyyətlər (vəzifə yox, keyfiyyət) genetik olaraq nəsildən-nəsilə keçir. Yəni valideyinlərin zahiri əlamətləri, məsələn, saçın rəngi, boy-buxun, danışıq tərzi, səs, yeriş övlada keçdiyi kımi, mənəvi əlamətlər, məsələn, xeyirxahlıq, comərdlik, səxavət, paxıllıq, bədxahlıq, xəsislik, xainlik və s. də keçə bilər və keçir. Odur ki, yeni qurulan hər bir ailənin xoşbəxt gələcəyi üçün irsiyyəti nəzərə almağı tövsiyə edir. Bu barədə «Kitabi-Dədə Qorqud» dastanında oxuyuruq:

«Ozan deyir: «Arvadlar dörd cürdür: birisi soy soldurandır; birisi toy doldurandır; birisi evin dayağıdır; birisi necə desən bayağıdır».

Ozan, evin dayağı odur ki, çöldən-bayırdan evə bir qonaq gəlsə, əri evdə olmasa, o, gələn adamı yedirir-içirir, əzizləyib-oxşayır, yola salır. O cür arvad Ayişə, Fatimə cinsidir, xanım. Onun uşaqları sağ olsun. Ocağına bu cür arvad gəlsin…

Gəldin, o ki, soy soldurandır, oğrunca yerindən qalxar, əl-üzünü yumadan doqquz bozlamacla bir bardaq qatığı gəvələyər, tıxıb-basıb doyunca yeyər, əlini böyrünə vurar, deyər: «Bu evi görüm xaraba qalsın! Ərə gedəndən bəri qarnım da doymadı, üzüm də gülmədi. Ayağım başmaq, üzüm yaşmaq görmədi». Deyər: «Ah, nə olaydı, birinə də gedəydim. Umduğumdan da yaxşı-uyğun olaydı». Onun kimisinin, xanım, uşaqları böyüməsin! Ocağına bu cür arvad gəlməsin.

Gəldin, o ki, toy doldurandır, tərpənincə yerindən qalxdı, əl-üzünü yumadan obanın o

ucunu bu ucuna çarpışdırdı. Söz-şayiə yaydı, qapılara qulaq qoydu. Öynəyədək gəzdi. Öynədən sonra evinə gəldi. Gördü ki, oğru köpəklə yekə dana evini qatıb qarışdırmışdır; evi toyuq komasına, inək damına dönmüşdür. Qonşularını çağırar ki: «Yetər! Zəlihə! Zibeydə! Ürüdə can, qız-can! Paşa! Ayna Mələk! Qutlu Mələk! Ölməyə-itməyə getməmişdim. Yatası yerim yenə bu xaraba olasıydı. Nə olardı, mənim evimə azacıq baxaydınız? «Qonşu haqqı – Tanrı haqqıdır» - deyib söylər. Bunun kiminin, xanım, uşaqları böyüməsin! Ocağına bunun kimi arvad gəlməsin.

Gəldin, o ki necə desən bayağıdır. Əri evdə olanda çöldən-bayırdan evinə bir abırlı qonaq gəlsə, əri desə ki, dur çörək gətir, yeyək; qonaq da yesin. Desə, bişmiş çörək daimi deyil, yemək lazımdır. Arvad deyir: «Neyləyim, bu yıxılacaq evdə un yox, ələk yox. Dəvə də dəyirmandan gəlmədi… Nə gəlirsə, mənim sağrıma gəlsin», - deyə əlini yanına vurar, üzünü o tərəfə, sağrısını ərinə döndərər. Min söylərsən, birisini eşitməz, ərin sözünü qulağına almaz. O, Nuh peyğəmbərin eşşəyi nəslindəndir. Xanım, ondan da sizi Allah saxlasın! Ocağınıza belə arvad gəlməsin!»

Dastanın müqəddiməsindən nümunə gətirdiyimiz bu parçada xalq cəmiyyəti qadının tənzimləməsini-uşağı dünyaya gətirib tərbiyə etməsini, həyata qoşmasını nəzərə almaqla irsiyyətə önəm vermişdir. Həmçinin dastandakı şəxsiyyətlərdən görürük ki, xalqımızın kökündə evin dayağı olan xanımların südü və əməyi dayanmışdır. Və dədəmiz Qorqud Oğuz igidlərini həyatın incəliklərindən hali edərək ailə qurarkən ehtiyatlı olmağa, elin pak və təmiz qanını başqa qanlara qatmamağa səsləmişdir.

Bu baxımdan, xalqın təcrübələrdən keçmiş belə bir qənaət-tövsiyəsi də ibrətamizdir: «Əsilzadəni almaq çətin olur, saxlamaq asan; bədəsili almaq asan olur, saxlamaq çətin».

Dünyagörmüş qocalarımız da söylədikləri bayatılarda, aşıqlar yaradıcılıqlarında irsiyyəti xüsusi vurğulamışlar:

**Sular gələr, göl olar,**
**Şaxta vurar, gül solar.**
**Mərd igidin balası**
**Özü kimi mərd olar.**

**Ağ alma, qızıl alma,**
**Nimçəyə düzül, alma.**
**Çirkin al, əsil olsun,**
**Bədəsil gözəl alma.**

Yaxud, Aşıq Ələsgər deyir:

**Bədəsildən hərgiz olmaz heç əsil,**
**Lənət sənə gəlsin pis soy, pis nəsil!**
**Firib, fəsad ondan qalxar müttəsil**
**Ölüncə tərgitməz öz əməlini.**

İctimai mövqe qazanmağa gəldikdə isə xalq bəyin balasının hökmən bəy olacağını israr etmir. Buna bir sülalə işi, imkanlı təbəqənin özü üçün qəbul etdiyi ənənə kımi baxır. Xalqın bədii təfəkkürünün məhsulu olan nağıl və dastanlarda da fikir, irsiyyət yönünüdən reallıq üzərində diyanır. Yəni əkinçi oğlunu da özü ilə bərabər əkin əkməyə aparır, dəmirçi dəmirçiliyi, toxucu toxuculuğu öyrədir; ya da yaxşı usta yanında müvafiq bir sənəti öyrənməsinə çalışır. Övlad böyüyüb yaşa dolduqca ata-anasının mənəvi xüsusiyyətlərini əxz edir. Onlardan gördüyünü götürür. Əgər belə olmasaydı nağıl və dastanlar inandırıcı təsir bağışlamazdı.

Öz qüvvəsi hüdudlarından kənara çıxan, nəticə verməyən hərəkətləri xalq məqbul saymamış, «Boyuna bax, daşın böyüyündən yapışmağına bax» demişdir. Həmçinin əslini-kökünü müsbət mənada doğrultmayana tənə etmişdir: «Oddan kül törər». İfrata varanlara dodaq büzüb atmaca atmışdır: «Atan soğan, anan sarmısaq; özün hardan oldun gülməşəkər?»

Bu sözlərlə xalq irsiyyəti ictimai mövqe kimi yox, fiziki və mənəvi əlamətlərin təzahürü kimi səciyyələndirmişdir. Həm də bu qənaətdə olmuşdur ki, irsiyyət özünü doğrultmaya bilər: «Beş barmağın beşi də bir deyil».

- **Şəxsiyyətin formalaşmasında xalqın mühit amilini nəzərə alması**

Şəxsiyyətin formalaşmasında, irsiyyət amilinə belə dəqiqliklə yanaşan xalq digər amilləri, o cümlədən mühit və tərbiyə amilini də diqqət mərkəzində saxlamışdır. Xalqın pedaqoji təfəkküründə ailə, dostluq, yoldaşlıq, məclis, oyun, əmək prosesi və s. şəxsiyyətin formalaşmasına təsir edən mühitlərdir; onlar həm də tərbiyəedici qüvvələrdir. Olduqca dəqiq və yerli-yerində olan bu qənaətin inkarı yoxdur. Olsa da xalq pedaqogikası belə yanlış müddəaların fövqündə dayanır. Xalqın yaratdığı nağıl və dastanlarda bəzən qəhrəmanı mühit yetişdirir. Məsələn, «Padşahın oğlu» nağılında danışılır ki, hökmdarın balaca bir oğlu var imiş, bir qızı da dünyaya gəlir. Lakin qız hələ üç günlük ikən ailə onun insan simasında əjdaha olduğunu başa düşür. Hökmdar qızın fəlakətlər törədəcəyindən qorxaraq car çəkdirib gecə ilə şəhəri boşaldır; ailəsini

də götürüb başqa bir yerə qaçır və orada məskunlaşır.

Onun oğlu vətəndən kənarda yad insanlar arasında böyüyür. Bir gün küçədə dostları ilə «Aşıq-aşıq» oynayarkən yoldaşları ilə mübahisəsi düşür və onlar oğlanın başına sərki vururlar. «Belə fərasətli idin, vətənindən niyə qaçdın?». Düşdüyü mühitin tənəsi oğlanı ayıldır və o, qorxaq atasından fərqli olaraq doğma şəhərini xilas edir. Əhalini vətənə qaytarır.

Nağılda xalqın irsiyyətə baxışları da maraq doğurur. Mənbələrdə tez-tez qeyd edilən «Atı at yanına bağlarsan, həmrəng olmasa da, həmxasiyyət olar», «Dostunu mənə göstər, sənin kim olduğunu deyim», « Qardaşın kimdir?- Hələ yoldaş olmamışam», «Əsl dost dar gündə tanınar», «Ayda-ildə bir namaz, onu da Şeytan qoymaz», «Hər zamanın bir hökmü var», «Ayağı yorğana görə uzadarlar», «Dünya gör-götür dünyasıdır», «Göz gördüyünü götürər», «Aşıq gördüyünü çağırar», «Palaza bürün, elnən sürün», «Çörəyi ver çörəkçiyə, birini də üstəlik», «Zər qədrini zərgər bilər», «Utanmasan oynamağa nə var?» və s. atalar sözlərində də mühit amilinə işarə var.

- **Xalq pedaqogikasında tərbiyə amili**

«Taxtanı rəndə hamarlar, bəndəni bəndə» - bu, xalqın tərbiyə haqqında qəti hökmüdür. Xalq öz həyat təcrübəsi əsasında şəxsiyyətin formalaşmasına təsir edən tərbiyə istiqamətlərini müəyyənləşdirmişdir. Hər yaşın anlaq səviyyəsi və qavrama xüsusiyyətləri olduğunu da ölçüb- biçərək ona müvafiq tərbiyə vasitələri yaratmışdır.Elmi pedaqogıka buna tərbiyədə yaşauyğunluq prinsipi deyir. Yəni xalq uşaqların fiziki, əqli, zehni, mənəvi, estetik... tərbiyəsi qayğısına qalaraq hər yaşa uyğun mükəmməl tərbiyə işi qura bilmişdir. Onların nitqini inkişaf etdirmək üçün sicilləmə və düzgülər, sözləri düzgün tələffüz edə bilmələri üçün yanıltmaclar, zehinlərinin inkişafı üçün tapmaca və çaşdırmalar, fiziki inkışafları üçün oyunlar yaratmışdır.

Xalqın istifadə etdiyi tərbiyə üsulları içərisində ən böyük yeri öyüd-nəsihətlər tutur ki, bunlar da atalar sözlərində ehtiva olunmuşdur. Atalar sözləri bütövlükdə tərbiyə məktəbidir. Tərbiyənin hər hansı istiqamətinə dair yüzlərlə atalar sözü misal gətirmək olar. Məsələn:« El gücü, sel gücü», «Tək əldən səs çıxmaz», «Güc birlikdədir»(həmrəylik tərbiyəsi), «Mənim üçün işlə, özün üçün öyrən», «İstəyirsən bol çörək, al əlinə bel, kürək» (əmək tərbiyəsi) və s. Lakin elə atalar sözləri də var ki, onların məzmununda həm irsiyyət, həm mühit, həm də tərbiyə amili əks olunur. Məsələn, «Anasına bax, qızını al, qırağına bax, bezini al», «Qız anadan görməyincə, öyüd almaz, oğul atadan

görməyincə süfrə açmaz», «Varlının malı, kasıbın övladı» və s.

Nağıl və dastanlarda da eyni vaxtda tərbiyənin bir neçə istiqaməti diqqət mərkəzində dayanır.

Xalq tərbiyə etməyin və tərbiyə almağın həyati zərurət olduğunu birmənalı şəkildə israr edir və səhlənkar, yarıtmaz, tənbəl, ümumən, qüsurlu hərəkətlərə yol verən adamlar üçün deyir: «Ona dəhrə-balta dəyməyib», «O, usta(d) şilləsi yeməyib». Yeri gəldikcə xalq belə adamlara ibrət dərsi verir ki, düzəlsin.

Şəxsiyyətin formalaşmasına təsir edən amilləri ayrı-ayrılıqda səciyyələndirməklə yanaşı, deməliyik ki, elmi pedaqogikanın iddia etdiyi qoşa amil nəzəriyyəsi xalq pedaqogikasında hər zaman mövcud olmuşdur. Xalq, şəxsiyyətin formalaşmasına bir deyil, bir neçə amilin eyni vaxtda təsir etməsi qənaətindədir. Məsələn, «Anasına bax, qızını al», «Oğul atadan görməyincə süfrə açmaz» deyimlərində irsiyyət, mühit və tərbiyə, «Uşaq sudur, hansı qaba töksən, o şəkli alar» deyimində mühit və tərbiyə amilinə işarə var.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olur ki, elmi pedaqogikada olduğu kimi, xalq pedaqogikasında da şəxsiyyətin formalaşması probleminə diqqətlə yanaşılır. Xalq şəxsiyyətin formalaşmasına təsir eldən amilləri düzgün müəyyənləşdirir, onların heç birini inkar etmir.

## Mövzu 6. Şəxsiyyətin formalaşmasında tərbiyənin, ünsiyyətin və fəaliyyətin əhəmiyyəti haqqında xalqın fikir və ideyaları.

### PLAN

1. **Şəxsiyyətin formalaşmasında mühitin roluna dair xalq fikirləri.**
2. **İnsanın boya – başa çatmasında irsiyyətin roluna dair hansı xalq fikirləri.**
3. **Uşaq şəxsiyyətini formalaşdıran mühüm vasitələr**
4. **Şəxsiyyət anlayışı və şəxsiyyətin formalaşmasına təsir edən xalq fikirləri.**

## ƏDƏBİYYAT

1. Ə.Ş.Həşimov. "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri".Bakı, 1970.

2. Ə.Ş.Həşimov."Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə". Bakı,1984.

3.Ə.Ş.Həşimov. "Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri".

4. Ə.Ş.Həşimov, F.B.Sadıqov. "Azərbaycan xalq pedaqogikası".Bakı, 2000.

5.H.Q.Qədirzadə. Ailə və məişətlə bağlı adətlər, inamlar,etnoqrafik əlaqələr.Bakı, 2003.

6.İ.İ. Əliyev. Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı, 2004.

7.Ə.S.Bayramov.Etnik psixologiya məsələləri.Bakı,1996.

8.Q.N.Volkov. Gtnoredaqoqika. M,2000.

9.Kukuşkin V.S., Stolərenko L.D. Gtnoredaqoqika i gtnopsixoloqiə. Rostov-na-Donu. 2000.

Xalqa görə, inkişaf üçün, sözün əsl mənasında insan olmaq üçün yaxşı mühit və tərbiyə zəruri olsa da, bunlar özlüyündə hələ azdır. Mühit və tərbiyə çox şeyə qadirdir, lakin onlar irsi keyfiyyətlərdən məhrum olan adamı düzəldib tam normal hala sala bilməz: "Şorakət yerdə bostan əksən, adı bostan olar, tağı tağ olmaz (tənbəl arvada cins inək versən, ayranı bol olar, yağı yağ olmaz)", "Hər oxuyan Molla Pənah olmaz", "Bədəsil əsil olmaz", "Söyüddən çinar olmaz", yəni Füzuli demişkən, "Cövhərindən eyləmək cismi cuda asan deyil".

Doğrudan da, şoran yerdə yaxşı məhsul yetişdirmək, söyüdü çinara döndərmək, cismi cövhərindən ayırmaq mümkün olmadığı kimi, bu və ya digər qabiliyyəti anadangəlmə kəsirli olan uşağı da həmin qabiliyyət sahəsində Vaqif kimi xüsusi istedad sahibi etmək son dərəcə çətindir, bəlkə də heç mümkün dfındaeyildir. Xalqın bu sahədəki aforizmləri adamda, "ağ lövhə" nəzəriyyəsinin "banisi", İngilis alimi Con Lokkun və eləcə də insanın inkişafında tərbiyə və mühitin rolunu həddindən artıq şişirdən XVIII əsr fransız materialistlərinin həmin məsələdəki baxışlarına qarşı çıxan V.Q. Belinskinin fikirlərini xatırladır. V.Q. Belinski də

deyirdi ki, palıd ağacını alma yetişdirməyə məcbur etmək olmaz. Çünki onda alma yetişdirmək imkanı yoxdur. Körpənin ruhu da üzərində istənilən şeylər yazıla bilən "ağ lövhə" deyildir, "o elə bir toxumdur ki, ondan ağac ola bilər, elə bir imkandır ki, ondan adam ola bilər". Bu fikirləri ilə Belinski də insanda qabiliyyətlərin inkişaf etməsi üçün irsən keçən qüvvələrin böyük rol oynadığını göstərirdi. Xalq pedaqogikasında da məsələ təqribən bu şəkildə qoyulmuşdur.

Sual olunur: xalq pedaqogikasında nəyə görə insanda qabiliyyətlərin inkişaf etməsi üçün irsən keçən qüvvələrin rolu ilk sıraya çəkilmişdir? Buna səbəb nədir?

Xalqın mühit və tərbiyəyə nisbətən irsiyyətə üstünlük verməsi, bizcə, bununla izah edilməlidir ki, əvvəla, irsi oxşarlıq, zahiri – biruni əxzetmə saatdakı saniyəölçən əqrəbin hərəkəti kimi əyandır: mühit və tərbiyənin möhürü, izi isə dəqiqəni və ya saatı göstərən əqrəblərin hərəkəti kimi süstdür (məlum olduğu kimi, saatda üç əqrəb var: saniyəölçən, dəqiqə ölçən, saat ölçən. İnsan birinci əqrəbin hərəkətini aydınca görə bilir. İkinci və xüsusən üçüncü əqrəbin hərəkətini isə o cür görmək olmur. Lakin bu o demək deyildir ki, həmin əqrəblər hərəkət etmir. Bunlar sadəcə, gözlə görünəcək dərəcədə iti hərəkət etmir. İnsanda da belədir: irsi oxşarlıq asanlıqla gözə çarpdığı halda, tərbiyə və mühitdən alınan "pay" və onun əka – sədası, yəni dəruni mənəvi təkamül, saatı göstərən əqrəbin hərəkəti kimi, "gizli" (yaxud çətin) görünən olur.

Digər tərəfdən, görünür, irsiyyət amilinin birinci plana çəkilməsində qədim və orta əsr mühitinin spesifikası (təhsilin bəsitliyi, elmlərin inkişaf səviyyəsi, maarif, təhsil və tərbiyə ocaqlarının seyrəkliyi, yaxud heç olmaması və s.) də az rol oynamamışdır.

Ancaq zəhmətkeş xalqın irsiyyət məsələsi barəsindəki fikirlərindən belə nəticə çıxarmaq düz olmaz ki, guya xanlıq, şahlıq, bəylik və s. bu kimi rütbələr də ata – anadan övlada irsən keçir və ya keçməlidir; guya istismarçı siniflərə mənsub uşaqlar öz nəslindən və mühitindən asılı olaraq zəka və qabiliyyətləri etibarı ilə zəhmətkeşlərin uşaqlarından üstün olurlar; guya cəmiyyətdə "ali" və "alçaq"irqlər vardır və "alçaq" irqin nümayəndələri zəkalarının məhdudluğuna görə "ali" irqlərin zülmü altında yaşamalıdırlar; guya ağıllı, nəcib, kamil adam ancaq varlı təbəqələrin

içərisindən çıxa bilər və i.a. (halbuki ta orta əsrlərdən başlamış bu günə kimi istismarçı siniflərin mürtəce ideoloqları məhz belə cəfəngiyata elmi don geyindirməyə çalışmışlar). Əksinə, xalq bu məsələyə başqa şəkildə baxır. Onun nağıl və dastanlarda vəsf etdiyi qəhrəmanlar – zəhmətkeş kütlənin nümayəndələri əqli, əxlaqi, fiziki və estetik cəhətdən istismarçı hakim sinfin "mötəbər" nümayəndələrindən ökarxeyli yüksəkdə dururlar. Konkret misal olmaq etibarilə "Ağ atlı oğlan", "Keçəlin məhkəməsi", "Kəndli və padşah" kimi nağılları nəzərdən keçirmək kifayətdir. Birinci nağılın qəhrəmanı yoxsul dəvəçi qızının oğlu Nərbaladır. O nağılda çox ağıllı, qoçaq, təvazökar və mərd bir adam kimi, padşaha və onun əlaltılarına qarşı mübarizə aparan, yüksək mənəviyyatlı və xeyirxah qəhrəman kimi təsvir olunur (Xalqa görə, tərbiyənin məqsədi də məhz belə qəhrəmanlar hazırlamaqdır).

"Keçəlin məhkəməsi2 nağılında isə "keçəl" sözünün şahdan və vəzirdən ağıllı, ədalətli, fərasətli və qabiliyyətli olduğunu camaatın önündə sübut edir. O, padşahın və onun əlaltılarının ağılsızlığını, acgözlük və rüşvətxorluqlarını isbat etməklə onları biabır edir.

Adi kəndlinin hakim sinfin mötəbər nümayəndələrindən, vəzirlərdən daha ağıllı olduğunu nümayiş etdirmək nöqteyi nəzərindən "Kəndli və padşah" nağılı da xarakterikdir: padşah üç vəziri ilə çöldə gəzərkən qoca bir bağbana rast gəlir və ona üç sualla müraciət edir. Bağban hər bir suala müvafiq cavab verir.Vəzirlər bu sual və cavabların mənasını başa düşə bilmirlər.Çarələri kəsilir, kəndlinin yanına gedirlər.Ona çox yalvarırlar. Kəndli deyir:

- Bu iş müftə başa gələn deyildir, hərəniz bir torba qızıl gətirməsəniz, mənasını deməərəm.

  Vəzirlər razı oldular, qızılları gətirib kəndliyə verdilər.Kəndli dedi:

- Əvvəl padşah məndən soruşdu: "Deyəsən, dağlara qar düşübdür", yəni başım ağarıbmı? Mən dedim: "Aranı da qar basıb", yəni saqqalım da ağarıb.Sonra padşah soruşdu: "Deyəsən, uzaqlar qaranlıqdır?" – O demək necəistəyirdi ki, gözlərin işıqdan düşüb, uzaqları seçə bilmirsən. Mən isə dedim: "Heç yaxında da işıq görmürəm", yəni yaxını da yaxşı görmürəm. Üçüncü dəfə padşah soruşdu:

“Qoşalar necə işləyir?”, yəni iki ayağın necə işləyir? Mən isə dedim: “Qoşalara birini də qoşmuşam, olub “üç”, yəni “ağacla gəzirəm”. Ən axırda padşah dedi: “Sənin yanına üç qoyun göndərəcəyəm, onları elə qırx ki, sənə də, övladlarına da bəs olsun”. Mən padşahın sözündən düşündüm ki, o, siz üç vəziri mənim yanıma göndərəcək ki, sizdən pul alım, ömrümün axırına qədər ehtiyacsız yaşayım”.

Vəzirlər utana – utana padşahın yanına gəlib əhvalatı danışdılar. Padşah isə: - Sizin üçünüzdə bir kəndlinin ağlı qədər ağıl yoxdur, - deyə onları vəzifədən qovur və kəndlini özünə vəzir təyin edir. Nağılın belə bir sonluqla qurtarması bir də burada irəli gəlir ki, xalq hamının, xüsusən hakimiyyət başında oturanların yüksək və nəcib sifətlərə yiyələnməsini, ağıllı və müdrik olmasını arzu etmişdir.

Kamilliyin sinfi mövqe ilə bağlı olmadığını sübut edən belə poetik pedaqoji nümunələrin sayını xeyli artırmaq da olar.

Lakin elə qeyd etdiyimiz misalların özü də təsdiq edir ki, insanın nəcib, ağıllı – kamallı və tərbiyəli olması onun nəcabətindən, yaxud malik olduğu sərvətdən asılı deyil; hər sinfin içərisindən yetkin adam çıxa bilər; çox vaxt yoxsul təbəqədən elə adamlara rast gəlmək olur ki,onlar ümumi inkişaf səviyyəsi nöqteyi – nəzərindən “yuxarı” sinif nümayəndələrindən qat – qat yüksəkdə dururlar.

Qısası, bəşəri təkamüldə irsiyyətin nisbəti üstün rol oynamasına dair xalqımızın fikir və qənaətini təhrif etmək olmaz. Bu üstünlük heç də mühit və tərbiyə amillərinin rolunu azaltmır və ya inkar etmir, bəlkə özünü obyektiv gerçəkliyin inkaredilməz mənzərəsi kimi göstərir.

Yeri gəlmişkən, deyək ki, xalq hikmətindən bəhrələnmiş mütəfəkkir və pedaqoqların əsərlərində də hər üç amil haqqında çoxlu fikirlər vardır. Məsələn, Nizami Gəncəvinin:

Təlimdir düzəldən işləri sap tək
Olmazmı cəhd etsə, bir insan mələk?

Deməli, yaxşı şərait yaradılsa vətərbiyə işi düzgün qurulsa, sözün əsl mənasında insan yetişdirmək mümkündür. Yəni münasib şəraitdə pis adamı da islah etmək, yaxşı adama çevirmək olar. Qitələrindən birində Füzuli uşağın qəlbini, əhvalını “səhfeyi – camalı kimi

sadə, lətif olduğunu, ruhunun təmiz lövhəyə bənzədiyini qeyd edir və yaşlı adamlara tövsiyə edir ki, səhlənkarlıq göstərib uşağa vaxtında düzgün tərbiyə etməyi, elm və ədəb öyrətməyi, onu faydalı işə alışdırmağı unutmasınlar. Çünki uşaq unudulub başlı – başına buraxılsa, həmin lövhəyə xoşagəlməz izlər, hiylə, fırıldaq həkk oluna bilər və onu dəyişdirmək – yəni uşağı yenidən tərbiyə etmək son dərəcə çətinləşər.

Ağıllı adamlarla durub – oturan, həmsöhbət olan, ünsiyyət bağlayan hər kəs son nəticədə mərifət əhli olar; özünbilməzlərə qoşulanın isə tərbiyəsi, xasiyyəti pozular, ömrü zaya gedər. Odur ki, kamalı olan hər kəs belələrindən uzaq olmalı, onlarla oturub – durmamalıdır.

Başqa sözlə desək, uşağın düşdüyü mühit onda müvafiq xüsusiyyətlər yaradır.

Azərbaycanın ictimai – siyasi, fəlsəfi və pedaqoji fikir tarixində xüsusi yer tutan M.F.Axundov bir çox məsələlərdə olduğu kimi, şəxsiyyətin formalaşmasına təsir göstərən amillərin rolunu düzgün qiymətləndirmək məsələsində də öz sələflərindən xeyli irəli getmiş və daha yüksək bir səviyyəyə qalxmışdır. “M.F.Axundov deyir ki, insan öz təbiəti etibarı ilə nə mehriban, nə də qəzəbli, nə qorxaq, nə də əməyi sevən deyildir”. Təhsilə, tərbiyəyə, elmə və ümumən, “maarifə böyük qiymət vermək, onu xalq kütlələrinin mənafeyinə tabe etməyə səy göstərmək, ictimai mühiti inqilab yolu ilə dəyişdirməyin zəruriliyini qəbul etmək, burada insanın fəal rolunu nəzərə almaq M.F.Axundovun pedaqoji baxışlarının metodoloji əsaslarıdır.

Beləliklə, haqqında danışılan məsələ üzrə xalq pedaqogikası materiallarında irəli sürülən fikir və ideyalar xalqın zəngin irsindən yaradıcılıqla bəhrələnən qabaqcıl müəllim, ədib və mütəfəkkir övladlarının əsərlərində daha da təkmilləşdirilmiş və elmi şəklə salınmışdır. Başqa sözlə, C.Cabbarlının təbirincə desək, el ağzından çıxmış sözlər ədəbiyyat dahilərinin qələmi altında yonulub klassik yüksəkliyə qaldırılmış və yenidən xalqa qaytarılmışdır.

Xalq pedaqogikası materiallarında uşaqların yaş dövrləri və hər yaş dövrünün xüsusiyyətləri barədə də maraqlı fikirlər vardır. Məsələn Azərbaycan uşaq folkloru materiallarından birində deyilir

Bir yaşında çiçəyə bənzər idim,
Yaşyarımda dörd ayaqlı yeridim.

İki yaşda su istərəm, içərəm,
Bacı - qardaş bir -birindən seçərəm.
Üç yaşında döndüm açılmış gülə,
Açılmayan dilim döndü bülbülə.
Dörd yaşında ovsarımı çeynərəm,
Bir saat da bir yerdə dincəlmərəm.
Beş yaşında coşub - daşıb qaynadım,
Altı yaşda yaşdaşımla oynadım.

Diqqət edilsə, bu parçada uşaqlıq dövrünün özünün keyfiyyətcə bir – birindən fərqlənən müəyyən mərhələlərə bölündüyünü və hər mərhələni səciyyələndirən əlamətlərin sadalandığını aydın görmək olar: "bir yaş – çiçəyə", "üç yaş – açılmamış gülə", "dörd yaş – bülbülə" bənzədilir, beş yaşda uşaq "coşub – daşır, qaynayır", altı yaşda kollektivə qoşulur – "yaşdaşı ilə oynayır".

Əvvəllər bələkdə bəslənən "çiçək" – "çağa" sonra tədricən iməkləyir – "dörd ayaqlı yeriyir", "yemək – içməyə olan ilkin ehtiyaclarını müstəqil ödəməyə meyl göstərir ("su istəyəndə içir"), ətrafındakıları cinsə və qohumluq dərəcəsinə görə fərqləndirməyi bacarır ("bacı – qardaşını bir – birindən seçir") və i.a. Üç yaşında uşaq "açılmamış gülə bənzəyir", şaqraq gülüşləri ilə evə, ailəyə, aləmə sevinc gətirir, tədricən şirin dil açıb dörd yaşında "bülbül kimi" ötməyə başlayır. Bu yaşdan etibarən, o artıq bir yerdə dayana bilmir, "bir yerdə dincəlməyir", "ovsarını çeynəyib" həyətə, bayıra, bağ – bağçaya qaçır, uşaqlara, tay – tuşlarına qoşulub, onlarla birlikdə oynayır.

Beləliklə, 7 yaşa qədər bu uşaqlıq dövrünün hər mərhələsinin özünə məxsus xüsusiyyələri var ki, tərbiyə işində onlar hökmən nəzərə alınmalıdır. Aylar – illər ötür, uşaq "irilib həddi buluğa çatır. "Həddi buluğ" dövrü 14 – 15 yaşlarından başlayır:

Bu dövr cavanlıq – gənclik illərinə qovuşur. Odur ki, on dörd – on beş yaşlarından başlamış ta on yeddi – on səkkiz yaşlara qədər davam edən bu yaş dövrünü "gənclik dövrü" adlandırmaq olar. "Həddi – buluğ" və ya gənclik dövrü ilə nağıl və "dastan sujetinin birinci hissəsi qurtarır". Bu dövr üçün səciyyəvi olan şey pəhləvanlıq və ya ov məşqi etmək, qəhrəmanlıq göstərməyə hazırlaşmaq və "buta almaqdır".

Sonra üçüncü yaş dövrü – kamillik gəlir. “indi oğlan da, qız da yetişib. Qızını oğluma ver, əhdimiz yerini alsın”. Kamillik dövründə oğlan da, qız da izdivac haqqında, “buta” haqqında düşünür, sevgilisinə çatmaq üçün bir sıra maneələrə qarşı mübarizə aparır, igidlik göstərir, qələbə çalır, ailə həyatı qurur, lazım gələndə “çörəyini daşdan çıxarır”.

Kamillik dövrü təqribən qırx yaşa qədər davam edir. Bu yaş dövrünə qədəm qoymuş oğlan və qızların zahiri əlamətlərinin və fiziki keyfiyyətlərinin təsvirinə də nağıl və dastanlarda geniş yer verilir. Məsələn, “Şah İsmayıl”, “Tahir və Zöhrə” dastanlarında kamil qızlar “qələm qaşlı”, “siyah saçlı”, “mina gərdənli”, “incə belli, bəstə boylu”, “zülfü dal gərdəndə çin, dəstə - dəstə”, “ala gözü sürməli”, “əli xınalı” gözəllər kimi təqdim olunurlar.

Həmin yaşdakı oğlanlar, kişilər, qaraqaş, qaragöz, sinəsi sözlə dolu, boylu – buxunlu, dəliqanlı, qolu zorlu, pəhləvan cüssəli qoçaq adamlar kimi təsvir edirdilər. koroğlu qoşmasında deyildiyi kimi, bu yaşlarda adam “kəklik kimi səkir”, lazım gəldikdə şücaət, igidlik göstərib düşməni qanına qəltan eləyir.

Nisbətən yuxarı yaşları əhatə edən dördüncü yaş dövrünün nümayəndələrinə müxtəlif istilahlar aid edilir: yaşlı, sinli, ahıl, qoca və s. Bu yaşlarda olanlar mənəvi keyfiyyətləri etibarı ilə münasibət səpgidə verilir. Çətinliyə düşən qəhrəmanlara yol göstərmək, müşkül işlərə çarə tapmaq kimi sifətlər də ən çox məhz bu yaş dövrü üçün səciyyəvidir.

Yaş dövrləri haqqında dediklərimizi tamamlamaq üçün bir məsələni də qeyd etmək lazım gəlir: ayrı – ayrı dövrlər üçün yaş həddi xalq pedaqogikası əsərlərinin bəzilərində başqa – başqa şəkildə verilir. Məsələn, bir nağıla əsasən cavanlıq dövrünü 14 yaşdan hesablamaq lazım gəlirsə, başqa bir nağıldan çıxan nəticəyə görə, həmin dövr 16 yaşdan götürülməlidir. Yaxud el ədəbiyyatı nümunələrinin birində oğlan və ya qız 15 yaşında ikən müstəqil yaşamağa başlayırsa, digərində həmin yaş müstəqil yaşamaq üçün azlıq edir; bunun üçün azı 17 – 18 yaş tələb olunur. Eyni sözləri xalq arasında işlədilən “çağa”, “bəbə”, “tifil”, “südəmər”, “körpə”, “uşaq”, “böyük qız”, “balaca qız”, “böyük oğlan”, “ balaca oğlan”, “ərgən qız”, “yeniyetmə”, “cavan”, “gənc”, “cahıl”, “ahıl”, “yaşlı”, “sinli”, “qoca”, “qocaman”, “qarı” və s. istilahların əhatə etdiyi konkret illər haqqında da demək olar. Burada isə xalq irad tutulası bir şey yoxdur. Çünki, məsələn, çağalığın, körpəliyin, cavanlığın, qocalığın və i. a. məhz hansı ildə və ya gündə, hansı saatda və anda

qurtardığını hələ elm bu gün də müəyyənləşdirə bilməmişdir. Elmdə vəziyyət belə olan yerdə xalq arasında həmin məsələyə aid dəqiqlik və konkretlik axdarmaq, əlbəttə, əbəsdir. Akademlik pedaqogikaya nisbətən xalq pedaqogikasının yaş bölgüsü mərhələlərinin daha çox olması sonuncunun üstün cəhətidir.

Bəs tərbiyə işinə, uşağın şəxsiyyətini formalaşdırmağa hansı vaxtdan başlamaq lazımdır. Zəhmətkeş xalq tərbiyə işini lap ilk anlardan, yəni uşağın bələkdə olduğu vaxtlardan başlamağı vacib bilmişdir, çünki “Qırxında öyrənən gorunda çalar”, yaxud “Qocanı öldürmək olar, öyrətmək olmaz”. Odur ki, xalq obrazlı şəkildə deyir: “Uşağı bələkdə, küçüyü dəlməkdə”. Başqa bir atalar sözündə deyilir. “Ağac yaş ikən əyilər”. Bu atalar sözünün pedaqoji məzmunu pedaqoq – müəllim M.T. Sidqinin sözlərində daha geniş şəkildə şərh olunubdur. “... Uşaqlıq yaş ağaca bənzər”, təzə yaş ağac hər nə qədər əyri olsa, düzəltmək asandır və insanın da kiçikliyində tərbiyə qəbul etməsi vazeh mətləblərindəndir. Ümumən, xalqa görə, uşaq erkən elə tərbiyə edilməlidir ki, cavanlıqda başqalarına, ehtiyacı olanlara kömək əli uzada bilsin, obrazlı desək, öz gözü ilə onları isidə bilsin, cavanlıqda da elə formalaşmalıdır ki, yaşa dolduqda ağıllı söz – söhbəti və məsləhətlərilə başqalarına hikmət öyrədə bilsin.

## Mövzu 7 . Azərbaycan Etnopedaqogikasında tərbiyənin məqsədi, məzmunu və təşkili formaları.

**Plan**

- **Xalq pedaqogikasında tərbiyənin məqsəd və mahiyyəti**
- **Xalq pedaqogikasında tərbiyənin tərkib hissələri**
-

**Ədəbiyyat**


- Ə.Həşimov. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, «Maarif». 1970.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogıkası. Bakı, «Patronat».1993.

● Oğuznamə. Bakı, «Azərnəşr», 1989.

● Müxtəsər rusca–azərbaycanca və azərbaycanca- rusca atalar sözləri lüğəti. Bakı, 1983.

● Atalar sözü və məsəllər. Bakı, «Altun kitab». 2007.

● **Xalq pedaqogikasında tərbiyənin məqsəd və mahiyyəti.** Azərbaycan xalq pedaqogikası materiallarının tədqıqi və təhlili göstərir ki, xalqımız hər zaman insan amılinə böyük qiymət vermişdir. İnsanı yer üzünün əşrəfi adlandırmış, onun kəsir cəhətlərini tənqid, müsbət cəhətlərini təqdir etmişdir. Yaşından, vəzifəsindən və ictimai mövqeyindən asılı olmayaraq hər bir insanın düz yolun yolçusu olmasını istəmişdir. Ən kiçik folklor nümunələrindən iri həcmli epik əsərlərədək bütün şıfahi xalq ədəbiyyatında tərbiyə amili diqqət mərkəzində dayanmışdır. İstər ailədə, istərsə də ictimai mühitdə insanlar arasında qarşılıqlı münasibətlərə haqq-ədalət mövqeyindən yanaşılmışdır. Hər şey haqqın qələbəsinə xidmət etmişdir. Haqq isə kamil insanların sayəsində qələbə çala bilir. Kamil insanların çox olduğu cəmiyyətdə sülh, əmin-amanlıq, ədalət, fıravanlıq hökm sürür. Nağıl və dastanların məzmunundan irəli gələn bu ideyadan aydın olur ki, xalq pedaqogikasında tərbiyənin **məqsədi** kamil insan yetişdirməkdir.

Dünyanın bütün xalqlarının folklorunda kamil insan anlamına önəm verilir. Lakin hər xalqın öz dünyabaxışı, milli xüsusiyyətləri var. Yəni hər xalq kamil insanı öz baxış bucağı ilə dəyərləndirir. Azərbaycan xalqı üçün kamil insan ağıllı, sağlam, əməksevər, mərifətli, ədəb – ərkanlı, dar günün dayağı ola bilən adamdır. Belə adamları xalqımız «kişi adam», «bütöv adam», «əsil insan» kimi dəyərləndirmişdir.

Kamil insan yetişdirmək üçün görülən iş isə tərbıyənin **mahiyyətini** təşkil edir.

Xalq ədəbli, qanacaqlı, mərifətli adamları tərbiyəli adam kimi qəbul edir. Ona görə də xalq pedaqogıkasında **ədəb, qanacaq**, **mərifət** sözləri **tərbiyə** sözünün sınonimidir. Ədəbli, qanacaqlı, mərifətli olmağın isə nışanələrı var: dərrakəli, ədəb – ərkanlı, həyalı, ismətli, iffətli, təmkinli, ağıllı, üzüyola, həlim təbiətli, xeyirxah, çalışqan, iş bılən, sözündə möhkəm olan, gözütox, qoçaq, bilikli, səbirli adamlar

həmin nişandadır, yəni tərbıyəlidir.

- **Xalq pedaqogikasında tərbiyənin tərkib hissələri**

Dünyaya gələn körpənin tərbiyə edilib böyüdülməsini xalq **boya-başa çatdırmaq** adlandırır. Bəs bu dövr ərzində xalq nə kimi tərbiyəvi işlər aparmağı məqsədəmüvafiq sayır? Bu sualın cavabı kamil insana məxsus nışanələrin içərisindədir. Yəni əvvəldə saydığımız həmin nışanələr bir kompleks halında kimdə birləşirsə, o kamil adamdır. Demək, tərbiyə işinə də kompleks halda yanaşmaq lazımdır ki, insanda həmin keyfiyyətlər bir tam halında formalaşsın.

Bildiyimiz kimi, xalqın pedaqoji fikir və mülahizələri şifahi xalq ədəbiyyatı nümunələrində və adət-ənənələrdə əks olunur. Şifahi ədəbiyyat-folklor isə ucu-bucağı görünməyən xəzinədir. Atalar sözləri, zərb məsəllər, əfsanələr, rəvayətlər, laylalar, bayatılar, oxşamalar, nazlamalar, sayaçı sözlər, holovarlar, çaşdırmalar, düzgülər, siçilləmələr, sanamalar, tapmacalar, yanıltmaclar, nəğmələr, oyunlar, tamaşalar, nağıllar, dastanlar, aşıq şeri və s. eləcə də milli adət – ənənələr həmin xəzinənin mənbələridir. Kamil insanı yetişdirmək üçün öz fikir və qənaətlərini xalq bu mənbələrdə qəlibləmiş və min illərin uzaqlığından üzü bu yana ismarıc etmişdir.

Xalq böyüyən nəsli hər şeydən əvvəl sağlam görmək istəmişdir. Çağa vaxtından onun düzgün bələnməsi, vaxtında yedizdirilməsi, məhz ana südü ilə bəslənməsi, normal şəraitdə yatızdırılması, tez-tez çimizdirilməsi, təmiz saxlanılması qayğısına qalmışdır. Uşaq böyüdükcə onun **fiziki** sağlamlığına verilən tələblər də artmışdır. Kiçik idman hərəkətləri, oyunlar, qaçma, tullanma, gəşt tutma və s. bir-birini əvəzləmişdir.

Tədriclə uşaqlar gücləri çatan **əməyə** sövq edilmişdir. Burada məqsəd yenə onların fiziki sağlamlığı və həmçının əməyə, zəhmətə alışdırılması olmuşdur. Onlara buyuruq verərkən yeri gəldikcə məsəllər çəkmiş, atalar sözü söyləmiş, əhvalatlar danışmışlar. Beləliklə, həvəslərini daha da artırmışlar.

Uşağı tədriclə həyata qoşmaqla bərabər, onlara hər işi **ağılla** görməyi, işin çəmini tapmağı başa salmışlar. Onların ağlını və zehrini inkişaf etdirmək üçün tapmacalardan, çaşdırmalardan istifadə etmişlər. Yaşlarına uyğun oyunlar yaratmış və həmin oyunlar vasıtəsilə həm onların fıziki sağlamlığını, sərvaxtlığını təmin etməyə, həm ağlını inkışaf

etdirməyə, həm də əməyə məhəbbətlərini artırmağa çalışmışlar. «Haqqır - hüqqur», «Gizlənpaç», «Sürü–sürü», «Göydə nə var?», «Beş daş», «Çırtma - çırtma», «Qaçdı – tutdu», «Çiling ağac» və s. məhz belə oyunlardandır.

Azərbaycan xalqı üçün insani meyarlardan ən başlıcası **əxlaqi** keyfiyyətlərdir. Xalqımız mənəviyyata hər zaman önəm vermişdir. Uşaqların da lap kiçik yaşlardan mənəvi əsaslar üzərində pərvəriş tapmasına çalışmışdır. Bu barədə bir atalar sözündə deyılir:«Alim olmaq asandır, insan olmaq çətin». Xalq məhz çətin yolu, insanlıq yolunu əsas götürərək uşaqları düzlüyə, doğruçuluğa, dostluq və yoldaşlıqda sədaqətliliyə, halallığa, vətən sevgisinə, mərdliyə, xeyirxahlığa istıqamətləndirməyə çalışmış, namərdliyi, tənbəlliyi, yalançılığı, xəyanəti və s. xoşagəlməz cəhətləri pisləmişdir.

«Keçmə namərd körpüsündən, qoy aparsın sel səni», «Yatma tülkü kölgəsində qoy yesin aslan səni», «İgid odur atdan düşə atlana, igid odur hər zəhmətə qatlana», «Tənbəl deyər: ver yeyim, ört yatım; gözlə canım çıxmasın» və s. kimi atalar sözlərində, «Yalançının evi yandı, heç kim ona inanmadı», «Cücəni payızda sayarlar », «Altı daş, üstü aş» kimi məsəllərdə əxlaqi kamillik məsələsini diqqət mərkəzində saxlamışlar. Elm, sənət öyrənməyin insan üçün həyati əhəmiyyət daşıdığını, bütün var-dövlətdən üstün olduğunu nağıl və dastanlarda dönə-dönə vurğulamışlar.

Əlbəttə, bu keyfiyyətlərin hər kəsdə olması insani gözəllikdir. Lakin hər bir insan özü də bir fərd olaraq **gözəllliyi** duymalı, yaşatmalı və ondan zövq almağı bacarmalıdır.Xalqa görə, gözəlliklər iki cürdür: İlahi Qüvvənin yaratdığı gözəlliklər; insan əli ilə yaranmış gözəlliklər. İnsan özü də daxil olmaqla təbiətdə nə varsa ilahi gözəlliklə bağlıdır və xalqın məntiqinə görə insan bu gözəlliyi görəndə Yaradana şükr etməli və bu gözəlliyin insan üçün olduğunu başa düşməli, onu qorumalıdır.

Xalqın öz əli ilə yaratdığı gözəlliklər onun zövqünün əlaməti, gözəllik duyğularının təzahürüdür. Dünyada məşhur sənət əsərləri, Şirvan, Təbriz, Qarabağ xalçaları, zərgərlik nümunələri, mis əşyalar, qədim tikililər, o cümlədən qalalar, toxuculuq nümunələri - kəlağayılar, darayı yaylıqlar, «Talaman», «Qanovuz», «Zərxara», «Küçə mənə dar gəlir», «Gecə - gündüz», «Hacı, mənə bax» «Alışdım – yandım»,

«Hacı, bəri bax» və s. adlı parçalar, tirmə şallar, libaslar, xanımyana, ağayana geyimlər, kosmetik vasitələrdən yerli-yerində istifadə xalqın gözəllik duyumundan xəbər verir. Xalq bu duyumu, bu sənəti nəsildən – nəsilə ötürərək **estetik tərbıyə** işinə rəvac vermişdir. Lakin onun təbirində gözəllik anlayışının konkret tərifi yoxdur. Ruhu oxşayan nə varsa, xalq onu **göyçək, qəşəng, yaxşı, əntiqə, gözəgəlimli, zərif, yapışıqlı, yaraşıqlı, nəfis, gözəşirin** və s. sözlərlə səciyyələndirmişdir.

Xalq gözəl olan nə varsa, onu nağıl və dastanlarda gen-bol tərif etməklə yanaşı, bu mövzuda kiçik həcmli folklor nümunələri də yaratmışdır. Məsələn, «Gözələ baxmaq savabdır», «Gözəl görmək savabdır», «Gözəl kamallı gərək», «Gözəl sevməyə tövbə olmaz», «Dizini yerə basıb outrursa, qadın gözəldir», «Ağ südunu doyunca əmizdirirsə, ana gözəldir», «Uca ev yanında qurulsa, gəlin çadırı gözəldir», «Gözəl yüzlü gərək, yüzsüz gərəkməz» və s.

Xalq böyüməkdə olan nəsildə gözəlliyə sevgi duyğuları aşılamaqla bərabər, onları qorumağı da öyrətmək qayğısına qalmışdır. Bu isə **ekoloji** tərbiyədir. Şifahi xalq ədəbiyyatı nümunələrindən aydın olur ki, xalq **maddi dolanışıq** və insanların cəmiyyət qarşısında **hüquq** və **vəzifələri** barədə də fikirlər söyləmişdir. Beləliklə, tərbiyənin bütün tərkib hissələrini diqqət mərkəzində saxlamışdır. Onlar aşağıdakılardır:

- Fiziki tərbiyə (yetişən nəsli sağlam, cəld, çevik böyütmək).
- Ağıl və əqli tərbiyə (hər bir işə ağıllı yanaşmaq, fərasətli, dərrakəli olmaq).
- Əxlaq tərbiyəsi (əxlaqın müsbət təzahürlərinə yıyələnmək).
- Əmək tərbiyəsi (əməksevər, işgüzar olmaq; məhsuldar işləmək).
- Estetik tərbiyə (təbiət, cəmiyyət və incəsənətin gözəlliklərini dərk etmək).
- Ekoloji tərbiyə (ətraf mühiti sevmək və qorumaq).
- İqtisadi tərbiyə (qənaətcil olmaq, israfçılığa yol verməmək)
- Hüquq tərbiyəsi (ailə və ictimai mühitin qayda-qanunlarına əməl etmək və onları qorumaq).

Göründüyü kimi, xalq, böyüməkdə olan nəslin hərtərəfli inkişafı qayğısına qalmış, öz cəmiyyətinin vətəndaşını sağlam, ağıllı, əxlaqlı, əməksevər, gözəlliyi dəyərləndirməyi və yaşadığı mühiti qorumağı bacaran, hüquq və vəzifələrini bilən və ona əməl edən bir insan olaraq yetişdirməyə çalışmışdır. Yaratdığı bütün tərbiyə vasitələrində məqsəd bu amala

önəm vermək olmuşdur.

## Mövzu 8. Etno təlim - tərbiyəsinin prinsipləri, üsul və vasitələri.

**Plan**

- **Xalq tərbiyəsinin üsul və vasitələri barədə ümumi anlayış**
- **Xalq tərbiyəsində üsul və vasitələrin vəhdəti, qarşılıqlı yerdəyişməsi**
- **Dini dəyərlərlə vəhdətdə olmaqla milli adət – ənənələr xalq tərbiyəsinin vasitələrindən biri kimi**

**Ev tapşırığı üçün ədəbiyyat**

● Ə.Həşimov. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, «Maarif». 1970.
● Ə.Həşimov. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı, «Maarif». 1991.
● Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogıkası.Bakı, «Ünsiyyət». 2000
● O.Qüdrətov, H.Qürbətov. Məhəmməd Peyğəmbər: həyatı və kəlamları. Bakı, 1990.
● Ə.Əhmədov. İslam əxlaqı.Bakı,2006.
● Atalar sözü və məsəllər. Bakı, «Altun kitab». 2007.
● Bəhlul Danəndə lətifələri. Bakı, «Altun kitab». 2007.

● **Xalq tərbiyəsinin üsul və vasitələri barədə ümumi anlayış.** Xalqın əsrlər boyu yaranıb formalaşmış təcrübəsində tərbiyənin olduqca müxtəlif üsul və vasitələri var. Elmi pedaqogikanın **rəğbətləndirmə, cəzalandırma, alışdırma, nümunə** deyə adlandırdığı üsulların xalq pedaqogikasında adı çoxdur və sayı-hesabı bilinməyən şifahi xalq ədəbiyyatı nümunələrinə səpələnmişdir. Eyni zamanda xalqın adət-ənənələrində yaşamaqdadır.

Professor Əliheydər Həşimovun tədqiqatları örnək olmaqla mənbələrə istinadən deyə bilərik ki, xalqın pedaqoji təcrübəsində aşağıdakı tərbiyə üsulları var: **söhbət, öyüd – nəsihət, tələb, göstəriş, nümunə, inandırma, tövsıyə, vəsiyyət, təqdiretmə, məsləhət, əyani göstərmə, izah etmə, alışdırma, məşq, təlqin, yamsılama, xahiş, dılətutma, tərifləmə, alqış, təkid, məcburetmə, and, xəbərdarlıq, hədə-qorxu, cəza, danlaq, məzəmmət, irad, tənə və s.**

Göründüyü kimi, üsullar ölçüsü bilinməyən hüdudsuz bir meydandır və bu meydanda tərbiyə obyektinin yaş problemi həlledici deyil. Yəni bu üsulların hər biri ilə balaca uşağa da, yeniyetməyə də, gəncə də, hətta yaşa dolmuş insana da təsir etmək mümkündür.

Xalq tərbiyəsinin vasitələri də üsulları kimi çeşidlıdir: **atalar sözü, məsəl, nağıl, lətifə, nəsihət, yanıltmac, dastan, adət-ənənələr** və s. Yəni xalq bu qeyd edılənlərdən bir vasitə kimi istifadə edərək yüksək estetik dəyərlərə malik tərbiyə prosesi yaratmışdır.

● **Xalq tərbiyəsində üsul və vasitələrin vəhdəti, qarşılıqlı yerdəyişməsi**

Xalqın böyük dühasından yaranaraq tarixin bütün dövrlərində özünü doğrultmuş bu üsül və vasıtələrə bir ehkam kimi yanaşmaq düzgün olmaz. Çünki onlar çevik və yerinə, zamanına, mühitinə görə dəyışəndir. Bir məqamda üsul olan, başqa bir məqamda vasitəyə çevrilə bılər. Məsələn, izahetmə, göstəriş, məsləhət əslində tərbiyənin üsuludur, amma həm də vasıtəsidir. Yəni tərbiyə olunana onlar vasitəsilə təsir etməyə cəhd göstərilir.

Xalq tərbiyəsinin üsul və vasitələrini elmi pedaqogikanın qəliblərinə uyğun şəkildə qruplaşdırmaq mümkündür. Məsələn, tərifi, xeyir-duanı, alqışı - **rəğbətləndirmə**, qarğışı, cəzanı, tənəni, töhməti - **cəzalandırma**, işə cəlbetməni, oyunu-**alışdırma** qəliblərinə uyğun təsnif etmək olar. Lakin bunlar o qədər çox və hüdudsuzdur ki, saymaqla qurtarmır. Təkcə həm üsul, həm də vasitə adlandıra biləcəyimiz oyunların çox sayda növləri var; əməyə həvəsləndirən, hərbə maraq yaradan, fiziki sağlamlığa təkan verən, nitqi inkışaf etdirən, yarış ruhu təlqin edən… oyunlar, həmçinin bütün bu deyılənləri özündə birləşdirən mürəkkəb oyunlar.

Xalqın söz sərvəti sırasında istisnasız olaraq bütün atalar sözləri və məsəllər tərbiyə vasitəsidir. Tərbıyənin elmi pedaqogikadan tanıdığımız bütün tərkib hissələrini (əxlaq, fiziki, əqli, mənəvi, estetik, ekoloji, iqtısadi, hüquq) formalaşdırmaq üçün üsul və vasitələr mövcuddur. Məsələn, dastanların əvvəlində bir qayda olaraq söylənən ustadnamələr mənəvi tərbiyəyə xidmət edir.

**Varlıynan dost olub, yoxsula gülmə,**
**Çox da havalanıb coşma dünyada.**
**El sənə inanıb qabağa çəksə,**
**Ağır ol, alçağa düşmə dünyada.**
**Dərdini bölüşdür qədir bilənnən,**
**Vəfalı dost olmaz üzə gülənnən.**
**Bir adam ki, «sən öl» desə, yalannan,**
**Onun körpüsündən keçmə dünyada.**

Araşdırmalar göstərir ki, xalq, tərbiyənin çox çətin, lakin icrası mümkün proses olduğunu hər zaman diqqət mərkəzində saxlamışdır. Məsələn, uşaqların əməksevər böyüməsi üçün nağıllar, düzgülər qoşan, oyunlar quran xalq həm də demişdir: «Uşağı buyur, ardınca yüyür». Deməк, uşaq əməyə alışana qədər, ona verilən biliklər bacarığa, bacarıq isə vərdişə çevrilənə qədər hər dəfə, hər buyruqla bağlı ona nəzarət olunmalıdır.

Bu, heç bir analoqu olmayan dahiyanə qənaətdir ki, əsrlərin təcrübəsindən yaranmışdır.

Ümumiyyətlə, xalqın tərbiyə məqsədi ilə yaratdığı üsul və vasitələrin hər biri zaman və həyatın sınaqlarından keçərək, özünü doğrultmuş və şifahi söz saxlanclarında əbədıləşmişdir.

**Məsləhət:** «Az olsun, yaxşı olsun», «Aza qane olmayan,çoxdan da olar», «Dost dosta tən gərək, tən olmasa gen gərək».

**Göstəriş:** «Dostunu mənə göstər, sənin kim olduğunu deyim», «Adın nədir? – Rəşid – Birin de, birin eşit», «Sözünü ağzından bişir çıxar».

**Eyham, eşitdirmə:** «Aç qulağım, dinc qulağım», «Azacıq aşım, ağrımaz başım», «Həqiqət incələr, üzülməz».

Qeyd edək ki, xalq pedaqogikasından nümunə gətirə biləcəyimiz tərbiyə vahidlərinin hər biri məntiqinin gücünə görə bir yox, bir neçə istiqamətdən yozula bilər.

**● Dini dəyərlərlə vəhdətdə olmaqla milli adət – ənənələr xalq tərbiyəsinin vasitələrindən biri kimi**

Adət-ənənəyə gəlincə, deməliyik ki, hər bir xalqın milli özünəməxsusluğuna onun dini baxışlarının müstəsna təsiri var. Bizim dinimiz İslam dinidir. İslamın tarixi eramızın VII əsrindən başlanır. Amma Azərbaycan xalqının tarixi İslamdan çox-çox qədimdir. Deməк, adət ənənələrimizin də tarixi çox əvvəllərə gedib çıxır. Lakin ona İslamın təsiri inkarolunmazdır.

İslam düzlüyə, doğruçuluğa, haqqa, ədalətə, mənəviyyata çağıran dindir; Azərbaycan xalqının da insanlardan umduğu elə budur. İslam dünyanın ən mütərəqqi dinidir; Azərbaycan xalqının da dünyabaxışı eynən bu cürdür. İslam qəlbigenişliyə önəm verir, tərbiyə etmək naminə günahkarı bağışlayır; Azərbaycan xalqı da . İslam, əxlaqında naqislik olan qadın və kişilərə cəza tələb edir; Azərbaycan xalqı da yaranışdan şərəf və ləyaqəti uca tutmuş və qəbahətlərə qarşı amansız olmuşdur.

Arqumentlərin sayını istənilən qədər artırmaq olar. Lakin fikir yürütmək üçün bu qədər də bəsdir. Fikir isə belədir ki, Azərbaycan xalqının islamaqədərki həyatı və tərbiyə konsepsiyaları İslam əxlaqı kimi parlaq olmuşdur. Ona görə də İslam dininin qəbulu xalqın adət-ənənələrini kənarlaşdırmamış, əksinə, onunla vəhdət tapmış, ona qüdrət və

qüvvət vermişdir. Beləliklə də, xalqın adət-ənənələri ilə dini dəyərlərin birliyi yaranmışdır. Nümunələrə diqqət yetirək:

İslam Peyğəmbəri(S) buyurur: «Mömin sünbülə bənzər, bəzən başını əyər, bəzən qaldırar, düzələr».

Xalq deyir: «Ağac bar gətirəndə başını aşağı əyər».

Peyğəmbər: «Adam məsləhətləşsə, heç vaxt ziyan çəkməz».

Xalq: «Məsləhətli don gen olar».

Peyğəmbər: «Birisi sizi bir yerə dəvət edirsə, onun dəvətini qəbul edin».

Xalq: «Çağrılan yerə ar eləmə, çağrılmayan yeri gedib dar eləmə».

Peyğəmbər: «Uşaq olmayan yerdə bərəkət yoxdur».

Xalq: «Uşaqlı ev bazara bənzər, uşaqsız ev məzara».

Peyğəmbər: «Ağzımızda bir ət parçası var, şirin olsa, şirin oluruq, acı olsa, acı».

Xalq: «Şirindil adam min evi yeyər, acıdil adam bir evi də yeyə bilməz».

Bundan əlavə, Peyğəmbər Əleyhissəlamın elə kəlamları var ki, xalqda onun müqabili söz yox, bütöv adət-ənənədir. Məsələn:

- Həqiqətən də insanların ən ləyaqətlisi, ən yetkini əxlaqı gözəl olanlar və ailə üzvlərinə qarşı böyük ehtiramla yanaşanlardır.
- Ulu Tanrının nəzərində qulların ən sevimlisi əhli-əyalı üçün ən çox faydalı olandır.
- Atanın öz oğluna əvəzsiz olaraq verdiyi, bağışladığı şeylərin ən üstünü odur ki, onu yaxşı böyütsün, gözəl tərbiyə etsin.
- Bir xəstənin halını soruşmağa gedən, oradan qayıdanda Cənnət bağında gəzmiş hesab olunur.

Birinci kəlama müqabil olaraq deyə bilərik ki, Azərbaycanlı ailəsi dünya xalqları arasında qarşılışlı hörmət və ehtirama əsaslanan ən kamil ailədir və ailə ənənələri bu gün də qorunur.

Həmçinin ailə başçısının ailənin daim qayğısına qalması ənənəsi də mövcuddur.

Azərbaycanlı ailəsində övlad nə yaşda olursa - olsun valideyn üçün uşaqdır. Övlad, bəzi ölkələrdə olduğu kimi, ailədən erkən ayrılmır, ona ciddi tərbiyə verilir. Bu barədə xalq deyimi də var: «Əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir».

Xəstəni yoluxmaq, ondan hal-əhval tutmaq isə ən vacib adət-ənənələrdəndir.

Heç şübhəsiz, bu adət-ənənələrin içərisində böyüyən uşaq öz xalqına bağlı bir insan olaraq yetişir. Və bu proses qurtarmır, yaşın üzərinə yaş gəldikcə ona müvafiq şəkildə davam edir.

Xalq pedaqogikası, onun üsul və vasitələri ömrün bütün məqamlarında insanı müşayiət edir. Ona görə də deyə bılərik ki, xalq pedaqogikası fasiləsiz təlim və tərbiyə məktəbıdir. Bundan əlavə, xalq pedaqogikası hər zaman müasirdir və həmişə yaşayır. Çünki elmi pedaqogika kimi siyasi quruluşla, ideologiya ilə bağlı deyil; quruluşun dəyişməsindən asılı olaraq onun müddəaları öz əhəmiyyətini itirmir.

## Mövzu 9. Etnopedaqogikada fiziki tərbiyə məsələləri

**Plan**

- Azərbaycan xalqının fiziki tərbiyəyə diqqət və qayğısı
- Xalq pedaqogikasında fiziki tərbiyə vasitələri
- Fiziki tərbiyəyə münasibətdə xalq pedaqogikasının elmi pedaqogika ilə vəhdəti
- Fiziki tərbiyənin ictimai şəraitdən asılı olması

**Ədəbiyyat**


- Ə. Həşimov. Pedaqoqika kursunun tədrisində xalq hikmətindən istifadə, Bakı, «Maarif», 1991.
- Ə. Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif», 1996.

- Ə. Həşimov, Müdriklik çeşməsi. «Azərbaycan məktəbi» jurnalı.1994 № 1-3.
- Kitabi-Dədə Qorqud. Bakı, «Elm», 1988.
- Atalar sözləri (Toplayanı Ə.Hüseynzadə). Bakı, 1985.
- Oğuznamə. Bakı, «Gənclik», 1987.
- Tapmacalar və oyunlar. Bakı, 2007.


Fiziki tərbiyənin başlıca məqsədi – sağlamlıq, düzgün fiziki inkişaf, çevik, dəyanətli, qüvvətli, möhkəm, qıvraq və bədəncə gözəl olmaqdır; bütün cəmiyyətdə insanların cəhd etdiyi, özlərində və övladlarında görmək istədikləri ən qiymətli keyfiyyətdir. Fiziki tərbiyə insanda məhz belə keyfiyyətlərin yaranmasına xidmət etdiyindən bütün xalqlar onu həmişə yüksək qiymətləndirmiş və ona ciddi fikir vermişdir.

Mövcud ədəbiyyatda dəfələrlə qeyd edildiyi kimi, fiziki tərbiyənin məzmunu, forması, məqsəd və vəzifələri ictamii şəraitin dəyişməsi ilə əlaqədar olaraq dəyişmiş, müxtəlif tarixi dövrlərdə müxtəlif səciyyədə olmuşdur. Cəmiyyətin ilkin mərhələsində o, əsas etibarilə cəld ovçular, dəyanətli və qoçaq döyüşçülər hazırlamaq işinə yönəlmişdir. Bu məqsədlə yaşlıların döyüş hərəkətlərini və ovçuluq məharətini təqlid edən müxtəlif oyun və yarışlardan, həmçinin fiziki dəyanət və mənəvi–iradi möhkəmlik tələb edən rəngarəng mərasim və ayinlərdən istifadə olunmuşdur.

Quldarlıq cəmiyyətində məktəblər meydana gəldiyindən, əmək bölgüsü yarandığından və əqli əməklə fiziki əmək bir-birindən ayrıldığından fiziki tərbiyə müstəqil bir sahə kimi xeyli dərəcədə təkmilləşmiş, onun məzmunu, forması, məqsəd və vəzifələri ağalıq edən hakim sinif və təbəqələrin mənafeyi baxımından müəyyən olunmuşdur. Feodalizm cəmiyyətində də belə olmuşdur. Yəni, hakim sinif öz ağalığını təmin etmək işində mütəşəkkil fiziki tərbiyədən bir silah kimi istifadə etmişdir.

Zəhmətkeş balaları əsas etibarilə əmək prosesində, yaxud müxtəlif oyun və ayinlər vasitəsilə fiziki tərbiyə almışlar. Zaman keçdikcə bu vəziyyət tədriclə aradan qaldırılmışdır; cəmiyyət inkişaf etdikcə insanın normal inkişafı üçün geniş imkanlar yaradılmış, bədən tərbiyəsi və idman adamların gündəlik məişətinə daxil olmuşdur.

- **Azərbaycan xalqının fiziki tərbiyəyə diqqət və qayğısı**

Azərbaycan xalqı fiziki tərbiyə işinə daim diqqətlə yanaşmışdır. Nağıl və dastanlardakı

bir sıra hadisələrin gedişatından görünür ki, fiziki tərbiyəyə diqqət və qayğı xalqın məişət qanunlarından birinə çevrilmişdir. Hər gənc ailənin bünövrəsini qoymaq istərkən, gələcəkdə onların övladlarının sağlam olması qayğısına qalmışlar. Həmçinin fiziki sağlamlıq ailənin qorunması və yaşaması üçün vacib şərtlərdən biri hesab olunmuşdur. Bu mənada, oğlanlarla bərabər, qızların da fiziki tərbiyəsi yüksək dəyərləndirilmişdir. «Kitabi Dədə Qorqud» dastanlarında «Qanlı qoca oğlu Qanturalı» boyunda Qanturalı onu evləndirmək istəyən atasına deyir: «Ata, məni evləndirmək istəyirsənsə, bilirsənmi mənə layiq qız necə olmalıdır?.. Mən yerimdən durmamış o durmuş olsun! Mən Qaracıq atımı minmədən o minmiş olsun! Mən qanlı kafir elinə getməmiş o gedib baş gətirmiş olsun!»

Xanımların belə şücaətli olması ondan ötrü vacib sayılırdı ki, kişi evdə olmayanda düşmən tərəfindən hücum olarsa, qadın özünü, evini və övladlarını müdafiə edə bilsin.

Oğlanların fiziki hazırlığı qarşısında duran tələblər isə daha böyük idi. Fiziki hazırıq onlar üçün – at çapmaq, qılınc çalmaq, yay çəkib ox atmaq, düşmənlə döyüşdən qalib çıxmaq, özünü, ailəsini, el-obasını layiqincə qorumaq demək idi.

Həmçinin qızlar da onlarla ailə qurmaq istəyən oğlanların qarşısında yüksək fiziki hazırlıq tələbi qoyurdular. Öz fiziki hazırlığı olan qızlar şərt kəsirdilər: mən o oğlana gedərəm ki, at çapmaqda, qılınc oynatmaqda, yay çəkib, ox atmaqda, güləşdə məndən üstün ola. Bu üstünlüyün həqiqət olub-olmamasını yoxlamaq üçün qızla oğlan yarışırdılar. Bir qayda olaraq oğlanlar son məqamda – güləşdə qalib gəlirdilər.

«Bayburənın oğlu Bamsı Beyrək» boyunda Beyrəklə Banuçiçəyin, «Şah İsmayıl» dastanında Şah İsmayılla Ərəbzənginin yarış-vuruşları dediklərimizi sübut edir. Eləcə də fiziki hazırlığını nümayiş etdirib şücaət göstərməyən cavanlara ad qoyulmaması xalqın fiziki hazırlığa necə önəm verdiyini sübut edir.

Xalq fiziki tərbiyəyə ona görə gənc ailənin bünövrəsi qoyulan vaxtdan tələbkarlıqla yanaşmışdır ki, dünyaya gələn körpələr fiziki cəhətdən sağlam olsunlar. Körpələri gəlişlərinin ilk anından ciddi mühafizə etmiş, 40 gün onu kənar, yad adamlara, xəstələrə göstərməməyə çalışmışlar. Gigiyenik qaydalara ciddi əməl etmiş, ana südü ilə bəsləmiş, hər dəfə bələyini asçıb dəyişəndə yuyundurmaqla bərabər, kiçik idman hərəkətləri etdirmişlər. Hətta dişlərin çıxma prosesində və ondan sonra uşaqları bərk qidalardan, şirniyyatdan çəkindirmişlər ki, həm dişlər əyilməsin, həm də şirninin təsirilə sağlamlığını

itirməsin. Bu, bir ənənə olaraq nəsildən-nəslə keçərək günümüzə qədər gəlib çatmışdır.

**• Xalq pedaqogikasında fiziki tərbiyə vasitələri**

Xalq böyüməkdə olan nəslin fiziki tərbiyəsi məqsədilə müxtəlif vasitələrdən istifadə etmişdir. Burada yaş dövrü ciddi şəkildə nəzərə alınmışdır:

- Çağa vaxtında düzgün bələnməsi, çimizdirilməsi, yatarkən tez-tez o yan-bu yana çevirmək, yatağının hamar, düz və rahat olması, otağın isti-soyuqluğuna, havasının bolluğuna və təmizliyinə nəzarət;

- 5-6 aylığında onun oturmağa öyrədilməsi, ilkin oturuşlarda uşağın bel sütununun düz dayanması və əyilməmə-si üçün onun böyür-başına yastıqlar düzülməsi;

- 8-9 aylarında əlindən tutaraq yeriməyə həvəsləndirilməsi və öyrədilməsi fiziki tərbiyənin başlanğıcıdır.

Bundan sonra oyunlar məqamı başlanır. Yaşdan-yaşa keçdikcə oyunlar sadədən mürəkkəbə doğru yön alır. Tədriclə əmək mühiti də öz aktuallığı ilə prosesə qoşulur. Uşaqlara müxtəlif oyunlar öyrədilir, xırda məişət işləri gördürülür. Bu oyunlar vasitəsilə onlar çevik hərəkətlər etməyə, hər zaman qələbə əzmində olmağa alışırlar. Həmçinin əmək fiziki qabiliyyətləri inkişaf etdirir, uşağın mənəviyyatını, ağlını, zehnini, cilalayır. Mərhum professor Ə.Həşimov oyunlar sırasında «Vur nağara, çıx qırağa», «Güdü-güdü», «Qodu-qodu», «Çoban və Canavar», «Qarğasan, civə?», «Bənövşə» (Bənövşə – bəndə düşə), «Mərə-mərə», «Gizlən-paç», «Dəsmal aldı qaç», «Çiling ağac», «Hola-hola», «Dirədöymə», «Beş daş», «Südlü sümük», «Üstən hoppanma», «Xangizir», «Zənbələn-zu», «Buldı», «Evcik-evcik», «Dava-dava» və «Cövgan»ın adını çəkir. Bu oyunların sırasına «Sınıqqol», «Çiləmə», «Siçan-pişik», «Sürü-sürü», «Gəlin-gəlin», «Çırtma-çırtma», «Ənzəli», «Haqqır-huqqur», «Göydə nə var», «Kəndirbaz», «Yaylıq-yaylıq», «Papaq aldı qaç» və s. əlavə edə bilərik.

Müasir həyat tərzi səbəbindən bir çoxu diqqətdən kənarda qalmış, hətta unudulmuş bu oyunlar müxtəlif yaş dövrlərinə uyğun yaradılmışdır. Məsələn, «Haqqır-huqqur» oyunu tez küsən, tez ağlayan uşağı sakitləşdirmək üçün yaradılmışdır. Böyüklərdən bir nəfər yerdə oturur, ağlayan uşağı kürəyinə alır, əlini çiyinlərindən geri çevirərək, uşağın əllərindən tutur və beşik kimi irəli-geri yelləyərək oxuyur:

**Haqqır-huqqur,**

**Sofu soğan**
**Yeməz-içməz,**
**Görsə, qabığın qoymaz,**
**Görsə, qabığın qoymaz.**

Bu yaşda uşaqları həm də «İynə-iynə», «Əl üstə kimin əli?», «Təkmə cüt», «Aşım biş», «Vur nağara, çıx qırağa» oyunları ilə ev şəraitində tərbiyə etmək olur.

«Əl üstə kimi əli?» əslində «İynə-iynə»nin yekunudur. Lakin ondan ayrıca oyun kimi də istifadə olunmuşdur. Oyun uşaqlara kiçik yaşlardan, özündə fiziki qüvvə toplamağı və dözümlü, həm də fəhmli olmağı öyrədir. «İynə-iynə»də «bəxti gətirməyərək» sona qalmış uşaq xalçanın üstünə uzanır. Digər uşaqlar əllərini onun kürəyində bir-birinin üstə qoyub soruşurlar: «Əl üstə kimin əli?». Uşaq ən üstə kimin əli olduğunu fəhmlə tapıb deməlidir. Əgər tapsa, canı qurtarır, tapmasa, o birilər «Götürün, götürün, bərk vurun» deyərək hamısı birlikdə onun kürəyinə vururlar. Oyun düzgün cavab alınanadək davam edir.

Xalqın oyunlar vasitəsilə fiziki tərbiyə işi öz sisteminə görə olduqca maraqlıdır. Qeyd etdiyimiz kiçik və ibtidai tərzli oyunlardan tədriclə hərəki oyunlara, oradan da hərbi idman oyunlarına keçid var. Və bütün oyunlar həm də zehni qabiliyyətlərin inkişafına xidmət edir. Məsələn, «Gizlənpaç», «Papaq aldı qaç» çeviklik, sürətli hərəkət tələb edir, «Göydə nə var?», «Zop-zopu» güc, güvvə həm də zirəklik. «Çilingağac», «Mərə-mərə» isə qol əzələlərini inkişaf etdirir. «Çövqan» və «Güləş» kimi oyunlar artıq böyüyüb başa çatmış igidlərin oyunudur.

Əvvəldə qeyd etdik ki, xalq oyunlarının bir qismi unudulub yaddan çıxmışdır. Lakin onu da qeyd etməliyik ki, bir qisim oyunlarımız yaşayaraq müasir idman oyunları sırasında yer almışdır. Çövqan, cıdır, qılıncoynatama, güləş, üzgüçülük, uzununa tullanma, bilək yerə qoyma bu gün də yaşamaqdadır. Sovetlər birliyi vaxtı hətta İttifaq səviyyəsində çövqan oyunları keçirilmişdir.

İdman yarışları adətən cəngilərlə müşayiət olunmuşdur. Bu da xalqın psixoloji incəlikləri gözəl bilməsindən irəli gəlir. Öz fiziki gücünü nümayiş etdirən şəxs bunu milli musiqi sədaları altında görərkən daha da ilhamlanmış, ruhən qida almışdır. Qəhrəmanlıq dastanlarında təkrar-təkrar görürük ki, cəngə çıxmış igid yorulanda dostlarından qopuz, saz çalıb onu öyməlerini xahiş edir.

Qeyd edək ki, musiqinin müşayiətindən daha çox kəndirbaz oyunlarında və güləş

yarışlarında istifadə edilmişdir. Qüdrətli güləşçilər pəhləvan kimi dəyərləndirilmişdir. Bəzən onlar öz güc və qüdrətlərini sübut etmək üçün dizlərinə güzgü bağlamışlar. Yəni bükülməyən dizi var və onun dizini qatlamağa heç kəs qadir deyil. Bəzən də tərəflər bədənlərinə yağ çəkmişlər ki, rəqibə çətinlik yaransın və bu şəraitdə kimin daha güclü olduğu üzə çıxsın. Belə oyunlara zorxana (güc yeri) oyunları deyilirdi.

«Zorxana» sözü bugünkü təbirdə idman məşqləri keçirilən yer (idman zalı) kimi qəbul edilə bilər. Qədim zamanlarda hər hansı bir ölkənin qüdrəti onun pəhləvanları ilə məlum olurdu. Yəni müharibə vəziyyətinə gəlmiş tərəflərin döyüşləri pəhləvanlarla başlanırdı. Hansı tərəfin pəhləvanı məğlub olsa, o dövlət uduzmuş sayılırdı. Ona görə də hökmdarlar qüdrətli pəhləvanları himayə edir, onlara xüsusi qayğı göstərirdilər. Onlar üçün zorxanalar yaradırdılar. Burada pəhləvanlar güləş və vuruş fəndlərini inkişaf etdirir, daş qaldırır, zəncir qırır, qurşaq tutur və digər hünər tələb edən məşqlər keçirir, öz bildiklərini gənclərə də öyrədirdilər.

● **Fiziki tərbiyəyə münasibətdə xalq pedaqogikasının elmi pedaqogika ilə vəhdəti.** Elmi pedaqogika materiallarının təhlili göstərir ki, xalqın fiziki tərbiyə ilə bağlı fikir və qənaətlərinin kökündə məntiq dayanır. Sistematiklik və ardıcıllıq var. Ibtidaidən aliyə, asandan çətinə prinsipinə ciddi əməl edilir. Elmi pedaqogika böyüməkdə olan nəslin tərbiyəsinə erkən yaşlardan başlamağı lazım bilir. Xalq da, əvvəldə qeyd etdiyimiz kimi, bu işə lap erkən yaşlardan başlamışdır. Elmi pedaqogika fiziki tərbiyə işində yaş dövrünün xüsusiyyətlərini nəzə almağı vacib sayır. Məsələn, bədən tərbiyəsi məşğələləri yaş dövrləri üzrə təşkil edilir və dərəcələrə bölünür.

Xalq pedaqoqikasının tarixi çox qədim olduğu üçün burada nə siniflərdən, nə də şagirdlərdən söhbət gedə bilməz. Lakin xalq hər yaş dövrünün xsusiyyətlərini və fiziki imkanlarını gözəl bildiyi üçün fiziki tərbiyə işini də ona müvafiq olaraq qurmuşdur. Fiziki imkan və yaşauyğunluq prinsiplərini nəzərə alaraq demişdir: «Gücün çatmayan daşa güc eləmə».

Elmi pedaqoqika bədən tərbiyəsi və idmanı sağlamlığın rəhni adlandırır. Xalq pedaqoqikasında da belədir. Xalq deyir: «Sağlamlıq soltanlıqdır, demə yoxsulam mən», « Uca-uca dağlar başı qarlı da olar, qarsız da; igidin canı sağ olsun, varlı da olar varsız da», «Canı sağ olana hər gün bayramdır», «Sağlamlıq bəylikdir».

Ümumiyyətlə, xalq, fiziki inkişafı, gücü, hünəri yüksək qiymətləndirmiş, onu can sağlığının şərtlərindən biri kimi dəyərləndirmiş, can sağlığını isə var-dövlətdən üstün tutmuşdur.

## Mövzu 10 . Etnopedaqogikada əmək tərbiyəsi, təlimi və peşəyönümlü məsələləri.

**Plan**

- **Xalq pedaqogikasının bünövrə daşı**
- **Peşələrin yaranmasının pedaqoji qənaətləri yaratması**
- **Xalqın əməyə münasibətinin müxtəlif janrlı folklor nümunələrində təzahürü**

**Ədəbiyyat**


- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, «Ünsiyyət» 2000.
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif», 1996.

- A.Nəbiyev. Nəğmələr, inanclar, alqışlar. Bakı, «Yazıçı», 1986.
- K.Vəliyev. Elin yaddaşı, dilin yaddaşı. Bakı, «Yazıçı», 1988.
- Atalar sözü, ağlın gözü. Bakı, 1976.
- Nəğmələr. Bakı, «Altun kitab». 2007.
- Atalar sözü və məsəllər. Bakı, «Altun kitab». 2007.
- Uşaq folkloru. Bakı, «Altun kitab». 2007.
- Bayatılar. Bakı, «Altun kitab». 2007.


● **Xalq pedaqogikasının bünövrə daşı.** Tarixin bütün qatlarında insanı şərəfləndirən və yaşadan əmək olmuşdur. Əmək prosesi insanın təfəkkürünü inkişaf etdirmiş, onu həyat və yaşamaq uğrunda mübarizəyə qoşmuşdur. İnsanların sürü şəklində yaşadığı ibtidai icma quruluşu dövründə əmək onların instinktiv olaraq can atdıqları zəruri məşğuliyyət olmuşdur. Əmək vasitəsilə aclıqlarını dəf etmiş, ehtiyat ruzi toplamış, növbəti və daha mürəkkəb əmək prosesi üçün təcrübə qazanmışdır. Beləliklə, əmək insanı formalaşdırıb inkişaf etdirmişdir.

Qədim insanlar əmək prosesində təcrübədən əldə etdikləri bılıklər əsasında ilkin pedaqoji işi belə görmüşlər: Oğlanları çətin, qızları isə nisbətən asan işlərə qoşmuşlar. Beləliklə, ovçuluq, balıqçılıq, ov və əmək alətləri düzəltmək kimi çətin işlərdə oğlanların; meyvə toplamaqda, dəridən geyim şeyləri hazırlamaqda və digər bu kimi işlərdə qızların qüvvəsinə istinad etmişlər. Eləcə də onlara işi necə görmək tərzini başa salmış, yaxşını tərifləmiş, pisi tənqid etmiş, həvəsləndirmiş, tapşırıq vermiş, tələb etmişlər.

Xalqın əmək prosesində necə formalaşıb inkişaf etdiyini öyrənməkdə pedaqoqika elminə arxeologiya və tarix çox kömək edir. Bəşəriyyətin keçdiyi həyat yolunu, onun inkişaf mərhələlərini tapıb üzə çıxarmaq istəyən tarixçilərin və arxeoloqların apardıqları qazıntılar zamanı tapılan əşyalar insanlığın hansı mərhələlərdən və necə keçdiyini açıb göstərir. Məsələn, aydın olur ki, Neolit dövründə, yəni eramızdan əvvəl VII-VI minilliklərə qədər olan dövrdə insanlar ovçuluqla və məhsul yığımı ilə məşğul olmuşlar. Həmin dövrdə maldarlıq, əkinçilik, dulusçuluq, toxuculuq kimi fəaliyyət növlərinin bünövrəsi qoyulmuşdur. İnkişafın sonrakı mərhələsi Tunc dövrü ilə bağlanır. Metalın tapılması əmək prosesində məzmun dəyişikliyi edir. Üzümçülük, bağçılıq, atçılıq, qismən

zərgərlik inkişaf edir. Dəmir dövründə isə əvvəlki fəaliyyətlərin üzərinə toxuculuq, xalçaçılıq və suvarmanın inkişafını əlavə etmək olar. Ondan sonrakı dövrlərdə isə ipəkçilik və digər peşə və sənət növləri yaranmışdır. Beləliklə, insan əmək sayəsində inkişaf edib formalaşmış və ibtidaidan aliyə gedən yolda özünü təsdiq etmişdir.

**Peşələrin yaranmasının pedaqoji qənaətləri yaratması**

Qeyd edilən inkişaf prosesi və onun nəticəsində xüsusi əmək sahələrinin formalaşması ağıllı və müdrik insanlarda şəxsiyyətin inkişafı ilə bağlı fikirlər də meydana gətirdi. Gündəlik məişət həmin fikirlər əsasında tarazlanaraq ümumi həyat tərizinə çevrildi. Beləliklə, atalar sözləri, zərb-məsəllər, holovarlar, sayaçı sözlər, əmək nəğmələri və s. yarandı. Onların hər birində əməyə məhəbbət, əməyə sevgi təzahür etdi və böyüməkdə olan nəslə ünvanlandı. Hətta insanlar əməklə bağlı təbiət qüvvələrinə müraciət edərək nəğmələr qoşdular. Məsələn, döyülmüş taxılı xırmanda sovurub təmizləmək üçün insanlar yel əsməsini arzulayaraq belə bir nəğmə oxumuşlar:

**A yel baba, yel baba,**
**Qurban sənə, gəl, baba.**
**Taxılımız yerdə qaldı,**
**Yaxamız əldə qaldı**
**A yel baba, yel baba,**
**Qurban sənə, gəl, baba.**

Yaxud, qışın ağır keçməsindən heyvanata dəyən ziyanla bağlı nənə və mart ayının dilindən deyilir:

**Qarı: Ay oğlağım, oğlağım,**
**Çıxdı yaza oğlağım.**
**Payız üstü beş oldu,**
**Yaz gəldi on beş oldu.**
**Buynuzu beş-beş oldu.**
**Mart, gözünə barmabım,**
**Yaza çıxdı oğlağım.**
**Mart: Bığlarımdı buz-buzu,**
**Çəkdim yer üstə buzu,**
**Qırdım ondan çox quzu,**
**Buynuzum beşdi, beşdi,**
**Nənəyə çərmi keşdi?**

Eləcə də, maldarlıq və əkinçiliklə bağlı holovarlar, heyvandarlıqla bağlı sayaçı sözlər yaranmışdır. Əmək prosesində oxunan həmin sözlər oxuyanı da, eşidəni də zəhmətə ruhlandırmışdır. Məsələn, aşağıdakı sayaçı sözündə şirin arzulara diqqət yetirək:

**Ağ getsin avanınız,**
**Tox gəlsin çobanınız.**
**Bol olsun yağ, süd, qatıq,**
**Olmasın yavanınız.**

**Bu saya yaxşı saya,**
**Baxar ülkərə, aya.**
**Tanrım bərəkət versin,**
**Həm yoxsula, həm bəyə.**

**Canım boz-ala qoyun,**
**Yolda yozala qoyun.**
**Yeyən sənin ucundan**
**Gözəl qız ala, qoyun**.

O cümlədən xalçaçılığa, ipəkçiliyə, ovçuluğa, balıqçılığa dair gözəl əmək nəğmələri mövcuddur.

● **Xalqın əməyə münasibətinin müxtəlif janrlı folklor nümunələrində təzahürü**

Xalqın əməyə münasibəti folklorun irili-xırdalı bütün növlərində ifadə olunmuşdur. Nəzərə alsaq ki, ən qısa və ən dərin mənalı sözlər atalar sözləridir, əməyə, onun gözəlliyinə bağlanmış yüzlərlə atalar sözü nümunə göstərmək olar. Bu sözlərlə dünya görmüş xalq gələcək nəsillərə sanki kodlaşdırılmış informasiyalar, öyüd və nəsihətlər, tapşırıqlar göndərmişdir: «Torpaq deyər: öldür məni, dirildim səni», «İşləməyən dəmir pas atar», «İstəyirsən bol çörək, al əlinə bel, kürək», «Çəkərsən cəfa, sürərsən səfa», «Torpağa əyilən namərdə əyilməz», «Sular hərəkətdədir, torpaq bərəkətdədir».

Xalq böyüməkdə olan nəsli əməyə alışdırmaq və əməyə məhəbbət ruhunda tərbiyə etmək üçün müxtəlif üsullardan istifadə etmişdir. Bu sırada məsləhət, göstəriş, buyruq, tələb, xahiş daha faydalı sayılmışdır. Məsələn, yaşlılar özləri bir iş görərkən uşağa məsləhət görmüşlər ki, onun əlinə baxıb öyrənsin. Bu həm də əyanilk deməkdir. Yaxud uşaqların yaşına və fızıki imkanlarına uyğun xırda işləri buyurmuşlar: onu apar, bunu gətir. Axırda həvəsləndirmək üçün «afərin», «yaşa» və s. sözlərdən istıfadə etməklə həm də demişlər: «Görülən işdən gül iyi gələr».

Həmçinin qız uşaqlarına hana toxumağı öyrədərkən onları bu incə və çətin işə həvəsləndirmək üçün oxumuşlar:

**Asma gül,**
**Basma gül,**

**Gülüm xınalı,**
**Döşü minalı.**
**Əzəl barmaqdan**
**Üzül hanama**
**Düzül hanama…**

İp boyayarkən isə belə demişlər:

**Gəndalaşı dərmişəm,**
**Dərib yerə sərmişəm.**
**Üzül boyağım,**
**Düzül boyağım,**
**Kətan içindən**
**Süzül boyağım.**

Bu baxımdan, nehrə çalxanan zaman oxunan nəğmə də maraqlıdır; Nənə balaca nəvələrini yanında oturdub nehrə çalxaya-çalxaya oxuyurdu:

**Nehrəm, gəl,**

**Nehrəm, gəl.**

**Yağın balağ[1] başıycan,**

**Ayranın göz yaşıycan.**

**Nehrəm, gəl,**

**Nehrəm, gəl.**

**Yağın mərmər daşıycan,**

**Ayranın göz yaşıycan.**

**Balam yesin sağ olsun,**

**Kef-damağı çağ olsun.**

Balacalar nəğməyə qulaq asa-asa nehrənin gəlməsini, nənənin yağ-çörəyini gözləyirdilər, həm də əməyin bu növünü öyrənirdilər.

Nənə və babaların əkib-becərdikləri nübar yeyilərkən söylədikləri **diləklər** də uşaqların əməyi sevməsi, yüksək mənəvi amallar ruhunda böyüməsi yolunda atılan zərif poetik addım idi:

**Başım-dişim ağrısı**

**Mərdimazarın ürəyinə.**

---

[1] Balağ – camışın balası

Xalqın böyüyən nəsli əməyə həvəsləndirmək ideyası folklorun bütün janrlarında mövcuddur. Və əgər birində əməkçi insan tərif olunursa, digərində tənbəl tənqid edilir: «Tənbələ dedilər dur qapını ört, dedi: külək örtər», «Ver yeyim, ört yatım, gözlə canım çıxmasın», «Tənbəl dağda qar gördü, yorğanına büründü», «Tənbəl acından ölsə, eldən ona nə çarə?»

İl quraqlıq keçəndə insanlar müsəllaya çıxmışlar. Deyin kimi əriştə, sıyıq bişirib yemiş, sonra da əl qaldırıb dua etmişlər:

**Fatma xala nə istər?**
**Əli xəmirdə qalıb**
**İkicə damcı su istər.**

Yağış yağarmış.

Aramsız yağışlar yağıb təsərrüfat işlərini ybadanda isə güdül oynadardılar. Xanım libasında bəzədilmiş çömçəni – güdülü iki nəfər götürər, qapı ötürmədən evbəev gəzib oxuyardılar:

**Güdül, güdül, gəlsənə,**
**Güdülü yola, salsana.**
**Çömçəni doldursana**
**Yük dibinə vursana.**

**Molla gedibdir bağa,**
**Kitabın oxutmağa.**
**Yağış yağıb, isladıb,**
**Gün gərək qurutmağa.**

Hər kəs onları gülərüzlə qarşılayıb, axıradək dinləyər və heybələrinə[2] yeməli hədiyyələr qoyardılar. Gün isə, əlbəttə, çıxardı.

Sujetli folklor nümunələrində – nağıllarda, dastanlarda xalq hətta hökmdarları sənət öyrənməyə məcbur edir. Bununla da demək istəyir ki, var-dövlət, taxt-tac gəldi-gedərdir, sənətsə yox. İnsan çətin məqamda öz sənəti ilə ruzisini qazanıb ailəsini saxlaya bilər. Məsələn, Şah Abbasa keçəçilik sənətini öyrənməyi məsləhət bilir və dar məqamda şah bu

---

[2] Щейбя - хуръун

sənətdən istifadə edir. Başqa bir nağılda isə şah baftaçılığı öyrənir.

Ümumən xalq pedaqoqikası materiallarını təhlil etdikdə görürürük ki, xalq bütün zamanlarda əməyi təqdir etmiş, əməkçi insanlara hörmət bəsləmişdir. Böyüməkdə olan nəslin də əməksevər ruhda böyüməsinə çalışmışdır. Bu gün folklor adlandırdığımız zəngin xəzinə içərisində isə müxtəlif əmək tərbiyəsi vasıtələri nəğmələr, bayatılır, sayaçılar, holovarlar, atalar sözləri, məsəllər, nağıllar, dastanlar yaratmışdır.

## Mövzu 11. Etnopedaqogikada əxlaq  tərbiyəsi məsələləri.

**Plan**

- **Əxlaq və əxlaq tərbiyəsi anlayışı**
- **Azərbaycan xalq pedaqogikasında əxlaqi sifətlər və əxlaq normaları**

**Ev tapşırığı üçün ədəbiyyat**


- Ə.Həşimov. Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə Bakı, «Maarif». 1991.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, «Patronat». 1993.
- Ə.Həşimov. Ədəb-ərkan haqqında bir neçə söz. «Xalq qəzeti», 28 yanvar 1992.
- F.Sadıqov, F.Əhmədov. Ədəb-ərkan dünyamız və ya hamıya lazım olan kitab. Bakı, 2000.

- Ə.Əhmədov. İslam əxlaqı. Bakı, 2006.
- Ə.Bədəlova. Ədəb-ərkan dünyamız. «Azərbaycan gəncləri» qəzeti. 4 fevral 1992.
- Oğuznamə. Bakı, «Gənclik», 1987.
- M.Həkimov. Xalqımızın deyimləri və duyumları. Bakı, «Maarif». 1986.
- R.Əfəndiyev. Xalqın söz xəzinəsi. Bakı, «Maarif» 1985


- **Əxlaq və əxlaq tərbiyəsi anlayışı.** Xalq pedaqoqikasında böyüməkdə olan nəslin tərbiyəsi qarşısında duran ən ümdə məsələ ağılla, kamalla bağlıdır. Lakin xalq ağıllı insanın qarşısına ciddi tələblər qoyur; onlardan ən başlıcası əxlaq tərbiyəsidir. Bəs əxlaq nədir? Əxlaq insanın mənəvi keyfiyyətlərini, insanlara və bütövlükdə cəmiyyətə qarşı münasibətlərini müəyyən edən normaları, davranış qaydalarını özündə birləşdirir.

Xalq arasında «əxlaq» sözünün əvəzində onun sinonimi kimi «ismətli», «iffətli», «ədəbli», «qanacaqlı», «mərifətli», «tərbiyəli» sözləri işlədilir. Əxlaqi keyfiyyətləri bəyənilən şəxslər haqqında deyilir: filankəs insan adamdır, mərifətli adamdır, əsil adamdır və s. Bütün bu sözlər insan əxlaqına dəlalət etməklə bərabər, hər biri fərqli səciyyə daşıyır və bütövlükdə bir cəm olaraq insanın mənəvi sifətlərini səciyyələndirir. Yəni əxlaqı kamil olan hər bir insan ismət, ədəb-ərkan, qanacaq, mərifət və s. keyfiyyətlərin sahibi olmalıdır.

Fəlsəfi elmlər kateqoriyasına daxil olan etika elmi də əxlaqın mahiyyətini bu cür dəyərləndirir, ona insanlar arasındakı davranış norması kimi baxır. Elmi pedaqoqika da əxlaqa tərif verərkən deyir ki, **əxlaq-insanlar arasında mədəni davranış qaydalarıdır.**

Əxlaq insan cəmiyyətinin mədəni inkişafının nəticəsidir. Yəni o, bir günə, yaxud bir neçə ilə başa gəlməmişdir. İbtidai icma dövründən başlayaraq, min illər boyu inkişaf yolu keçmiş, cəmiyyətlə bərabər formalaşmış və yetkin insan ağlının tələblərindən təzahür etmişdir. Belə ki, onun ilkin yaranışının bünövrəsində rəftar qaydaları dayanmışdır. Yəni əxlaq tərbiyəsinin bünövrəsi rəftar qaydalarına əməl etməklə qoyulmuşdur. Tədricən adət-ənənələr əmələ gəlmiş, böyüyən nəsildən onlara əməl etmək tələb olunmuşdur. Həyat tərzi inkişaf etdikcə qaydalar möhkəmlənib əxlaq normalarına çevrilmişdir.

İnsanlığın keçdiyi çox uzun və davamlı inkişaf prosesində sürü, qəbilə, tayfa qanunları daha kamil qanunlara çevrilmişdir. Bu, millət və xalqların meydana gəlməsi nəticəsində mümkün olmuşdur. Hər xalqın öz dünyabaxışından irəli gələn adət-ənənələr yaranmış,

əxlaqi dəyərlər formalaşmışdır.

Dünya xalqlarının əxlaqi baxışlarında ümumi cəhətlər çoxdur, amma özünəməxsusluq ümumilikdən üstündür. Yəni hər bir xalqın özünəməxsus əxlaqi baxışları var. Azərbaycan xalqı üçün əxlaq ilk növbədə ailə ilə bağlıdır; abır, həya, ismət deməkdir. Lakin bu anlam dar mənadadır. Əslində «əxlaq» məfhumunun içərisində daha geniş məna yerləşir. Yəni əxlaqlı adam həm də əməksevər olur və əməklə məşğul olmayıb tüfeyli həyat keçirən, başqalarının hesabına yaşayan adamlar da abırsız hesab olunur. Həmçinin, vətəninə xəyanət edən, ondan üz döndərən adamı həyalı saymaq olmaz; onları həm də əxlaqlı adam saymaq olmaz. Deməк, əxlaq – zəngin mənəviyyatın təzahürüdür. Mənəviyyatlı adamlar əxlaqlı hesab olunurlar. Elə bu səbəbdən də elmi pedaqogikada mənəvi tərbiyə ilə əxlaq tərbiyəsi eyni mənada qəbul olunur və qeyd edilir ki, mənəvi keyfiyyətlər insanın daxili məziyyətidir. O, həyatda tətbiq edilməklə əxlaqa çevrilir.

- **Azərbaycan xalq pedaqogikasında əxlaqi sifətlər və əxlaq normaları**

«Əxlaq» geniş məfhum olduğu üçün onun məna çalarları çox zəngindir. Yəni əxlaqın tərkib hissələri var. Xalqın pedaqoji baxışları yönündən bunlar aşağıdakılardır: rəftar qaydaları, əməksevərlik, insanpərvərlik, həmrəylik, dostluq və yoldaşlıq, vətənpərvərlik, mərdlik, düzlük və doğruçuluq, sadəlik və təvazökarlıq, halallıq və s.

**Rəftar qaydaları** xalqın ifadəsində «ədəb-ərkan» adlandırılır. Böyüməkdə olan nəslin mədəniyyət və mərifət sahibi olması üçün onlara lap körpəlikdən ədəb-ərkan qaydaları öyrədilməlidir. Bu gün də mədəni ailələrdə öyrədilir və gələcəkdə də öyrədiləcək. Azərbaycan xalqının ədəb-ərkan qaydaları dünyanın inkişaf etmiş ölkələrində qəbul edilmiş mədəniyyət etiketlərinə uyğun ən aristokrat qaydalardır. Elmi pedaqogika ədəb-ərkan qaydalarına mədəni davranış qaydaları və ya etika deyir. Qeyd edək ki, etika özü əxlaq haqqında elmdir.

Xalqımızın ədəb-ərkanla bağlı gənc nəsil qarşısında qoyduğu tələblər çoxdur. Onları qruplaşdırsaq, üç yerə ayıra bilərik:1. Həm oğlanlara, həm də qızlara şamil edilən qaydalar; 2. Yalnız qızlara şamil edilən qaydalar; 3. Oğlanlara şamil edilən qaydalar.

1. Xalqımızın pedaqoji baxışlarına görə, istər oğlan, istər qız özündən böyüklərə hörmət etməli, kiçiklərə qayğı göstərməlidir. Qızlar da, oğlanlar da onların zəhmətini çəkən hər bir şəxsin, öncə ata-ananın, nənə-babanın, müəllim və tərbiyəçilərin və s. adını

uca tutmalı, onlara hər zaman hörmət və ehtiram göstərməlidir. Oğlanlar da, qızlar da əməksevər, vətənpərvər, dostluq və yoldaşlıqda sədaqətli, insanpərvər, halal, əməlisaleh olmalıdır.

2. Qızların yerişində, gülüşündə, danışığında incəlik olmalıdır. Qız yeriyən zaman əzalarına əcaib hərəkətlər verməməli, ucadan gülməməli, astadan danışmalı, nitqində hər zaman gözəl sözlər işlətməli, ailəcanlı, evcanlı olmalıdır və s.

3. Oğlanlar qorxmaz, cəsur, ailəni dolandırmağa qabil, sözübütöv və s. keyfiyyətlərə sahib olmalıdır.

Əxlaqında bu keyfiyyətlər olan adamlar kamil adamlardır. Cəmiyyətin hər zaman belə insanlara ehtiyacı var. Nağıl və dastanlarımızda bu cür şəxsiyyətlərlə çox rastlaşırıq. Dədə Qorqud, Qazan xan, Bamsı Beyrək, Qanturalı, Koroğlu, Nəbi, Burla Xatun, Banuçiçək, Nigar xanım, Həcər belə şəxsiyyətlərdəndir.

Rəftar qaydaları ilə bağlı bir sıra incəliklər bu gün unudulmaqdadır. Halbuki gənc ailələrin hörmət-ehtiram bünövrəsi üzərində qurulmasında onların öz yeri vardır. Bu, təzə gəlinin düşdüyü evdə böyüklərə ad qoyması və ünsiyyətdə etik-estetik normaları gözləməsi idi. Məsələn, gəlin qayınatasına «ağa», «ağadadaş», qayınanasına «məmə», böyük qayınlarına «şahmirzə» və ya «gülmirzə», böyük qayınlarının həyat yoldaşlarına «böyükbacı», «şirinbacı», «xanbacı», «noğulbacı», baldızına «bacı» deyərdi. Evdəki kiçik qayın və baldız gəlini «gəlinbacı» və ya «gəlinsoltan» deyə çağırardı.

Gəlin qaynata, böyük qayın yanında qucağına uşaq götürməzdi, uşağa süd verməzdi. «Bəli», «xeyir»lə danışardı. Bu hörməti öz atasına da göstərərdi. Ümumən, böyüklər yanında övladını əzizləməz, «bala» deməzdi. Həmçinin düşdüyü evdə təzə gəlinə hörmət və ehtiram bəslənərdi.

Bəy oğlan da həm qızın ailəsi, həm də özününkülər qarşısında eyni tərzdə hərəkət edərdi.

Qızın özündən kiçik bacı-qardaşı bəy oğlana «dadaş» deyərdi.

Hətta müəyyən həyat təcrübəsi keçmiş ailələrdə valideynlərdən biri o birisi haqqında danışanda onun adını işlətməkdə həya məqamını gözlər, «O», «uşaqların atası», «uşaqların anası», «filankəsin oğlu», «filankəsin qızı» deyə işarə edərdi. Xanımlar yaşlı, mötəbər kişilər və naməhrəmlər (ailədən kənar kişi) yanında yaşmaq tutardı.

Söhbət zamanı biri digərinin sözünə müdaxilə etsə, əvvəlcə «sözünü balnan kəsim«, «sözünün qabağında balaların dursun«, «sözünü şadlıqlarda kəsim» deyib məsələyə öz münasibətini bildirər, fikir yürüdərdi.

Biri başqasına hansısa işin çəmini başa salmaq istədikdə, xətrə dəyməmək üçün «öyrətmək olmasın» deyib təşəbbüsünə əlyeri qoyardı.

Söhbət zamanı orada iştirak etməyən bir adam haqqında xoş söz söyləyəndə əvvəlcə deyərdilər: «sizdən (səndən) yaxşı olmasın»

Xoşagəlməz hadisədən danışanda «üzünüzdən iraq», «evdən uzaq», xəstəlikdən danışanda «üstünə sağlıq» deyərdilər.

Müsahibin dünyadan köçmüş yaxın adamını xatırlayanda «torpağı sanı yaşayasan (yaşayasız)», müsahibin iştirak etmədiyi məclisdən, təamdan danışanda «sizdən naxoş», «yeriniz məlum» ifadələrini işlədərdilər.

Rəftar və özünüidarə qaydaları ilə bağlı pedaqoji fikirlər müxtəlif folklor nümunələrində də yaşamaqdadır. Bəhlul Danəndə lətifələrindən birinə diqqət yetirək:

Danəndeyi Bəhlul tanımadığı bir kişi ilə yol yoldaşı olur. Kişi ulağına alma yükləyib bazara aparırmış. Bəhlul ona təklif edir ki, sən mənə bir alma ver, mən sənə bir söz öyrədim. Kişi almanı verir, Bəhlul da deyir ki, **bir adamla yoldaş olanda, onun adını, soyunu öyrən.** Kişi sözü eşidir və ürəyində deyir: «Hayıf almadan». Belə-belə Bəhlul ona öyrədir ki, **məclisdə yerini tanı əyləş, soruşmasalar danışma, səndən bir şey istəməsələr özünü ortalığa atma.** Hər dəfə kişi ürəyində deyir: «Hayıf almadan». Gəlib bir mənzilə çatanda Bəhlul kişidən ayrılır. Yol palçıq imiş; bu yerdə kişinin uzunqulağı batır. Dönüb kömək üçün Bəhlulu çağırmaq istəyir, amma adını bilimir deyə «ay kişi, ay kişi» deyib səslənir. Bu da dönüb baxmır. Axır handan-hana dönür; kişi deyir ki, səni çağırıram, niyə baxmırsan? Bəhlul da cavab verir ki, kişi nə çox; sənə öyrətdim ki, yol yoldaşının adını öyrən. Bu zaman axşamçağı imiş. Kişi Danəndədən xahiş edir ki, bu axşam onu evində qonaq saxlasın, gedəsi yeri yoxdur.

Danəndə həmişə qardaşı xəlifə Harun ər-Rəşidin məclislərində iştirak edirmiş. Təsadüfdən bu axşam da Xəlifənin məclisi varmış; Bəhlula xəbər göndərir, amma Bəhlul qonağı olduğunu söyləyir. Xəlifə tapşırır ki, qonağını da gətirsin.

Gedirlər.

Neynirsən, qapıdan girən kimi,  qonaq gedib əyləşir yuxarı başda, taxtın lap böyründə. Bəhlul pərtləşir; çünki o yer vəzirin idi. Bir azdan əyani-əşrəf gəlməyə başlayır; vəzir onun yerində oturmuş qonağa işarə edir ki, bir az aşağı çəkilsin. Qonaq çəkilir, vəkilin yerini tutur. Vəkil gələndə yenə həmin qayda ilə sürüşüb qoşun başçısının yerinə keçir. Növbə ilə münəccimin, şairin, daha nə bilim kimin yerinə sürüşə-sürüşə gəlib qapının ağzına çatır. Danəndə isə lap əvvəldən burada oturmuşdu və özünə hörmət etməyən qonağına baxaraq yanıb-yaxılırdı.

Bir azdan məclisə qarpız gətirirlər. Allahdan olan kimi, xidmətçi bıçağı unudubmuş. Soruşanda ki, bıçaq, qonaq tez sapı daş-qaşla işlənmiş bir bıçaq çıxarıb irəli uzadır. Xəlifənin gözü bıçağı tutur, vəzirə işarə edir. Vəzir işi anlayır. Bıçağı alıb o üzünə-bu üzünə baxır və deyir: Həzərat, xatirinizə gəlirmi neçə il bundan əvvəl xəzinəni yarmışdılar. O vaxtdan oğrunu axtarırdıq. Şükür ki, özü öz ayağı ilə gəlib çıxdı. Dəlil bu bıçaqdır.

Qonağın ayaq üstə canı çıxır; nitqi gedir, nəhəri gəlmir.

Bəhlul ağıllı adam idi; işin nə yerdə olduğunu gözəl bilirdi.  Odur ki, rüsxət alıb deyir: «Bu adam mənin qonağımdır. Onu səhərədək mənə zaminə verin». Deyirlər: «Aparıb öyrədəcəksən». Deyir: «Yox, öyrətməyəcəm».

Məclis dağılır, gəlirlər evə. Bəhlul ağacı götürüb yaxınlaşır uzunqulağa. Onu vura-vura deyir: «Sənə demədimmi məclisə gedəndə yerini tanı otur, dindirməsələr danışma, səndən bir şey istəməsələr yersiz özünü ortalığa atma? İndi eşit və agah ol, sabah səni öldürəcəklər. İttihamları dəf etmək üçün deyərsən: «Mənim atamı öldürüblər, bıçağı onun meyidinin üstündən tapmışam. Ta o vaxtdan özümlə gəzdirir, məclislərdə, yığıncaqlarda yeri düşəndə üzə çıxarıram; o niyyətlə ki, sahibi irəli çıxıb desin: «Bu bıçaq mənindir». Mən də atamın qatilinin kim olduğunu bılim. İndi budur, arzuma çatmışam, düşmənim tapılıb».

Səhər məhkəmə qurulur. Qonaq Danəndənin öyrətdiyi kimi danışır.

Xəlifə işin nə yerdə olduğunu başa düşür və gülür. Qardaşı Danəndənin ağlına afərin deyir və yerini bilməyən qonağı azad buraxır.

Əqli tərbiyədən danışanda ataların «Adamı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar» sözünü misal gətirdik. Bu sözdə geyimin həm də özünütəqdim, ünsiyyət, rəftar

elementi olması fikri var. Təsadüfi deyil ki, bir zamanlar istər kişi, istər qadın geyimləri xalqın əxlaq normalarına uyğun hazırlanardı. Bu gün yalnız rəqqas və rəqqasələrin, tarixi mövzulu tamaşa və filmlərdə aktyorların əynində gördüyümüz libasların dünyada misli yoxdur. O libaslarda millətin xanımyana və ağayanalığı təzahür edirdi.

Ünsiyyətin gözəlliyi səbəbindən ailələrdə birgəlik hökm sürürdü. Bəzən bir evdə bir neçə gəlin olurdu, nəvələr böyüyürdü. Lakin süfrə ayrılmırdı. Hamı bir-birinin qədrini bilirdi. Dar gündə hamı bir yerdə olurdu. Ona görə də insanların ömrü uzanırdı. Xeyir-bərəkət tükənmirdi.

Xalqımız mədəni davranış qaydaları ilə bağlı demişdir: «Özünə rəva görmədiyini başqasına da rəva görmə», «Özgəsinə quyu qazan özü düşər», «Zalıma rəhm etmək, məzluma zülm etməkdir», «Özünün bir inəkli olmağını istəyirsənsə, qonşunun iki inəkli olmasını arzula», «Yaxşılığa yamanlıq hər kişinin işıdir, yamanlığa yaxşılıq ər kişinin işidir» və s.

Əxlaq qaydalarını cəmiyyət özü tənzimləyir və onu pozanları məzəmmət edir.

Əxlaqın ən vacib dəyərlərindən biri **əməksevərlikdir.** Azərbaycan xalqı hər zaman əmək adamlarına böyük hörmət bəsləmiş və böyüməkdə olan nəsli əməyə məhəbbət ruhunda tərbiyə etməyə çalışmışdır. Külli-kainatda nə varsa, Günəş, Ay, ulduzlar, Yer kürəsi, nəbatat, heyvanat – hər şey hərəkətdədir. İnsanın hərəkəti əməklə bağlıdır. Əməkçi adamın əxlaqı saf olur. Şifahi xalq ədəbiyyatımızda bu həqiqət dönə-dönə isbat edilir. Atalar sözlərində isə bu barədə qəti hökmlər verilir: «İşləməyən dişləməz», «İş adamın cövhəridir», «Sağ əlin əməyi sol ələ haramdır», «Ağa kimi yaşamaq üçün nökər kimi işləmək lazımdır» və s.

Əxlaq tərbiyəsinin məzmununu təşkil edən nəcib keyfiyyətlərdən biri də **insanpərvərlikdir**. Bu ali keyfiyyət bütövlükdə Azərbaycan xalqının səciyyəvi xüsusiyyətlərindəndir və geniş anlayışdır. Elmi pedaqogikada bu barədə deyilir ki, qardaşa, bacıya, valideynə, övlada, qonşuya, qohuma, yurddaşa, digər xalqların nümayəndələrinə məhəbbət hissi bu anlayışa daxildir.

Xalqımız yaşından, vəzifəsindən asılı olmayaraq hər zaman hər bir şəxsə diqqətlə yanaşmış və böyüməkdə olan nəslə bu hissi aşılamışdır. İgid və güclü insanlar həmişə məzlumların, gücsüzlərin tərəfini tutmuşlar. Qonşularla mərifətli dolanmaq insanlığın əsas

şərtlərindən sayılmışdır. Nağıl və dastanlarımızda insanpərvər qəhrəmənlar çoxdur. Xalqımız hətta düşmənlə münasibətdə belə insanpərvərlik göstərərək tövsiyə etmişdir: «İgid basdığını kəsməz». İnsanpərvər adamlar dostluğa, yoldaşlığa meylli olurlar. Bu isə **həmrəylik** hissindən meydana gəlir. Həmrəylik hər bir xalq üçün olduqca vacib şərtdir. Həmrəyliyi zəif olan xalqlar həmişə rəqibə uduzmuşlar. Xalqımız bu barədə demişdir: «Tək əldən səs çıxmaz», «El bir olsa, dağ oynadar yerindən, güc bir olsa, zərbi kərən sındırar». Hamımızın yaxşı bildiyimiz «Yeddi nar çubuğu» nağılı xalqın həmrəyliyə, birgəyaşayışa çağırışının nümunəsidir. «El gücü, sel gücü», «Çörəyini tək yeyən yükünü tək qaldırar», «Az çoxa tabedir», «Birlik harda, dirilik orda» və s. atalar sözləri də bu qəbildəndir.

Əxlaq tərbiyəsinin məzmununda **yoldaşlıq və dostluq** münasıbətləri də ehtiva olunur**.** Xalqımız insanpərvərlikdən yaranan bu münasibətləri daim yüksək dəyərləndirmiş və ona ciddi tələblərlə yanaşmışdır. Şəxsin insanlıq keyfiyyətlərinin məhz yoldaşlıq məqamında üzə çıxdığını bilərək belə bir məsəl söyləmişdir: «Qardaşın kimdir? – Hələ yoldaş olmamışam». Dostluq yoldaşlıqdan başlanır. Yoldaşlıq sınaqlarından üzüağ çıxan adamlar dostluq edirlər. Belə dostluğu xalq yüksək qiymətləndirir və ona ürək dostluğu deyir. Lakin təmənnalı dostluq da var. Çörək dostu, yemək dostu, vəzifə dostu bu sıradadır. Bu niyyətlə dostluq etmək istəyənlər yaxşı adam deyillər. Ona görə də xalq demişdir: «Dost arası pak gərək», «Dost dosta tən gərək, tən olmasa gen gərək», «Dostun min olsa, azdır, düşmənin bir olsa, çoxdur». Amma həyat göstərir ki, əsl dost az olur. Yəni hər bir adam başqaları ilə səmimi və mehrıban dolanmalıdır. Lakin onların hamısı ilə dostluq mümkün deyil. Əsl dost ürəyə yaxın olandır.

Əxlaq tərbiyəsinin ən ali keyfiyyətlərindən biri **vətənpərvərlikdir.** Elmi pedaqoqikada deyilir ki, vətənpərvərlik öz elini, obasını, vətənini sevməkdə, onun inkişafına kömək etməkdə, vətəninin tarixini öyrənməkdə, sərhədlərini qorumaqda, lazım gələrsə, canını vətəninə qurban verməkdə, nümunəvi davranmaqda, yaxşı oxumaqda, vətəndən kənarda ona baş ucalığı gətirməkdə ifadə olunur. Xalq bu şərtləri elmi pedaqoqikadan yüz illərlə qabaq qiymətləndirmişdir. Şifahi xalq ədəbiyyatının əksər növlərində vətənə məhəbbət hissi təbliğ olunur. Bu məhəbbbət nağıl və dastanlarda obrazlı şəkildə, bayatılarda lirik hisslərlə, atalar sbzlərində hökm və məsləhət şəklində qeyd edilmişdir:

**Gül bəxti dönən qərib.**
**Qürbətdə ölən qərib**
**Bəxtəvər günə düşdü,**
**Vətənə dönən qərib.**

**Sözüm düşər dastana,**
**Bir ün salar hər yana.**
**Qürbət qoy sizə qalsın,**
**Mən gedirəm Şirvana.**

**Qürbətdə sana yetdim,**
**Təng olub cana yetdim.**
**Vətənə dönən günü**
**Dinə-imana yetdim.**

«Hər kəsə öz vətəni şirindir», «Vətənə gəldim, imana gəldim», «Vətən üçün əziləni vətən əzizlər», «Qürbət hara, qüdrət hara?», «Ana kimi yar olmaz, vətən kimi diyar», «Dağ yeri – duman yeri; yurd yeri – güman yeri» və s.

Xalqımız əxlaqi məziyyət olaraq **mərdliyi** çox yüksək dəyərləndirir və böyüməkdə olan nəsildən mərd olmağı tələb edir. «Mərd» sözünün hərfi mənası «kişi» deməkdir. Elə xalq müəyyən məqamlarda mərd adamlara həm də «kişi adam» deyir. Mərd adam ləkəsizdir, idealdır. Əlçatmaz zirvədir. Xalq onu öyərək deyir:

**Əzizim, kasad olmaz,**
**Mərd əli kasad olmaz.**
**Yüz namərdin çörəyin,**
**Doğrasan, kasa dolmaz.**

**İgid gərək atlana,**
**Atın minə, atlana**
**Mərd odur ki, döyüşdə,**
**Hər yaraya qatlana.**

Xalqımızın əsrlər boyu qoruyub saxladığı və yüksək qiymətləndirdiyi mənəvi keyfiyyətlərdən biri də **düzlük** və **doğruçuluqdur**. Düzlük, işlə, doğruçuluq sözlə bağlıdır. Adamın gördüyü iş düz, danışdığı söz həqiqət olmalıdır. Bu səbəbdən də onlar bir-bırini tamamlayır və birlikdə işlənirlər. «Sözün düzünü demək hünərdir», - böyüklər belə demişlər. Çünki düz söz acı olur. Amma nə qədər acı olsa da o, həqiqətdir və yalandan üstündür. «Doğruya zaval yoxdur», «Düz əyrini kəsir», «Yalançının evi yandı, heç kəs ona inanmadı», «Hiylə ilə iş görən, möhnət ilə can verər» və s.

Xalqımız hər zaman bu qənaətdə olmuşdur ki, düzlük və doğruçuluq kimi mənəvi

sərvət sahibləri ikiüzlülük, riyakarlıq, yalançılıq, əliəyrilik, oğurluq kimi rəzil xasiyyətlərdən uzaq olurlar. Ona görə də gənc nəslə daim düzlük və doğruçuluq ruhunda tərbiyə verilmək məqsədəmüvafiqdir.

Əxlaqi keyfiyyətlərdən biri olan **halallıq** barədə elmi pedaqogikada deyilir: «Halal yaşamaq, halal yolla ruzi qazanmaq mənəvi paklığın, təmiz əxlaqın zirvəsidir. Əmək və davranışda halallığı əsas götürən şəxs özü doğru, sözü düzgün, nəfsi təmiz, əməlləri düz, yalandan uzaq olan adamdır. Halallığı ilə fərqlənən şəxs ancaq xeyir görür. Halal adam ağır maddi şəraitdə yaşasa da haqqı nahaqqa satmır, haram yolla qazanca meyl göstərmir».

Halallığın gözəlliyi xalq pedaqoqikasında hər zaman təqdir olunmuşdur. Elmi pedaqoqikanın halallıq barədə verdiyi iza-hatları xalq qısa bir cümlədə ifadə etmiş və buyurmuşdur: «Halal incələr, üzülməz», «Haram hardan yoğnar (yoğunlaşar), ordan sınar».

Xalq arasında yüksək tutulan nəcib əxlaqi keyfiyyətlər sırasında sadəlik və təvazökarlıq, nəzakətlilik, ədəblilik, mərifətlilik, xeyirxahlılıq, səxavətlilik, əhdə sadiqlik, əmanətə xəyanət etməmək, haqqın tərəfində olmaq, müftəxorluğa, mənsəbpərəstliyə qarşı barışmazlığın da adını çəkə bilərik. Bu gözəl keyfiyyətlərin hamısını özündə toplamış insan kamil əxlaqlı insandır. Xalq belə insanlara hər zaman hörmət və ehtiram bəsləmişdir.

## Mövzu 12. Etnopedaqogikada insanpərvərlik, dostluq və yoldaşlıq haqqında xalq fikirləri.

### Plan

- **Nağıllarda xalq müdrikliyi**
- **Dastanlarda tərbiyə məsələləri**

### Ədəbiyyat


- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası.Bakı, 1993.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası (dərslik). Bakı, «Ünsiyyət»,2000.
- Ə.Həşimov, F.Sadıqov.Azərbaycan xalq pedaqogıkası antologiyasi. Bakı,1993.
- M.H.Təhmasib. Azərbaycan xalq dastanları. Bakı, «Elm», 1972.
- Ustad aşıqlar. Bakı, «Gənclik»,1983.

- Q.Namazov. Azərbaycan aşıq sənəti. Bakı, «Yazıçı», 1984.
- Kitabi-Dədə Qorqud. Bakı, «Gənclik», 1988.
- S.Paşayev. Azərbaycan folkloru və aşıq yaradcılığı. Bakı, 1989.
- S.Paşayev. Ozan aşıq səntinin nəzəri məsələləri. Bakı, 2002.
- Xalq ədəbiyyatından seçmələr. Bakı, «Şərq-Qərb», 2005

- **Nağıllarda xalq müdrikliyi.** Nağıl şifahi xalq ədəbiyyatının ən qədim növüdür və dünya xalqlarının folklorunda mövcuddur. Nağıllar xalqın məişətini təsvir, arzularını tərənnüm edən yaradıcılıq nümunələridir. Yazıb- oxumaq mövcud olmayan, olsa da hər kəsə nəsib olmayan dövrlərdə danışanın- nağıl edənin dilindən eşıdılib öyrənildiyinə görə o, belə adlandırılmışdır: nağıl. Nağıllar tarixi yol keçmişdir; radio, televiziya və mətbuatın olmadığı bir vaxtda istər uşaqların, istərsə də böyüklərin asudə vaxtının maraqlı keçməsinə vasitə olmuşdur. Nağıl hər zaman yaranmışdır; bu gün də yaranmaqdadır. İndi imzalı nağıllar da mövcuddur. Nağıllardan məqsəd insanın ruhuna sığal çəkmək, ona ali keyfiyyətlər aşılamaq, ağlını, zehnini, mənəviyyatını inkışaf etdirməkdir.

Şəxsiyyətin yetişib formalaşmasına təsiri baxımından müxtəlif yaş dövrlərini əhatə edən nağıllar var. Azərbaycan folklorunda kiçik yaş dövründən başlamış ilkin yeniyetməlik və ondan sonra gələn dövrlər üçün istənilən qədər nağıllar mövcuddur. Bir qayda olaraq nağıllarda xeyir və şər qüvvələr üz-üzə dayanır. Şər qüvvələrin əsas obrazları divlər, əjdahalar, sehrli qüvvələr, zalım hökmdarlar, pis duyğularla yaşayan mənəviyyatsız adamlar olur. Xeyir qüvvələri ağıllı, cəsarətli, mərd, sədaqətli, sözübütöv, əməlisaleh insanlar təmsil edir. Şərə qalib gələndə bu keyfiyyətlər onlara kömək göstərir. Bəzi nağıllarda əfsanəvi Simurq quşu da qəhrəmanların dadına yetir. Və bir qayda olaraq haqq nahaqqa qalib gəlir.

Nağıllar ideya istiqamətinə görə sehrli, heyvanlar haqqında, tarixi və məişət mövzulu olur; həcmcə dastandan kiçikdir. Adətən “Biri vardı, biri yoxdu, Allahdan başqa bir kimsə yoxdu” sözləri ilə, sehrli nağıllar isə əksərən zəncirləmə ilə başlanır. Zəncirləmə mübaliğəli düzgüdür; dinləyənlərin diqqətini daha yaxşı cəlb etmək üçün söylənilir, prosesə əhval-ruhiyyə qatır.

Şəxsiyyəti kiçik yaşlarından “xeyir fikir, xeyir söz, xeyir əməl” ruhunda tərbiyə etmək

üçün nağıllar olduqca faydalıdır. Xalq müdrikliyi bu işdə heyvan obrazlarından da uğurla istıfadə edir. Bəzən heyvanlar həyatdakı xüsusiyyətlərinə uyğun şəkildə rəmzləşir; tülkü hiyləgərlik, çaqqal xəyanət, dovşan gücsüzlük, keçi şıltaqlıq, aslan güc, qüvvət, xoruz zirəklik, göyərçin müjdə, it etibar rəmzi kimi işlənir. Belə nağıllar uşaqların xoşuna gəlir, həm də həyati biliklərini artırır, heyvanların xüsusiyyətlərini, yaşam tərzini öyrənirlər.

Nağıl yaradan müdrik insanlar yaş dövrlərini bütün incəlikləri ilə nəzərə almışdır. Elmi pedaqogikanın təbiri lə desək, məkrəbəqədər yaş dövrünün kiçik, orta və məktəbə hazırlıq mərhələlərinə müvafiq olaraq süjet ən sadədən nisbətən mürəkkəbə doğru inkişaf edir. Əhvalatlarda alleqorik obrazların (heyvanların) iştirakı mütləqdir.

«Şəngülüm, Şüngülüm, Məngülüm», «Getdin gördün», «Göyçək Fatma», «Cırtdan», «Tülkü və kəklik», «Qurd və qoca», «Çaqqal və xoruz», «Şah və xoruz», «Pıspısa xanım və Siçan Sulub bəy» «Şir və siçan», «Siçan və pişik» və s. məktəbəqədər dövrün xarakerik nağıllarıdır.

Nağıllar uşaq dünyasına romantik ab-hava gətirir, onların təxəyyülünü inkişaf etdirir, mənəviyyatını zənginləşdirir və sonda xeyirin şəri üstələnməsi ürəklərincə olur. Nağılı dinlərkən belə olmasını bəzən özləri də tələb edirlər. Çünki həyatı eybəcərliklərdən azad, gözəlliklərlə süslənmiş görmək kiçicik qəlblərinin arzusudur.

Yaş dövrlərindən danışarkən qeyd etmişik ki, xalq bu barədə konkret rəqəm göstərmir. Professor Əliheydər Həşımov nağıl və dastanlardakı təsvirlərə əsasən ümumıləşdirmə apararaq yeddi yaşadək olan müddəti uşaqlıq dövrü adlandırmışdır. Yeddidən on dörd-on beş yaşadək aylar, illər ötür, uşaq həddi-buluğa yetişir.

Bu yaş dövrünün nağıllarında süjet bir qədər mürəkkəbləşir. Əgər kiçik yaşda uşaqlara düzlük, doğruçuluq, mərdlik, mübarizlik, şərə nifrət ruhu aşılanırdısa, bu dövrün nağıllarında artıq çağırış var. Düşüncə və hərəkət tələb olunur. Qəhrəman öz idealı uğrunda mübarizəyə qoşulur, hökmən qalib gəlir; bəzi süjetlərdə sevdalı anlar yaşanır.

Nağıllar sehrli, məişət və tarixi mövzulu olmaqla üç qrupa ayrılır. Amma fərqi yoxdur, hamısında qəhrəmandan ağıl, fərasət, bilik, bacarıq, güc, qüvvət, sərvaxtlıq, mərdlik, mübarizlik, halallıq tələb olunur.

«Məlik Məmməd», «Şahzadə Mütalib», «Sehrli üzük», «Yetim İbrahimin nağılı», «Dərzi şagirdi Əhməd», «Daşdəmirin nağılı», «Bostançı və Şah Abbas», «Abbas və

Gülgəz», «Baftaçı Şah Abbas» və s. dediklərinizə misaldır.

Gənclik dövrünə çatınca nağıllarda süjet mürəkkəbləşir, həm məzmun, həm də həcm genişlənir və dastanlara yön alınır. Nağıl "göydən üç alma düşdü" ifadəsi və daha bir neçə sözlə tamamlanır.

- **Dastanlarda tərbiyə məsələləri**

Aşıq yaradıcılığının ən böyük qolu dastanlardır. O həm də xalq müdrikliyinin iri həcmli əsərlərdə təzahürüdür. Dastan ustadnamə ilə başlayıb əhvalatların təsviri ilə davam edir və duvaqqapma, cahannamə, yaxud vücudnamə ilə yekunlaşır. Dastanlar adamlarda xeyirxahlıq, mərdlik, düzlük, doğruçuluq, halallıq, əhdə sədaqət, bahadırlıq, ləyaqət və digər yüksək insani keyfiyyətlər yaratmağa xidmət edir. Dastan müdrik insanların həyat təcrübəsindən yaranmış, sazın-sözün müşayiəti ilə gələcək nəsillərə çatdırılan ibrətamiz bədii əsərdir. Dastanda şeir, nəsr və musiqi bir-biri ilə vəhdətdədir; bu da onu söyləyən ustadın-aşığın məclis əhlini yormadan onların ruhuna, mənəviyyatına sirayət etməsi üsün mərhələli təhkiyə yoludur.

Qəhrəmanlıq dastanlarında vətən, el-oba, haqq-ədalət yolunda göstərilən şücaət təsvir və təbliğ olunur.Əsərin qəhrəmanı ən çətin məqamlardan qalib çıxır, kimsəsizə əl tutur, gücsüzə kömək edir, namərdə qulaqburması verir; mənsub olduğu soyun idealına çevrilir. «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi», «Qaçaq Kərəm», «Səttarxan» və s. qəhrəmanlıq dastanlarıdır.

«Kitabi-Dədə Qorqud»un Qazan xan, Bamsı Beyrək, Qanturalı, Qaragünə, Qarabudaq, Yeynək, Dəli Dondaz, Burla xatun, Uruz, Buğac, Şir Şəmsəddin, Bəkdüz Əmən, Alp Ərən, Qaraca Çoban kimi qəhrəmanları var. Onların hər birinin və həmin sıradan Qazan xan ailəsinin tərbiyəvi gücü ölçüyəgəlməzdir. Dastanın bir neçə boyunda oxucu bu ailənin həyat yolunu izləyir.

Evinin yağmalandığı boyda Qazan xan qoca anası yolunda övladını, ailəsini, mal-mülkünü savaşsız qurban verməyə hazırlığı ilə qəhrəmandır; çünki vuruş düşərsə, övlad üzərindəki haqqı Yaradanın haqqına bərabər olan, fəqət gücsüz, qüvvətsiz qarıcıq anaya xətər gələ bilər.

Uruz ölməyə, ətindən qara qovurma bişirilməyə hazırlığı ilə qəhrəmandır; çünki qorxaqlıq edərsə, atasının şərəfinə ləkə düşər.

Burla xatun övladının ətindən bişmiş qara qovurmanı yeməyə hazırlığı ilə qəhrəmandır; çünki namuslu həyat hər şeydən üstündür; yeməsə, tanınar, özü və ailəsi alçalar.

Onun ətrafındakı qırx incə belli qız ölümü qəbul etməklə qəhrəmandır; çünki dostu, əzizi, sirdaşı Burla xatunu ələ verməklə kiçilər, insanlıq simasını itirər.

Bu ailənin xidməti işçisi Qaraca Çoban iki qardaşını şəhid verməklə, əli-qolu ağaca sarınmış halda düşmən üzərinə yeriməklə qəhrəmandır; çünki fikri və mənəvi gücü yetdiyi halda haqqın, ədalətin harayına çatmamaq onu qeyrət məqamından kənarda qoyar, şəninə ləkə düşər.

«Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy»da Qazan bəy on altı yaşına çatmamış, fəqət bir dəfə də yay çəkib ox atmamış, baş kəsib qan tökməmiş oğlu Uruzun gələcəyini düşünib narahat olur. Qorxur ki, sabah dünyadan köçsə, oğlunun fərsizliyi üzündən taxt-tacı özgələrə qala və oğluna tənə edir. Oğlu da atasına irad tutur ki, bu vaxtadək onu bərkə-boşa salmayıb.

Qazan bəy iradı qəbul edir. Başının dəstəsilə bərabər, Uruzu götürüb yeddi günlük ova gedir. Səfər uğurlu keçir. Qazan ov ovladığı, quş quşladığı, baş kəsib qan tökdüyü yerləri oğluna göstərir, təlim verir. Çəmənlikdə çadır qurub yeyib- içirlər. Sən demə kafirin casusu onları güdürmüş; böyüklərinə xəbər verir və minlərlə kafir ata süvar olub Qazana hücuma keçir.

Vaqeədən xəbərdar olanda Qazan bəy Uruza hərb qanunları ilə bağlı bir neçə bilgi verir. Lakin oğlan can atsa da, təcrübəsizliyini örnək gətirərək onu savaş meydanına qoymur. «Yaman yerdə ayağıma buxov oldun!»-deyib tövsiyə edir ki, başının qırx igidini də götürüb dağ başna çəkilsin; oradan baxıb döyüş qaydalarını öyrənsin.

O vaxt övladlar valideynin bir sözünü iki etməzdilər. Uruz atasına qulaq asır, döyüşü müşahidə etdikdə isə dözmür. Başının igidləri ilə birgə düşmənə hücum edir. Şüsaət göstərir, kafirin bir cinahını basır. Lakin atının yaralanıb yıxılması səbəbindən əsir düşür.

Qazan bəyin bundan xəbəri olmur. Düşmən basıldıqdan sonra oğlunu yerində tapmır, qorxub evə qaçdığını düşünür. Onu altı parça edib altı yol ayrıcına atacağına and içir və qəzəblə evə dönür.

Burla xatunun onu qarşılamasından başa düşür ki, zənnində yanılıb, Uruz yoxdur.

Bağrı qan olmuş ananı aldadır. «Oğlun ovdadır»- deyir. Özlüyündə isə yəqin edir ki, Uruz əsirdir. Yubanmadan gəldiyi yolu alıb geri qayıdır. Axtarıb düşmənin düşərgəsini tapır və təkbaşına döyüşə başlayır.

Ardınca Burla xatun, onun ardınca oğuz igidləri atlarını çaparaq özlərini yetirirlər. Əllərindəki polad qılıncla düşməni sağdan-soldan qırıb diz çökdürür, Uruzu xilas edirlər.

Boyda qəhrəmanlığın təsviri ilə qəhrəmanlığa çağırış ideyası süjet boyunca paralel irəliləyir. Övlad tərbiyəsi məsələsində isə daha çox qabardılır. Dastanı söyləyən onu dinləyənlərin hər birinə döyüş şücaəti, qəhrəmanlıq ruhu aşılamağa çalışır. Elə igidlərin fəxarət dolu təqdimatındakı pedaqoji güc bir məktəbə bərabərdir:

«Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eləyən, bığını boynunun dalında yeddi dəfə düyünləyən, igidlər igidi Qazan bəyin qardaşı Qaragünə…

Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutamlıq böyük nizənin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondaz…

Amidlə Mərdin qalasını vurub yıxan, dəmir yaylı Qıpçaq Məlikə qan qusduran, gələrək Qazanın qızını mərdliklə alan, oğuzun ağsaqqallı qocaları görəndə o igidə «əhsən» deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq…

İcazəsiz Bayandır xanın düşmənini basan, altmış min kafirə qan qusduran, ağ-boz atının yalı üzərində qar yığılan Qəflət Qoca oğlu Şir Şəmsəddin…

Parasarın Bayburd hasarından sıçrayıb aşan, al rəngli gəlin otağına qarşı gələn, yeddi qızın ümidi, Qalın Oğuzun müjdəçisi, Qazan bəyin silahdaşı, Boz ayğırlı Beyrək…

Gedib Peyğəmbərin üzünü görən, gələrək oğuzlar içində ona tərəfdar çıxan acığı tutanda bığlarından qan çıxan, bığı qanlı Bəkdüz Əmən…

Kafiri it ardına qoşub alçaldan, eldən çıxıb Ayğırgözlü suyunda at üzdürən,əlli yeddi qalanın açarını alan, Ağ Məliyin Çeşmə qızına evlənən Sufi Sandal Məlikə qan qusduran… İlək qoca oğlu Alp Ərən…»

Qılınca qurşanıb oğlunun, ərinin harayına tələsməsi ilə Burla xatun da igid timsalındadır. Düşmənin bayrağını qılınclayıb yerə salması isə göstərir ki, o həm də siyasi təfəkkür sahibidir.

Dastandakı xanımların həyat tərzləri, dünyabaxışları «Aslanın erkəyi-dişisi olmaz»

müddəasının nədən qaynaqlandığını və nə üçün yarandığını sübuta yetirir; tərbiyəvi təsiri də şəksizdir.

Məhəbbət və ailə-məişət mövzulu dastanlar yüksək mənəviyyat, milli kökdən gələn ədəb-ərkan, əxlaq, ailə qanunlarına hörmət, ailəyə bağlılıq təlqin edir. «Abbas və Gülgəz», «Aşıq Qərib», «Əsli və Kərəm», «Şah İsmayıl», «Tahir-Zöhrə», və s. dastanlar buna misaldır. Bu qism dastanlarda ictimai və ailə-məişət məsələləri məhəbbət macəraları fonunda cərəyan edir. Qızlar ismətli, həyalı, gözəl, oğlanlar isə cəsur, igid, mərd, ağıllı olurlar. Onların mənəvi dünyası dastanı oxuyan, dinləyən kəslərin ruhuna sirayət edir.

Dastanlar sonda duvaqqapma, yaxud vücudnamə ilə tamamlanır ki, burada da böyük tərbiyəvi əhəmiyyət var. Çün-ki dünyanın vəfasızlığı diqqətə çəkilir, həyat haqqında fəlsəfi düşüncələr söylənir və yenə də insanlar mənəviyyat aləminə səslənir. Məsələn, "Dədə Qorqud" dastanlarından aşağıdakı misralara diqqət yetirək:

**Hanı o tərifli bəy ərənlər,**
**Dünya mənimdir deyənlər?**
**Əcəl aldı, yer gizlətdi,**
**Fani dünya kimə qaldı?**
**Gəlimli-gedimli dünya!**
**Son ucu ölümlü dünya!**
**Ölüm gəldikdə səni təmiz imandan ayırmasın!**
**Allah səni namərdə möhtac etməsin.**
**Beş kəlmə dua etdin qəbul olunsun**
**«Amin! Amin!» deyənlərin üzünü görəsən!**
**Günahınızı adı gözəl Məhəmməd Mustafaya**
**bağışlasın, xanım, hey!**

Ümumən, dastanlar şifahi xalq ədəbiyyatı və aşıq yaradıcılığının ən böyük qolu olmaqla hərtərəfli tərbiyəvi təsir gücünə malikdir.

**Mövzu 13. Etnopedaqogikada estetik tərbiyə məsələləri.**

**Plan**

- **Xalqın estetik dəyərlər barədə qənaətləri**
- **Davranış, məişət və geyim gözəlliyi haqqında xalq fikirləri**
- **Xalq incəsənətinin növləri və əmək prosesi ilə vəhdət tapmaqla estetik tərbiyədə onların rolu**
- **Xalq pedaqogikası materiallarında təbiət gözəllikləri**

**Ədəbiyyat**


Ə.Həşimov, F.Sadıqov.Azərbaycan xalq pedaqogikası. Bakı, «Patronat». 1993.

- Ə.Həşimov,F.Sadıqov.Azərbaycan xalq pedaqogikası antologiyası. Bakı,1993.
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif». 1996.
- A.Nəbiyev. Nəğmələr, inanclar, alqışlar. Bakı, «Yazıçı». 1986.

- Atalar sözləri (Toplayanı Ə.Hüseynzadə). Bakı, 1985.
- Müdrik sözlər. Bakı, «Yazıçı», 1979.
- Ə.Bədəlova. Ədəb-ərkan dünyamız. «Azərbaycan gənc-ləri» qəzeti. 4 fevral 1992.
- Ə.Bədəlova. Əsilzadələr dastanı. «Azərbaycan dili və ədəbiyyat tədrisi» jurnalı, 2000, №3
- Azərbaycan xalq ədəbiyyatından seçmələr.Bakı, «Şərq-Qərb».2005.
- Uşaq folkloru. Bakı, «Altun kitab». 2007.


- **Xalqın estetik dəyərlər bərədə qənaətləri.** Azərbaycan xalqı öz milli mənşəyinə və tarixi köklərinə görə yüksək estetik dəyərlər əsasında formalaşmışdır. Estetik dəyərlər xalqımız üçün bütün dəyərlərdən önəmli olmuş və bütün dəyərlərin içərisində xalq həmişə estetik ideal axtarmışdır. Ona görə də tərbiyənin tərkib hissələrindən hər hansı olur-olsun onun özəyində estetik ideal dayanır. Yəni Azərbaycan xalqı üçün əmək tərbiyəsinin öz estetikası, fiziki tərbiyənin bir başqa estetikası mövcuddur; eləcə də digər tərbiyə istiqamətlərinin. Bundan əlavə, xalqın estetik dəyərlərə münasibəti zahiri səciyyə daşımır, yəni zahiri gözəllik onun üçün həlledici deyil. Hər şeyin mahiyyətində, məzmununda, cövhərində dayanan gözəllik daha önəmlıdir. «Şəxsiyyətin formalaşmasına dair xalq fikirləri» mövzusunu keçərkən nümunə gətirdiyimiz «Çirkin al, əsil olsun, bədəsil gözəl alma» məntiqinə söykənən bayatı, həmçinin «Az olsun, yaxşı olsun» atalar sözü dediklərimizə misal ola bilər.

Lakin bu o deməк deyil ki, Azərbaycan xalqının gözəlliyə münasibəti birtərəflidir. Qətiyyən. «İnsanda hər şey gözəl olmalıdır» tezisi xalqımız üçün də önəmlidir. O, zahiri və daxili effektlərin vəhdətini bir tam olaraq qiymətləndirmişdir. Amma daxili məzmun olmayan yerdə zahiri görünüşün aldadıcılığı fikri bütün söz incilərində təsbit olunmuşdur. Hətta belə hallları çox kəskin şəkildə qamçılamışdr: "Çölü bəzək, içi təzək», «Çölü cənnət, içi cəhənnəm». Elmi pedaqogikada olduğu kimi, xalq pedaqogikasında da insani münasibətlər incəsənət  əsərləri, əmək, təbiət, və digər gözəllik amilləri estetik tərbiyənin mənbələridir.

- **Davranış, məişət və geyim gözəlliyi haqqında xalq fikirləri.** Hər bir xalqın rəftar, davranış qaydaları, geyim tərzi onun mənəvi dünyası və həyati baxışlarının ilk görünüşdən

təqdimatıdır. Xalqımız bu yöndən orijinallığı ilə seçilir. Yəni bütün dövrlərdə ictimai mövqeyindən asılı olmayaraq hər kəsin övladına verdiyi tərbiyədə əsilzadələrə məxsus tələblər üstünlük təşkil etmişdir. Ona görə də ata-oğul, övlad-ana, qohum-əqraba, qardaş-bacı, xan, bəy-rəiyyət münasibətlərindəki gözəllik əsrlər boyu yaşamış və öz milli kökünü unutmayan ailələlərdə bu gün də yaşamaqdadır.

Əxlaq tərbiyəsindən danışarkən dedik ki, xalqın pedaqogikasında qızların tərbiyəsinə xüsusi diqqət verilmişdir. Onların və bütövlükdə hər kəsin ünsiyyət mədəniyyətinə aşağıdakı tələblərlə yanaşılmışdır:

- Qızlar və xanımlar danışarkən ən zərif, ən mədəni sözlər işlətməlidirlər;
- Qızlar və xanımlar hündür səslə danışmamalıdırlar;
- Qızlar və xanımlara hündürdən gülmək ayıbdır, mədəniyyətsizlik sayılır;
- Danışan şəxs müsahibinə «eşitmirsiz?»,«görmürsüz?», «başa düşürsüz?» kimi ifadələrlə müraciət etməməlidir, müqabil tərəf üçün təhqirdir;
- Qızlar və xanımlar müsahibinə «əcəb edirəm» deməməlidir, ayıbdır;
- Qız oldu, qadın oldu, az danışmağı məsləhətdir.
- Adam arasında gərnəşmək, ucadan əsnəmək ədəbsizlikdir;
- Özündən böyük oldu, yaxud kiçik rast gələndə çalış ki, birinci sən salam verəsən; qarşındakı səndən böyükdürsə, mərifətini yerinə yetirirsən, kiçikdirsə, ona tərbiyə verirsən;
- Həmsöhbətin sözünü kəsib sual vermək hörmətsizlikdir. Bəlkə, o fikrini elə tamamlayacaq ki, ürəyində tutduğun sualların hamısına cavab verəcək; əgər verməzsə, axırda soruşmaq olar. Bizdən böyüklər demişlər: «Dinləməyi öyrən ki, danışmağı bacarasan».
- Danışanda, yaxud dinləyəndə həmsöhbətinin üzünə baxmaq hörmətdəndir;
- Birisi sənə kobud söz desə, mərifətlə cavab ver; elədə o daha tez xəcil olar;
- Danışanda sözlərin çalarına diqqət yetirmək lazımdır, çünki bəzi sözlər pis olmasa da müəyyən məqamlarda pis səslənir.
- Oğlanlar xanımlara yüksək diqqətlə yanaşmalı, onların təəssübünü və qeyrətini çəkməlidir. Qızların və qadınların yanında söyüş söymək, qaba hərəktlərə yol vermək olmaz.

- “Bəli”, “Xeyr”lə danışmaq ədəb-ərkan əlamətidir.

Salam verib salam alamaq, bir-birinin süfrəsində halal çörək kəsmək, ağsaqqal öyüdünə qulaq asmaq, danışanda sözünün yerini bilmək, özündən gücsüzə mərhəmət göstərmək də ünsiyyət estetikasına daxildir.

Bir zamanlar insanları geyimindən tanıyıb hansı xalqdan, millətdən, yaxud zümrədən olduğunu müəyyənləşdirmək olurdu. Eləcə də zərgərlik, yaxud memarlıq nümunələri öz EStetik dəyərləri və zahiri görünüşü ilə milli mənsubluğunu «deyirdi».

Hazırda dünyanı həyəcanlı bir proses öz çənginə almışdır: qloballaşma. Amma həyəcan bu gün başlasa, şüurlara kütləvi surətdə bu gün yerisə də, o çoxdan həyata keçir; yer üzünün əksər xalqları, o cümlədən biz milli libaslarımızı geymir, evlərimizi milli üslubda bəzəmir, xeyir – şər məclislərimizi milli dəyərlər əsasında qurmuruq. İstər şəhər, istərsə də kənd memarlığında yad elementlər qabarıq görünməkdədir.

Mübaliğəsiz demək olar ki, Azərbaycanın milli geyimləri dünyanın ən gözəl libaslarındandır. Əvvəldə dediyimiz kimi, indi onları yalnız rəqqas və rəqqasələrin, tarixi mövzulu tamaşa və filmlərdə aktyorların əynində görürük. O libaslarda millətin xanımyana və ağayanalığı təzahür edirdi. O libaslar ailədə və cəmiyyətdə qarşılıqlı ünsiyyət tərzini tamamlayan mədəniyyət atributu idi. Onlar zərif bəzək və zərgərlik elementləri ilə süslənərək qızlara incəlik, oğlanlara mərdlik və cəngavərlik, qadınlara xanımlıq, kişilərə müdriklik əhvalı bəxş edirdi. Bu isə geyim estetikasına xalqın pedaqoji baxışları demək idi. «Gözəllik ondur, doqquzu dondur» deyərkən müdriklərimiz yəqin ki, geyimdə ləyaqətin təzahürünü nəzərdə tutmuşlar. Xalqımız geyimin bütün ünsürlərində, hətta hamam başmaqlarının yerdən dörd barmaq hündür olmasında estetik (gigiyenik) meyarlara önəm vermişdir.

● **Xalq incəsənətinin növləri və əmək prosesi ilə vəhdət tapmaqla estetik tərbiyədə onların rolu.** Gözəl libaslar geyinib ağ ban evlərdə yaşayan Azərbaycan xalqının estetik tərbiyəsində muğamlar, xalq mahnı və rəqsləri, oyunlar, tamaşalar, bayramlar, adət-ənənələr, sənətlər və sənətkarlıq işləri, memarlıq nümunələri müstəsna rol oynamış və oynamaqdadır.

Muğam dünya musiqisinin şah əsəri, Quran avazı, həyat fəlsəfəsidir. Şükranlıqla

demək lazımdır ki, muğamlarımızı günümüzədək qoruyub yaşatmış, yad nəfəslərdən himayə etmişik. Bu gün onun kənar musiqilərlə sintezinə can atanlar var. Lakin bu, sənət deyil, qloballaşmanın acı təzahürüdür. Əsl musiqi xalqımızın nəzərində güclü tərbiyə vasitəsi olmuşdur. Onunla təkcə estetik deyil, həm də mənəvi, əmək, fiziki tərbiyə işini səmərəli qurmuşlar. Məsələn, güləş yarışları bir qayda olaraq cəngi sədaları altında keçirilmişdir. İndi də milli güləş yarışlarında həmin ənənə yaşamaqdadır və kökü çox qədimlərə – qopuz dövrünə gedib çıxır. Təsviri «Dədə Qorqud», «Koroğlu» və digər dastanlarda var.

Xalqımız əmək prosesini musiqi və şeir vasitəsi ilə zövq mənbəyinə çevirmişdir. Əvvəldə qeyd etdiyimiz xalçaçı, ipəkçi, çoban, balıqçı, sağıcı nəğmələri, holovarlar, sayaçı sözlər buna misaldır və təkcə «Çoban bayatı»nın adını çəkmək fikri tamamlamaq üçün yetər.

Estetik tərbiyə vasitələri içərisində xalq incəsənəti nümunəsi olmaqla, «Kilimarası», «Maral oyunu» kimi meydan tamaşalarını və məzhəkələri, o cümlədən Novruzda Keçəl və Kosa səhnələrini yada salmaqla yanaşı, mərhələ-mərhələ irəliləyən çərşənbələrdən (Su, Od, Torpaq, Yel), təmizlik işlərindən, bayram bişmişlərindən, səmənilərdən, xonçalardan, süfrələrdən, şam və atəşfəşanlıqlardan, küsülülərin barışmasından, ünsiyyətdən, şadyanalıqdan danışmAmaq olmaz.

Yer üzündə insanlar, bitki örtüyü və canlılar aləmi deyilən nə varsa, hamısı dörd ünsürdən yaranmışdır: Su, Od, Torpaq, Yel. Onlardan biri pozulsa, həyat dayanar. Hər il zaman dövr edib, «qocalıb» qışın sonuna çatanda oyanma, yeniləşmə, dirçəliş başlanır.

Əvvəlcə Su oyanır. Çayların, bulaqların səsi aləmi götürür. Bu o deməkdir ki, yaranmışların hamısının canında su oyandı.

İkinci Od oyanır. Yəni, yaranmışların hamısının canında xəfif hərarət başlanır. Həmin gün havanın günəşli, yaxud buludlu, soyuq olmasının dəxli yoxdur. Bu, İlahi hökmdür və hər bir hüceyrənin canında, nüvəsində baş verir.

Üçüncü Torpaq oyanır. Yerdən buxar qalxmağa başlayır. O, nəfəs alır.

Dördüncü Yel oyanır. Həmin gün havanın küləkli, yaxud küləksiz olması əhəmiyyət daşımır. Çünki o, adi yel, külək deyil, ölülərə can verən nəfəsdir. Üç mərhələdə tədriclə özünə gələnləri tam hərəkətə gətirən nəsimdir.

Elə Novruz sözünün mənası da Yeni gün deməkdir.

İnsan iradəsindən kənarda baş verən və misli-bərabəri olmayan bu gözəlliyə sevinməmək, onu qeyd etməmək mümkün deyil.

El arasında «Novruz ayı qırx gündür» deyirlər. Onun bir ayı çərşənbələr dövrünə-hazırlığa, on günü bayramdan sonrakı təntənələrə düşür.

Çərşənbələr ev-eşiyin, həyət-bacanın təmizlənməsinə, nemətlərin tədarük edilməsinə, səmənilər göyərdilməsinə, təzə pal-paltar alınmasına görə bayrama hazırlıqdırsa, həm də ayrılıqda hər biri kiçik bayramdır.

Novruz çərşənbələri quru nemətlərdən, sonuncu çərşənbədə həm də bayram bişmişlərindən tutulmuş xonçalar, şamlar, tonqallar, atəşfəşanlıqlar, sübh obaşdan evə çərşənbə suyunun gətirilməsi və axırıncı çərşənbədə ürəyində əhdi olanların qulaq falına çıxması ilə səciyyələnir. Bunların da hər birinin yozumu var.

Axşam alatoranlığında tonqalın yandırılmasına böyüklər icazə verir, amma sevinci kiçiklərindir. Belə bir inam var ki, bu tonqallar üzərindən adlayan hər kəsin dərdi, bəlası, xəstəliyi, uğursuzluğu yanıb heç olur. Yetər ki, adlayarkən dilək diləsin: **Ağırlığım–uğurluğum odlara;** yaxud: **Ağırlığım–uğurluğum burda qalsın;** yaxud: **Ağırlığım–uğurluğum mərdimazara.**

Çərşənbə suyunun pislikləri yuyub aparmaq, evin künc–bucağına səpilərsə, «qurdu – quşu» öldürmək qüdrəti var. Çərşənbə günlərində sübh əzanı vaxtı qız–gəlinlərin güyüm, səhəng götürüb bulağa tələsməsi, yuyunub–arınıb dilək diləməsi, su gətirib evdəkilərə paylaması, həyət–bacaya, ev– eşiyə çiləməsi həm mənəvi, həm də fiziki sağlamlığa rəvac timsalındadır.

Çərşənbə axşamlarında, xüsusən ilaxır–Yel çərşənbəsi axşamı evlərdə ancaq xoş sözlər danışılması Novruzun gözəl adətlərindəndir. Çünki müşkül işi, yaxud arzusu olan qohum–qonşu ürəyində niyyət tutub xəlvətcə qapını pusa bilər. Sınaqlardan çıxmış inancdır, o , xoş söz eşitsə, niyyəti yerinə yetir.

Dörd çərşənbənin təntənəsi bayram axşamı kulminasiya nöqtəsinə çatır. Səməni, xörəklərin şahı plov, Novruz təamı şəkərbura, paxlava, qoğal, qovurğa, mer–meyvə və çərəzlərlə, ailə üzvlərinin sayı qədər şamlarla bəzədilmiş xonçalar bolluqdan, rahatlıqdan xəbər verir. Evlərdə bütün işıqlar yanır, hər tərəf sayrışır. Çöldə tonqallar, oğlanların

məxsusi hazırlayıb yandıraraq hündürlüyə atmaq yarışı keçirdikləri lopa şamlar, sevinclə dolu səs–küy əbədi gözəllikdən, fövqəlbəşər təbiət hadisəsinin gəlib çatdığından xəbər verir.

Gecə ilə gündüzün bərabərləşdiyi və Günəşin Cənub yarımkürrəsindən Şimal yarımkürəsinə adladığı həmin ana işarə ilə dünyagörmüş yaşlılar deyirdilər; Novruzun topu atıldı!

Dünyada elə bir xalq yoxdur ki, qapısının gözlənilmədən təkrar-təkrar döyülməsinə, papaq (keçmişdə qurşaq) atılıb sovqat istənilməsinə sevinə; səxavət və ehtiramla kimliyini bilmədiyi şəxslərə bayram hədiyyələri bəxş edə. Bu gözəllik bizə məxsusdur.

Nişanlı qızlar üçün bayramlıq aparılması, bir-birinin evinə qonaq gedib bayramlaşmalar, küsülülərin barışması, dünyadan köçmüşlərin axirət evini ziyarət və s. bir cəm halında **Novruz** adlı tərbiyə məktəbidir. Ona görə də nəsildən – nəslə əmanət edilərək gəlib günümüzə çatıb.

Hər zaman müasir olan bu məktəbin tərbiyəvi imkanlarından hazırda da yetəri istiqamətlərdə, o cümlədən estetik tərbiyə işində istifadə olunması vacibdir. Nə yaxşı ki, bu adət-ənənələri də günümüzədək yaşada bilmişik və onların böyüyən nəsli həm də milli-estetik ruhda tərbiyə etmək qüdrəti var. Lakin təəssüflə qeyd etmək lazımdır ki, böyük tərbiyə məktəbi olan toy adətləri unudulmaqdadır. Toy-çalanı, oxuyanı, oynayanı, işləyəni, tamaşaçısı, uşağı, böyüyü-kütləviliyi ilə birlikdə yalnız gözəliyyə süslənmiş el şənliyidir. 1990-cı illərədək toy mərasimlərində böyüklərlə bərabər, uşaqlar da iştirak edirdilər. İstər qohum olsun, istər yad, toy evinin qapıları bütün uşaqların üzünə açıq idi. Onlar toyda sadəcə şənlənmir, həm də Azərbaycan ailəsinin hansı estetik təməl üzərində qurulmasını öyrənirdilər. Ailə-siyasi mənada kiçik dövlət, bəşəri mənada millətin və xalqın yaşam kökləridir. Ailə-xalqın timsalıdır. Uşaqlar toydan və toyadək gələn elçilik, «hə» alınması, nişan, qudagördü, parçakəsdi, xınayaxdı, çörəkbişdi, heyvankəsdi, toyxana qurmaq, qonaq qarşılayıb yola salmaq qaydalarından bəhrələnir, milli kökə bağlı olaraq böyüyürdülər. Gəlinin duvaqda gətirilməsi, bəyin tərif olunması, aşığın dastan söyləməsi, atanın, ananın, bacının, qardaşın dilindən oxunan **toy nəğmələri** zəngin estetik tərbiyə mənbəyi idi. Bəzi bölgələrimizdə həmin adətlər hələ ki, qorunur. Bacının dilindən nəğməyə diqqət yetirək:

**Suyun bəndinə qurban,**
**Qardaş, kəndinə qurban.**
**Həyətdə at yəhərli,**
**Sinəbəndinə qurban.**
**Mübarək, ay mübarək,**
**Qardaş, toyun mübarək!**

Unutmamalıyıq ki, gözəllik hissinin formalaşmasında əməyin xüsusi rolu vardır. Xalça-palaz toxuyan qız-gəlinlər, növbənöv parça, kəlağayı, digər baş örtükləri hazırlayan şərbaflar, misdən qazan, teşt, satıl, lüleyin, sərnic, piyalə, məcməyi, sini, boşqab, güyüm… döyən və onlara cürbəcür nəbati naxış vuran, maddeyi-tarix yazan misgərlər, səhəng, sovca, küpə, qalqa, bəsti, nehrə, bardaq… hazırlayan dulusçular, zərgərlər, taxta, daş ustaları, bağbanlar… öz əlləri ilə yaratdıqları gözəlikdən nə qədər zövq almışlarsa, ondan qat-qat artığını həmin işlə bərabər başqalarına təqdim etmiş, ruhlara sığal çəkmiş, ürəklərdə gözəllik duyğusu doğurmuşlar.

- **Xalq pedaqogikası materiallarında təbiət gözəllikləri.**

Azərbaycan xalqı yaranış etibarilə torpağa, əkin-biçinə, təsərrüfata bağlı olduğu üçün onun pedaqoji baxışlarında təbiəti duymaq, onu sevmək və ondan qüvvə almaq motivləri çox güclüdür. Nağıl və dastanlarda gözəllər seyrəngahı bağ-bağçalar, güllər, bülbüllər xüsusi vəsf olunur. Qəhrəmanların əhavlı təşbehən təbiət hadisələrinə bənzədilir. «Çiçəyi çırtladı», «dodağı gül qönçəsi», «sərv boylu», «ahu baxışlı», «maral baxışlı», «ceyran yerişli», «quş kimi səkirdi», «pələng kimi nərə çəkdi», «gözlərindən ildırım çaxdı» və s. ifadələr göstərir ki, xalqın anlamında həqiqət olaraq insan təbiətin bir parçasıdır və təbiətdəki bütün gözəlikləri ona şamil etmək mümkündür. Saysız-hesabsız atalar sözlərində xalq həyati münasibətləri təbiətlə müqayisədə təqdim edir. Məsələn, «Ər-arvadın savaşı-yaz günün yağışı», «Hər gecənin bir gündüzü var», «Quşu quş yuvasından götürərlər», «Aslanın nə erkəyi, nə dişisi?», «Biri od olanda, o biri su olmalıdır», «Dağ dağa qovuşmaz, adam adama qovuşar», «El gücü-sel gücü», «Yeməmisən qaz ətini, nə bilirsən ləzzətini?», «Aya, Günə dönmüsən», «Bala baldan şirindir» və s.

Təbiət gözəlliklərinin tapmacalardakı təqdimi də maraqlıdır. Məsələn:

**Bir tabaq almaz,**
**Sabaha qalmaz.** (Ulduzlar)

**Sarıca əbası var bunun,**
**Büzmə yaxası var bunun.**
**Üstü çopur, içi dilim,**
**Gör nə səfası var bunun.** (Limon)

**Uzanar, ha uzanar,**
**Qollarından balalar.** (Ağac)

**Xub gözəldir, hamıya baxır,**
**Ona baxana iynələr taxır.** (Günəş)

**Dağ kolunda bir damcı qan,**
**Hər tərəfi yaşıl orman.** (Çiyələk)

**Bağda uçar səhər-səhər,**
**Verər bizə yazdan xəbər.** (Qaranquş)

**Üstü yaşıl məxmərdi,**
**İçi şirin şəkərdi.** (Qarpız)

Göründüyü kimi, bu tapmacalar təkcə zehni qabiliyyəti inkişaf etdirmək vasitəsi deyil, həm də təbiət gözəlliklərinə sevgi, məhəbbət mənbəyidir.

Təsərrüfat işləri ilə bağlı xalqın günəşə, küləyə, yağışa, dumana xitabən yaratdığı nəğmələr də gözəldir. Maraqlıdır ki, bu nəğmələri böyüklər özləri oxumur, uşaqlara söylədirdilər. Məsələn, anasının ilki olan uşaq dumanlı havada başının dəstəsi ilə oxuyurdu:

**Mən anamın ilkiyəm,**
**Ağzı qara tülküyəm.**
**Duman, qaç, duman, qaç.**
**Rübəndini aç, aç.**
**Kürəyini dağlaram,**
**Yaraların bağlaram,**
**Səni yoldan saxlaram.**
**Gün babam gün atında,**
**Yel babam yel atında,**
**Səsləsəm dağdan gələr,**
**Bağçadan, bağdan gələr.**
**Duman, qaç, duman, qaç.**

Yağışlı havada isə uşaqlar belə oxuyurdular:

**Gün çıx,gün çıx,**
**Kəhər atı min,çıx.**
**Oğlanlar ova getsin,**
**Qızlar bağçaya çıxsın.**
**Qarı nənə aş bişirsin,**

**İçindən xurma çıxsın.**
**Ay nənə, mən yemirəm,**
**Boğazıma qurtma qalıb.**

Uzun zaman yağmur olmayanda isə «xahiş» edirdilər:

**Gəl, gəl,**
**Yağışım, gəl…**
**Payızım, qışım, gəl.**
**Qarlar üstü yol olsun,**
**Arpam, buğdam bol olsun.**

Maraqlıdır ki, uşaqların «sözü yerə düşmürdü». Bu da onlarda ana təbiətə, onun gözəlliklərinə məhəbbət yaradırdı.

Xalqın adqoyma adətlərində də təbiət gözəllikləri ilə övlad məhəbbətinin vəhdəti var.Hər bir valideyn istər qız, istər oğul övladlarında təbiətə məxsus estetik cizgiləri-zərifliyi, gücü, qüdrəti duymaq istəyərək onlara ad qoymuşdur.

Qız adları:Güllər, Çiçək, Qızılgül, Zanbaq, Yasəmən, Nərgiz, Bənövşə, Reyhan, Süsən, Lalə, Qərənfil… Ceyran, Maral, Turac, Kəklik… Firuzə, Yaqut, Almaz, Brilliant, Mirvari, Simuzər, Gövhər, Zümrüd və s.

Oğlan adları: Şahin, Laçın, Aslan, Şiraslan, Şirzad, İldırım, Dəmir, Daşdəmir, Polad və s.

Bütün bunlardan belə nəticəyə gəlmək olur ki, xalq böyü-məkdə olan nəslin estetik tərbiyəsinə məhz estetik tələblərlə yanaşaraq, həyatın bütün məqamlarında ona önəm vermişdir.

## Mövzu: Etnopedaqogikada əqli tərbiyə məsələləri

### Plan

1. **Əqli tərbiyənin vacibliyi**
2. **Xalq pedaqogikasında əqli tərbiyəyə münasibət**

### Ədəbiyyat


1. Ə.Həşimov,F.Sadıqov.Azərbaycan xalq pedaqogıkası.Bakı,«Patronat». 1993.
2. N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif». 1996.
3. «Kitabi- Dədə Qorqud» dastanları. Bakı, «Elm». 1988.
4. Oğuznamə. Bakı, «Gənclik». 1987.
5. M.Seyidov. Azərbaycan tapma calarına dair tədqiqlər (III kitab). Bakı, 1968,
6. Tampacalar. Bakı, «Elm», 1972.
7. Atalar sözü, ağlın gözü. Bakı, 1976.
8. Molla Nəsrəddin lətifələri. Bakı, «Altun kitab», 2007.
9. Bəhlul Danəndə lətifələri. Bakı, «Altun kitab», 2007.


Ağıl insanın bəzəyidir. İnsan bütün canlılardan məhz ağlı ilə fərqlənir. Ağıl insanı idarə edən möcüzəvi qüvvədir. Bütün insanların ağlı eyni səviyyədə olmur. Kimi

yaranışdan çox ağıllı, kimi də zəif olur. Buna görə də, böyüməkdə olan nəslin əqli tərbiyəsinə ciddi ehtiyac yaranır. Elmi pedaqoqikadan yüz illərlə əvvəl xalq bu zərurəti duymuş və xüsusi diqqət yetirmişdir. Bu gün elmi pedaqoqika şəxsiyyətin formalaşmasında əqli tərbiyəyə yüksək qiymət verir. Həmin qiymət xalq tərəfindən də daim gözlənilmişdir.

Elmi pedaqogika şəxsiyyətin tərbiyəsində onu fərdi tanımağı önəmli cəhət kimi dəyərləndirir. Müəllim və tərbiyəçilərdən tələb olunur ki, pedaqoji prosesin subyektlərindən biri olan şagirdləri dərindən tanısın, onların hər birinin fərdi keyfiyyətlərini, xarakterlərindəki özünəməxsusluğu öyrənsin və iş zamanı nəzərə alsın. O cümlədən şagirdlərin ağıllı hərəkət etmələrinə, ağılla oturub-durmalarına xüsusi diqqət yetirsin. Xalq pedaqogikasında da belədir. Xalq yaşından asılı olmayaraq hər bir insanı ağlına görə dəyərləndirmiş və ona münasibət göstərmişdir. Bu barədə atalar sözündə deyilir: «İnsanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar». Həmçinin ağlın əlaməti belə müəyyənləşdirilmidir: «Ağıllı başa bir göz də bəsdir», «Ağıllıya eyham, axmağa təkan», «Ağıl bazarda satılmır», «Ağıl gücdən güclüdür», «Ağıllı düşməndən qoxma, qorx axmaq dostdan», «Qüvvə hər şeyi, ağıl qüvvəni sındırar», «Ağıl ağıldan üstündür», «Ağıl yaşda deyil, başdadır», «Ağılsız baş yiyəsinə donuz otarar».

Deməli, ağıllı insan hər işdə nümunəvi, hər işdə kamil olan insandır. Nümunəvi olan ağıllı insanın əlamətləri xalq pedaqogıkasında belədir: Bilikli olmaq, dünyagörmüş qocaların sözünə qulaq asmaq, özünü adi vəziyyətdən ali dərəcəyə çatdırmaq, fürsəti əldən verib döyüşdə uduzmamaq, ehtiyatlı və tədbirli olmaq, xətərin qarşısını vaxtında almaq, qılıncla alına biləcək şeylərin çoxunu tədbirlə əldə etmək, hay-küyü az, xeyri çox, mühakiməsi dərin olmaq, əmanətə xəyanət etməmək, dostluq etmək lazım olan yerdə düşmənçilik, yaxşılıq lazım olan yerdə pislik etməmək, başqalarının başına gələn hadisələrdən özü üçün müsbət nəticə çıxarmaq, müşkül işlərin cəmini tapmaq, sənət öyrənib yaxşı ad qazanmağa çalışmaq, ola biləcək şeyləri, ola bilməyəcək şeylərdən ayırmağı bacarmaq və s.

Xalq qeyd etdiyimiz bu nişanələrin hamısını bir küll halında heç yerdə demir. Tərbiyənin digər komponentləri kimi, əqli tərbiyə ilə bağlı müddəalar da xalqın yaratdığı şifahi ədəbiyyat nümunələrində səpələnmiş haldadır. Onları seçib toplayaraq sistem şəklində elm aləminə prof.Ə.Həşimov təqdim etmişdir.

- **Xalq pedaqogikasında əqli tərbiyəyə münasibət**

Xalqın yaratdığı bütün nağıl və dastanlarda yalnız ağıllı insanlar qalib gəlir. Həmin nümunələrdə baş qəhrəmanlar, istər qadın olsun, istər kişi ağıllı insanlardır. «Kitabi-Dədə Qorqud» dastanlarında Burla Xatun öz ağlı nəticəsində düşməndən qoruna bilir, Basat ağıl və tədbirlə Təpəgözə qalib gəlir.

«Qanlı qoca oğlu Qanturalı» boyunda Trabzon təkürü qızı Selcan xatunun «qalınlığı-qaftanlığı» (qızı almaq şərtləri) üçün, üç heyvan - qara buğa, quduz aslan və buğra (dəvə) saxlayır. Söz qoyur ki, kim bu heyvanları məğlub etsə, qızımı ona verəcəyəm.

Fiziki hazırlığına, gücünə, qüvvəsinə inanan çox igidlər bu yola qədəm qoyub həyatından keçir. Otuz iki bəy oğlu elə bırinci heyvanla - öküzlə üz-üzə gələndə məğlub olur; təkürün əmri ilə başları kəsilib qala bürcündən asılır. Amma Qanturalı «hər bırisi bir əjdahaya bərabər» olan hər üç heyvanı məğlub edə bılir. O, fiziki gücü ilə bərabər, ağlının da gücündən istifadə edir. Buynuzu ilə mərmər daşı pendir kimi ovan öküzün alnına yumruğunu dayayıb onun gücünü tükəndirərkən öz-özünə elə belə də deyir: «Bu dünyanı igidlər ağılla tapmışlar. Bunun önündən sıçrayım, nə hünərim varsa, bundan sonra göstərim» Belə də edir; buğa buynuzu üstə yerə gəlir. Qanturalı vaxt itirmədən başqa fəndlər işlədir və öküzü «basıb boğazlayır»

Quduz aslan buraxırlar. Qanturalı heyvanın iki yerdən – pəncəsi və dişləri ilə zərbə vuracağını nəzərə alaraq tədbirini görür; yapıncını diz qapağına dolayıb aslanın pəncəsinə verir. Beləliklə də təhlükənin birinə «sədd» çəkir və həmin an yumruğunu aslanın alnına çırpıb çənəsini parçalayır, boynundan tutub, belını üzür.

Növbə buğraya çatır. Qanturalı onu da ram edib iki yerdən kəsir. «Arxasından iki qayış çıxarıb təkürün qabağına tullayır».

«İgidlər igidi Qanturalı» qeyri-bərabər mübarizədə ancaq ağlın gücünə qalib gəlir; əks təqdirdə əliyalın insan təkbaşına xüsusi saxlanılmış «əjdahaya bərabər» üç heyvanı məhv edə bilməzdi. Dastanın oxucusu bu faktı həm də «Qanturalı gözəl və ağıllı bir gənc idi» təqdimatında görür.

Dastanda ağıl və əqli keyfiyyətlər barədə bir –birindən dəyərli kəlamlar var: «Ağıllı oğul olsa, o, çağının gözüdür», «Ata malından nə fayda, başda ağıl olmasa», «Dəvəcə boyun olunca, qarışqaca ağlın olsun», «Ata adını yaşatmaqçın ağıllı oğul yaxşıdır» və s.

Xalqın gənc nəsildə və ümumən insanlarda görmək istədiyi ən önəmli keyfiyyət agıldır; Yaratdığı bədii nümunələrdə də bu xüsusda obrazlı fikir yürüdərək öz hökmünü şüurlara hopdurur.

Ağıl və əqli tərbiyə ilə bağlı xalq qənaətlərində yaş həlledici əhəmiyyət daşımır. O, bu barədə deyir: «Ağıl yaşda deyil, başdadır», «Qoca gördüm, soruşdum: Neçə yaşın var? - Dedi: «Yüz». Söhbət etdim, gördüm ki, bir yaşı var».

Düzdür, müdriklik yaşına çatmış, həyat təcrübəsi keçmiş, öz ağlı ilə kütlələri idarə edə biləcək yaşlı insanlara xalqın hüsn-rəğbəti inkarolunmazdır. Lakin həyat təcrübəsi olmasa da, çətinlikləri öz ağlı sayəsində dəf edən insanlar da xalqın diqqətindən yayınmamışdır. Cırtdan dediklərmizə ən tutarlı nümunədir. O, yaşı az, boyu balaca olmasına baxmayaraq, ağıl və tədbirlə nəhəng divə qalib gəlir, özünü və yoldaşlarını xilas edir.

Elə buradaca qeyd etməliyik ki, xalq Cırtdanın nümunəsində uşaqlara lap kiçik yaşlardan ağıllı olmağı, düşməndən, onun güc və qüdrətindən qorxmamağı, ən qorxulu vəziyyətlərdən qalib çıxmaq üçün özündə mənəvi qüvvə tapmağı təlqin edir.

Xalq pedaqoqikası materiallarını araşdırdıqda görürük ki, xalq şəxsiyyətin formalaşmasında irsiyyətə nə qədər önəm verirsə, ağla da o qədər önəm verir. Ona görə də nağıl və dastanlarda sıravi xalq kütlələri arasından çıxmış qəhrəmanlar öz ağılları ilə fərqlənirlər; hətta bəy, xan nəslindən olan insanlardan ağılca üstün olurlar. Xalqın pedaqoji qənaətlərində bu o deməkdir ki, ağıl şəxsiyyətin cəmiyyətdə tutduğu mövqedən irəli gəlmir, fərdi keyfiyyətdir.

Xalq ağlın inkişafı üçün elmə, təhsilə, savada yüksək qiymət verir və bu barədə deyir: «Elm əqlin çırağıdır».

Böyüməkdə olan nəslin ağlını və zehni qabiliyyətini inkişaf etdirmək üçün xalq bir sıra vasitələrdən, o cümlədən tapmaca və çaşdırmalardan istifadə etmişdir. Tapmacalarda soruşulan cavabın əlamətləri deyilmiş, qarşı tərəfdən həmin əlamətlərə məna verib cavabı tapmaq tələb olunmuşdur. Məsələn: «Üstü pulcuq, içi qılçıq» (balıq), «Yol kənarında qazan qaynar» (qarışqa yuvası və qarışqalar).

Çaşdırmalarda isə bilərəkdən sual dolaşıq qoyulur ki, qarşı tərəf düşünsün, ağıl işlətsin və doğru cavab tapsın. Məsələn: «Ağacda 99 sərçə oturmuşdu. Mən onlardan birini güllə ilə vurdum. Ağacda neçə sərçə qaldı?» Düşünmədən tələsik verilən cavab 98-dir. Və bu

çaşdırılan cavabdır. Əsl ağıllı cavabda deyilməlidir ki, ağacda bir dənə də olsun sərçə qalmadı. Onlar atəşin səsindən uçub dağılışdılar. Belə düşündürücü tapmaca və çaşdırmalar nağıllarda da var.

Həmçinin nağıl və dastanlarda qəhrəmanlar bəzən müqabil tərəfə hansısa xəbəri çatdırmaq, ürəyini açmaq istədikdə əşya məktublarından istifadə edirlər. Belə məktubların mahiyyətini yalnız ağıllı adamlar başa düşür və məzmununu aça bilirlər. Məsələn: «Daşdəmirin nağılı»nda Mirzə Möhsünün qızı Nardana göndərdiyi məktubda daş, dəmir, əl dəyirmanı (kirkirə, yarma daşı), bir armud və bir gavalı olur. Nardanla Daşdəmir məktubda nəzərdə tutulan fikri belə açırlar: Dastanda *dəmir* Daşdəmirə, *əl dəyirmanı* qonşuluqdakı dəyirmana işarədir. *Armud* növünə görə Abasbəyi adlanır; bu da padşahın qoşun böyüyü Abas bəyə işarədir. *Gavalıya* isə bağbanlar Vəzi alı deyirlər; açması: vəzir Alı olur

Məzmun: Daşdəmir, dəyirmandakı qətli Abas bəylə vəzir Alı törətmişdir.

Xalqın bizə yadigar qoyduğu şifahi xalq ədəbiyyatı nümunələri böyüməkdə olan nəslin zehni inkişafı üçün mühüm vasitədərdən biridir. Lakin onlardan istifadə edərkən yaxşını pisdən seçmək lazımdır. Unutmamalı ki, başqa məsələlərdə olduğu kimi, əqli inkişaf məsələləri haqqında da zəhmətkeş xalqın tarix boyu irəli sürdüyü fikirlər həmişə eyni çərçivə daxilində qalmamışdır; xalqın dünyagörüşü və mədəniyyətinin inkişafı ilə bərabər, tərbiyəvi fikirləri də, inkişaf etmişdir. Xalq əqli tərbiyə işində ən mütərəqqi fikirlərə istinad etmişdir.

## Mövzu 12.

## Etnopedaqogikada ekoloji tərbiyə məsələləri

### Plan

- Ekoloji tərbiyə anlayışı və müasir ekoloji vəziyyət
- Ekoloji tərbiyənin zəruriliyi
- Ekoloji tərbiyə ilə bağlı xalq fikirləri

### Ədəbiyyat


- Qurani-Kərim (Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsi). Bakı, «Azərnəşr», 1992.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
- F.Sadıqov, G.Əliyeva, M.Abbasov. Ekoloji tərbiyənin etnopedaqoji əsasları. Bakı,2007
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif», 1996.
- Oğuznamə. Bakı, «Yazıçı», 1987.
- O.Qüdrətov, H.Qüdrətov. Məhəmməd Peyğəmbərin həyatı və kəlamları. Bakı, 1990

- Bayatılar. Bakı, 2007.
- Nəğmələr. Bakı, 2007.
- Atalar sözü və məsəllər. Bakı, 2007.

1.**Ekoloji tərbiyə anlayışı və müasir ekoloji vəziyyət.** «Ekologiya» yunan sözüdür. Eko–məskən, yurd, lokos – təlim, söz deməkdir. Bütövlükdə «ekologiya» sözü yurd, məskən haqqında təlim mənasını verir.

Müasir şəraitdə ekoloji problemlər bütün dünyanı narahat etməkdədir. Bunlar hansı problemlərdir? Məlumdur ki, Yer kürəsi insan övladının yaşayıb ömür sürdüyü yeganə istinadgahdır. Müqəddəs kitabımız «Quran»ın müvafiq ayələrindən görürük ki, Böyük Yaradan Yer üzünü insanlar üçün yaradıb, onu bitki örtüyü ilə örtüb, su və müxtəlif qidalarla təmin edib. Yerin altını da, üstünü də insanlar üçün zəruri, həyati əhəmiyyətli nemətlərlə zənginləşdirib. Növbənöv taxıl məhsulları, meyvələr, dərman bitkıləri, güllər, çıçəklər, ev heyvanları, quşlar, balıqlar – hamısı insanlar üçündür. Sayı-hesabı bilinməyən bu nemətlərin ən kiçik zərrəsinin də Yaradan yanında hesabı var. Su, hava, qida nemətləri və bütün hər şey insanlara çatacaq qədər yaradılıb. Bu barədə «Məryəm» surəsinin 99-cu ayəsində deyilir: «And olsun ki, Allah onları (bütün yaratdıqlarını) hesablamış və təkrar-təkrar saymışdır.»

İnsanların borcu həmin nemətləri qorumaq və ondan düzgün istifadə etməkdir. Lakin «Quran»da buyurulduğu kimi, insan nankor olduğundan hər zaman səhlənkarlığa yol vermiş və verməkdədir.

Bu gün yer üzü ilkinliyini itirmişdir. Dəniz və quru çirklənmiş, qidalar təbiilikdən çıxmış, hava zəhərlənmiş, ozon qatı deşilmişdir. Texniki inkişaf və insanların maddi nemətlərə-var-dövlətə hərisliyi bəşəriyyəti ağlasığmaz problemlər qarşısında qoymuşdur. İndi insan qlobal istiləşmə, qütb buzlaqlarının əriməsi, bitki örtüyünün məhvi, nadir heyvanların kökünün kəsilməsi, sağalmaz xəstəliklər həqiqətləri ilə üz-üzədir. Və bütün bunları insan özü yaratmışdır. İnsan Yaradanın ona bəxş etdiyi əmanətə – Yer üzünə xəyanət etmişdir. Əmanətə xəyanət isə böyük günahlardan sayılır.

İnsanın icad etdiyi ən adi yuyucu vaistələr belə onun özünə qarşı çevrilmiş, torpağa, suya hoparaq oaradan da qidalara yeriyən və təzədən insanın özünə qayıdan düşmənidir.

Lakin bundan da böyük-dövlətlər, ölkələr səviyyəsində ekoloji fəlakətlər var. Ona görə də **ekologiya** elmi yaranmışdır. Bu elm təbiətlə cəmiyyət arasında qarşılıqlı qanunauyğunluqları və yer üzərindəki bütün yaranmışların - torpağın, suyun, havanın, atmosferin, bitkilərin, heyvanların, insanların ekologiyasını öyrənir.

İndi **ekologiya** dedikdə, ətraf mühitin – torpağın, suyun, havanın çirklənmədən qorunması və təmiz saxlanması başa düşülür.

Qeyd etməliyik ki, ekologiya XX əsrin elmidir. Yəni bu əsrdə kütləvi hal almış ekoloji böhran – kütləvi qırğın silahlarının hazırlanması və sınaqdan keçirilməsi, kosmik uçuşlar, atom-nüvə reaktorları, kimya zavodları və kimyəvi məhsullar, sənayenin inkişafı naminə təbiətə təcavüz, meşələrin qırılması, çayların istıqamətinin dəyişdirilməsi, dağların partladılması, müharibələr və s. bu elmin yaranmsına səbəb olmuşdur. Beləliklə, pedaqogika elmində «ekoloji tərbiyə» məfhumu yaranmış və böyüməkdə olan nəslin ekoloji tərbiyəsi aktual problemə çevrilmişdir.

- **Ekoloji tərbiyənin zəruriliyi**

Təlim və tərbiyə ilə bağlı elə bir incəlik yoxdur ki, xalqın diqqətindən kənarda qalsın, o cümlədən ekoloji tərbiyə. Əsrlərlə bundan əvvəl xalq insanın yer üzərində qalıb-qalmayaca-ğının ekologıyadan asılı olduğunu duyub dərk etmiş və bu barədə tövsiyələrini vermişdir. Halbuki, o zaman təbiətə indiki kütləvi təcavüz yox idi.

Dini etiqada görə, külli kainatda nə varsa hamısı, o cümlədən, ağaclar, otlar, heyvanat Böyük Yaradanı təsbih etməkdədir (anmaqdadır). Bir ağac kəsən insan Ulu Xaliqi zikr edənin birini azaltmış olur və günaha batır. Bir ağac əkən insan isə tam onun əksini edir və savab qazanır. Axı yer üzü Allah-təalanın insanalara yaşayış yeri olaraq bəxş etdiyi ən gözəl hədiyyədir. «O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə müxtəlif meyvələrdən ruzilər yetişdirdi.» («Əl Bəqərə», ayə 22). Dini etiqada görə, həm də heyvanlara zülm etmək günahdır. Heç bir heyvan insan qədər zülmkar və kobud deyil.

Dindən danışmışkən, mövzu ilə bağlı Islam Peyğəmbərinin (s) kəlamlarına diqqət yetirək. O, yaşıllığa və dənizə baxmağın ibadət olduğunu söyləmişdir (Söhbət düşünərək baxmaqdan, dənizin də, yaşıllığın da gözəlliyni və həyati əhəmiyyətini dərk edərək baxmaqdan gedir). Peyğəmbər Əleyhissəlam həmçinin buyurmuşdur:

«Yararsız qalmış bir yeri cana gətirən adam bəri başdan savab qazanmış olur».

«Bir adamın basdırdığı ağac nə qədər meyvə verərsə, o adam o qədər savab qazanır».

«Yolun ortasına düşmüş bir daşı götürüb kənara atan, yolu sahmana salan adam savab qazanar».

«Kim daşqınların, sel sularının qarşısını alırsa, yaxud yanğınları söndürürsə, şəhidlərin qazandığı savab qədər savab qazanır».

«Bir müsəlman bir şey əksə, əkdiyi şeyin məhsulundan bir quş, bir insan, yaxud bir heyvan yesə, o, həmin adamın ehsanıdır».

«Allah deyir ki, məndən rəhm istəyirsinizsə, bütün yaratdıqlarıma acıyın».

«Ziyan verən canlılardan başqa hər hansı bir canlını öldürmək qadağandır».

«Heyvana əziyyət verməyi qadağan edirəm».

«Tanrı lənət eləsin bir heyvana əziyyət verənə».

«Hətta bir sərçəinin başının kəsilməsinə acıyan, həmin sərçəyə yazığı gələn adama Allah qiyamət günü acıyar».

«Allah lənət eləsin ağac kəsənə».

«Əlinizdə bir fidan olsa və bir az sonra qiyamət qopacağını bilsəniz, yenə o fidanı əkin» və s.

Adi danışıqda biz «ana təbiət», «ana vətən», «ana yurdum» ifadələrini işlədirik, amma fərqinə varırıqmı niyə belə deyirik? Onda Peyğəmbər Əleyhissəlamın kəlamına diqqət yetirək: «Yer üzünü qoruyun çünki o sizin ananızdır».

Bəli, ana heç vaxt övladına ögey münasibət bəsləmir; onlara qarşı biganə olmur; heç nəyini, canını belə onlardan əsirgəmir; bu ağıllıdır, o biri yox, bu çörək qazanandır, o birisi yox, bu gözəldir, o birisi yox deyə ayrı-seçkilik qoymur. Ancaq ana övladından gördüyü nankorluqların üstündən keçə bilir.

Yer üzü də belədir. O bizim anamızdır. Hər kəsin bir anası olduğu kimi, sığınacaq bir Yer üzümüz var. Gedəcək başqa məkanımız, bizi bəsləyib yaşadacaq başqa vətənimiz yoxdur. Günahlarımızı başa düşəcəyimiz təqdirdə o da analaramız kimi bağışlayandır. Yəni ona vurduğumuz yaraları sağaltmağa çalışsaq, sağalandır. Ekoloji tərbiyə məhz bundan ötrüdür.

- **Ekoloji tərbiyə ilə bağlı xalq fikirləri**

Xalqın da ekoloji tərbiyə ilə bağlı fikirləri gəldi-gedər sözlər deyil, təcrübədən yaranmış, inkarolunmaz müddəalardır. Xalq deyir:

«Yaşıllığı çox edən elin qəbiristanlığı kiçik olar»,

«Bar verən ağacı kəsməzlər»,

«Bağa baxarsan bağ olar, baxmazsan dağ olar»,

«Hər kəsin ki, bağı var, kef çəkməyə çağı var»,

«Tək ağacdan bağ olmaz»,

«Susuz yerdə ördək olmaz, qaz olmaz»,

«Torpaq deyir: öldür məni, dirildim səni».

«Ağac Behiştdən çıxıb».

«Ağac əkənin ömrü uzun olar».

«Ağac meyvəni dəyənə qədər böyüdər».

«Ağaclı kəndi sel basmaz».

«Bağ salan barın yeyər».

«Gün altında yatmayan kölgənin qədrini bilməz» və s.

Həmçinin bayatıya diqqət yetirək:

**Gün çəkilib batanda,**
**Gündüzə şər qatanda,**
**Ovçu əlin qurusun,**
**Marala ox atanda.**

Bu kəlamlar xalqın ətraf mühitə münasibətini göstərir. Onları günümüzədək yaşayan inanclarla tutuşdurduqda görürük ki, xalq ekoloji tarazlığın pozulacağından daim ehtiyatlanmışdır. Ona görə də uşaqları kiçik yaşlardan ekoloji həssaslıq ruhunda böyütməyə çalışmışdır. Müdrik ailələr indi də həmin inancları öz uşaqlarına öyrədirlər. Məsələn:

- Günün isti vaxtında suvarma işləri aparmaq olmaz, həarətdən bitkiyə xeyir yox, ziyan gəlir.
- Yuvadan qaranquş balası götürənin dili lal olar.
- Əncir ağacı kəsən günaha batar.
- Tut ağacı ehsanlıqdır, kəsməzlər.
- Qoz və əncir ağacının altında yatmazlar.
- Qurbağa tutanın əlinə ziyil düşər.
- Pişiyi öldürməzlər; quşun yuvasını dağıtmazlar.
- Ahunu öldürən xeyir tapmaz.
- Balalı heyvana güllə atmazlar.

- Çox ov vuranın evində bərəkət olmaz.
- Köç edən heyvanlara toxunmazlar;
- Arı haram götürmür.
- Ovladığın quş və ya heyvan sənə baxırsa, onu vurma, gözü yolda qalanı var.
- Dağdağan, zoğal və əncir ağaclarını yandırmazlar, günahdır və s.

Xalq arasında bar verməyən meyvə ağacını «qorxutmaq» inancı da olmuşdur. Novruz ayında bu niyyətlə evdən bir nəfər əlinə dəhrədən, baltadan alıb ağacın üstünə gedir. Onunla bərabər daha kimsə olur və ağaca çatıb baltanı qaldıranda soruşur ki, neynirsən? O da deyir ki, bu bar vermir, kəsirəm. Xahiş edir ki, kəsmə; görərsən, bar verəcək. O da «yaxşı» deyib kəsmir.

Ağac bar verir!..

Təəssüflə qeyd etmək lazımdır ki, nəfsinin qulu olan insan övladı bu sınaqların çoxunu pozmuş və artıq günaha batmışdır. Yer üzündəki növbənöv canlının, o cümlədən ölkəmizdə qırqovulun, turacın, kəkliyin, ceyranın, cüyürün, qızl balığın, bölgə balığının kökü kəsilmiş və yaxud da kökü kəsilmək üzrədir, adları qırmızı kitaba düşmüşdür. Insan «Qurani-Kərim»də adına xüsusi surə gəlmiş mübarək heyvana – yediyi hər şeyi fitrətən bala çevirən arıya şəkər yedirməklə onu saxtakarlığa öyrətmişdir. Bundan böyük günah olarmı? Halbuki «Quran»da buyurulur: «Rəbbim bal arasına belə vəhy etmişdir: «Dağlarda, ağaclarda və insanın qurduğu yerlərdə özünə yuva tik, sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat və asanlıqla get!» O arıların qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda da düşünüb dərk edənlər üçün bir ibrət var.» («Ən-Nəhl» surəsi, ayə 68-69).

Keyfiyyətli şəhd toplamaq üçün bəzən bir arı 50 km. məsafəyədək uçur. Gün ərzində minlərlə çiçəyə qonur, elmin bu günədək təyin edə bilmədiyi maddələrlə qidalanır və onu bala çevirir. Deməк bir damcı təbii balda həmin yerin 50 km. radiusunda açan bütün çiçək və güllərin şəhdi toplanır. Fəqət nəfs insanları bu nemətdən məhrum etmişdir.

İnsan ağıl və zəkası ilə yaranmışların əşrəfi olduğu halda kobudluğu və bağışlanılmaz səhvləri ilə bütün yaranmışlara arxa çevirmiş, nəticədə özünə zülm etmişdir. Narkotiklər, süni və dərmanlanmış qidalar insanın öz əlilə səhhətinə ekoloji zərbələr vurmuş və vurmaqdadır.

Elmi pedaqogika ekoloji tərbiyəinin vəzifələrini, yollarını, vasitələrini müəyyənləşdirmiş və ekoloji tərbiyəyə belə tərif vermişdir: **«Ətraf mühitin təmizlik dərəcəsini duymağın, onun sağlamlıqla, mədəniyyət və əxlaqla əlaqəsini başa düşməyin və mühitin saflaşdırılmasında fəal movqe tutmağın gənc nəslə məqsədyönlü və planlı şəkildə aşılanması prosesi ekoloji tərbiyədir.»** (Bax. N.Kazımov «Ali məktəb pedaqogikası» səh. 283-288).

Elmi pedaqogika qeyd edir ki, gənc nəslin ekoloji tərbiyəsində bütün imkanlardan, o

cümlədən, ayrı-ayrı fənlərin, sinifdənxaric (audıtoriyadanxaric) tədbirlərin, kütləvi informasiya vasitələrinin imkanlarından maksimum dərəcədə istifadə olunmalıdır. (Bax. Yuxarıda qeyd edilən mənbə. səh. 285).

Burada fənlər deyəndə, fizika, kimya, coğrafiya və ədəbiyyatın adı çəkilir. Əslində, ibtidai sinflərdən başlamış üzü yuxarı tədris edilən bütün fənlərin ekoloji tərbiyə imkanları var. Sadəcə olaraq müəllimdən işgüzarlıq və insanı borc tələb olunur. Həmçinin bütün fənlərin içərisində, o cümlədən müvafiq sinifdənxaric tədbirlərdə xalqın ekoloji tərbiyə ilə bağlı qənaətlərinə istinad etmək mümkündür. Çünki ekoloji tərbiyənin vasitələrindən biri məhz xalq pedaqogikasıdır.

## Mövzu 17. Azərbaycan etnopedaqogikasında hüquq tərbiyəsi məsələləri

**Plan**

- Hüquq tərbiyəsinin vacibliyi
- Hüquq tərbiyəsi barədə xalq fikirləri

**Ədəbiyyat**


- Qurani-Kərim (Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsi), Bakı, «Azərnəşr», 1992.
- Ə.Həşimov.Məktəblilərin hüquq tərbiyəsi,«Azərbaycan məktəbi» jurnalı, 1992, №1-2
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası (dərslik). Bakı, «Ünsiyyət»,2000.
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif», 1996.
- Atalar sözləri. Bakı, «Azərnəşr», 1985.
- İ.İbrahimov. Atalar sözü və məsəllər. (Tədqiqlər), I cild, Bakı, 1961.
- Atalar sözü və məsəllər. Bakı, 2007.


### Hüquq tərbiyəsinin vacibliyi

Azərbaycan xalq pedaqogikasında tərbiyənin digər komponentləri ilə bərabər, hüquq tərbiyəsinə də diqqət yetirilmişdir. Lakin o, elmi pedaqogikada olduğu kimi şəxsiyyətin çeşidli hüquqlarının sistemli ardıcıllığına uyğun deyil, ümumi səciyyə daşıyır. Elmi

pedaqogika Azərbaycan Respublikasının Konstitusiyasına istinad edərək, yaşamaq hüququ, təhsil hüququ, istirahət hüququ, əmək hüququ, mənzil toxunulmazlığı hüququ, seçmək hüququ, seçilmək hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin qorunması hüquqlarının adlarını çəkir.

Xalq pedaqogikasında bu sözlər dilə gəlmir. Lakin xalq çox gözəl bilir ki, insanın yaşamaq hüququ var. Əgər o yaşayırsa, işləməlidir; işlədikdən sonra istirahət etməlidir. Yaşayış üçün evi olmalıdır. İnsan şərəf və ləyaqətinin alçaldılmasına yol verməməlidir. Bütün bunlar xalq üçün adi həyat normalarıdır.

Xalq sülh, əmin-amanlıq şəraitində yaşayıb işləməyi sevir. O, qanuna hörmət edir və öz boynunu qanun qarşısında tükdən incə sayır. Böyüməkdə olan nəsli də qanuna hörmət etməyə çağırır. Haqq, ədalət, düzlük və doğruçuluq xalqın həyat idealıdır.

Maraqlıdır ki, xalq pedaqogikasında oğlan və qızların hüquq tərbiyəsində fərqlər var. Burada dinimizin də təsiri olmuşdur. Qızlar fiziki baxımdan zərif və zəif olduqları üçün onların analıq hüququ, qadınlıq hüququ daha yüksəkdir. Onların əmək hüququ da daha çox evlə, ailə ilə bağlıdır. Eyni zamanda mənsub olduğu ailənin şərəfini uca tutmaq, ləyaqətini qorumaq onun həm hüququ, həm də vəzifəsidir.

Ailəni qorumaq, onun ehtiyyaclarını təmin etmək, vətəni qorumaq hüququ oğlanlara verilir. Təhsil almaq və sənət öyrənmək baxımından isə oğlanlarla qızların hüququ bərabərdir.

Xalq birgəyaşayışa əməl etməyi, qohumluq, qonşuluq münasibətlərinə xələl gətirməməyi uşaqdan böyüyə kimi hər kəsin qarşısında bir tələb kimi qoymuş və bu zaman Peyğəmbər Əleyhissəlamın «Bir-birinizə güzəştə gedin ki, aranızda kin-küdurət, həsəd yox olub itsin» kəlamına önəm vermişdir. Eyni zamanda insanın öz hüquqlarını qorumaqda, qərar qəbul etməkdə müstəqilliyinə önəm vermiş, kənar adamların yersiz müdaxiləsinə kinayə etmişdir: «Evlər evlər vəkili deyil».

Elmi pedaqogikada tərbiyə metodlarından biri də cəzalandırmadır. Xalq pedaqogikasında da bu metod var: «Döymə taxta qapımı, döyməyim dəmir qapını», «Söymə nökər atamı, söyməyim bəy atanı». Amma xalq tərbiyə olunana birdən-birə ağır cəza verməyin tərəfdarı deyil. «Keçənə güzəşt deyərlər», «İgid basdığını kəsməz» kəlamları bu ideyaya xidmət edir. Bununla yanaşı, əgər cəzalanan tərəf bağışlanılmaz iş tutubsa, məsələn, ailənin, nəslin, əqrabanın şərəfini alçaldıbsa, xalq cəzalandıran tərəfə onu öldürmək hüququ verir. Təsadüfdən törənmiş və itkilərə səbəb olmuş hadisələrdə isə xalq barışıq tərəfdarıdır. «Qanı qan ilə yumazlar, qanı su ilə yuyarlar» kəlamı belə vəziyyətlər üçün deyilib. Lakin xalq «Qanı qan ilə yuyarlar» hökmünü də vermişdir. Bu hökm bağışlanımaz cinayətlərin həlli yoludur. «Qisas qiyamətə qalmaz», «Tökülən qan yerdə qalmaz», «Buynuzsuz qoçun qisası buynuzlu qoçda qala bilməz» kəlamları da həmin hökm ətrafındadır və haqlı tərəfə geniş hüquqlar verir. Lakin xalq demir ki,otur gözlə,haçansa qisasını alacaqlar. Yəqin, «Düşmənin gözünün içinə baxarlar» ifadəsi də bu tələbdən yaranmışdır.

Xalqın yazılmamış qanunlarında valideynlərin övladları və bütün ailəsi üzərində ölənə qədər böyüklük etmək hüququ var. Hətta valideynlər olmadıqda böyük qardaş və böyük bacı valideyn hüququ daşıyır.

**Hüquq tərbiyəsi barədə xalq fikirləri.**

Xalqın cəmiyyətdə insan hüquqları ilə bağlı bü hökm və qərarları Müqəddəs Kitabımızın ayələrinə uyğundur. Məsələn, «Yetimlərin mallarını özlərinə verin və pisi yaxşı ilə dəyişdirməyin! Onların mallarını öz mallarınıza qatıb yeməyin» («Ən Nisa» surəsi, ayə: 2). «Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu, Allahın onlardan birini digərinə üstün etməsi və kişilərin öz mallarından sərf etməsinə görədir…» (ayə: 34) və s.

Hər zaman düzlük, doğruçuluq, haqq-ədalət tərəfdarı olan xalq böyüməkdə olan nəslə hüquq və vəzifələrini başa salarkən demişdir: «Doğruya zaval yoxdur», «Ən böyük biclik düzlükdür», «Düz əyrini kəsər», «İnsaf dinin yarısıdır», «İstəyirsən dinc olasan, dinc otur», «Öz yerini bil», «Adın nədir?- «Rəşid».- Birin de, birin eşit» və s.

Etnopedaqoji materiallar araşdırılarkənonların içərisindən hüquq tərbiyəsi baxımından illərinsınağından çıxmış çox mötəbər fikirlərə rast gəlmək mümkündür. Xalqın müdrik kəlamları içərisində, xüsusilə hekayələrdə, anğıllarda, rəvayətlərdə və s istənilən sayda hüquq tərbiyəsi nümunəsinə rast gəlmək olar.

Xalq pedaqogikası nüminələrində "hüquq tərbiyəsi" ifadəsinə rast gəlmirik. Bu ifadələr arasında kifayət qədər hüquqi normalar, hüquqi yazışmalar, hüquqi yanaşmalar, hüquqi izahlar, hüquqi şərtləndirmələr hüquqi davranış normativləri öz əksini tapmışdır. Hər hansı etnopedaqoji nümunəyə diqqətlə yanaşsaq, onun hüquqi mahiyyətini görmüş olarıq. Bir rəvayətə diqqət edək:

"Bir naxırçı var imiş yoxsulluq içində əziyyət çəkirmiş. Novruz bayramı axşamı sürünü ğrüşdən qaytarıb sahiblərinə təhvil verəndən, xırda-para əmək haqqı qazanandan sonra bazara gedir. Qazandığı pula bir az çərəvəz və üç qırmızı alma alıb evə gəlirmiş. Yolda üç uşağın bərk mübahisə etdiyini və əlbəyaxa olduğunu görür. Ayaq saxlayıb uşaqları sakitləşdirir və nəyin üstündə mübahisə etdiklərini soruşur. Üç uşaqdan biri deyir.

Əmi, burada oynayırdıq, mən gördüm ki, uzaqdan bir daş işıldayır. Onu birinci mən göstərdim.

Ikinci uşaq deyir:

Əmi, daşı götürmək üçün birinci mən qaçdım.

Üçüncü uşaq deyir:

Əmi, daşı mən götürdüm.

Naxırçı deyir:

Mənim balalarım demək istəyirsiniz ki, biriniz daşı uzaqdan örüb, biriniz onun dalınca birinci qaçıb, biriniz də cəld tərpənərək birinci götürüb, hər biriniz istəyir ki, bu daş onunku olsun. Bu bayram axşamı evə daş aparmaqdansa hərənizə bir qırmızı alma bağışlayım. Evinizə qırmızı alma aparın. əvəzində daşıda mənə bağışlayın. Mən də daşı evdəki qarıya cəhrə daşı kimi istifadə etmək üçün bağışlayaram.

Uşaqlar naxırçıdan almanı alıb barışırlar. Sevinə- sevinə naxırçıdan uzaqlaşırlar.

Naxırçı cəhrə daşını götürüb evə yollanır. Və evdə başına gələni qarısına danışır. Qarısı çərəzləri kasıb süfrəyə düzür və daşı isə kasıb komadakı cəhrənin yanına tullayır

Günlərin bir günü böyük bir tacir ticarət səfərinə çıxarkən həmişə olduğu kimi, naxırçının qonağı olur. Naxırçının böyük həyat-bacası və kasıb külafirəngisi olduğu üçün və tacirdən heç bir haqq təlb etmədiyi üçün tacir dincəlməkdən ötrü buranı seçərmiş. Qaydası üzrə naxırçıya və onun ailə üzvlərinə köhnə pal-platar verərmiş. Naxırçı və onun külfəti tacirin qulluğunda yaxşı dayanar, dəvələrə su verib yedizdirər onları yıxızdırıb rahatlarmışlar. Bu dəfə də əvvəllər olduğu kimi naxırçının ailəsi tacirin karvanını yerbəyer edir. Tacir gecə hamı yatandan sonra qəlyanını alışdırmaq istəyir, naxırçının komasının bağçasında bərq vuran həmin daşın ocaq olduğunu güman edir. Yaxınlaşdıqda isə haqqında danışdığımız cəhrə daşını görür. Sən demə bu cəhrə daşı yox, çox qiymətli bir daş imiş. Bu daşdan külli miqdarda zinət əşyalarına qaşlar düzəltmək olarmış. Tacir qiymətli daşı görən kimi gözü kəlləsinə çıxır və öz-özünə fikirləşir; naxırçının belə daşı varsa, o, özünü, qəsdən kasıb adam kimi göstərir ki, onun belə daşlarına toxunan olmasın. O, hər cür fitnə ilə bu daşa sahib olmaq haqqında düşünür. Tələsik naxırçını yuxudan oyadır və onunla səmimi söhbətə başlayır. Tacir deyir:

Ay pir olmuş, mən rlə sənin bu qiymətli daşın kimi daşların ticarəti ilə məşğulam. Daha məni yola niyə vurursan. Sən bu daşı mənə ver, əvəzində yükləri al-qumaş, ipək olan yeddi dəvə verim!

Naxırçı güman edir ki, tacir onu ələ salır. O deyir:

Tacir qardaş, adam da kasıbı belə barmağına dolayar?!

Tacir fikirləşir ki, doğrudanda bu daşın qiyməti, yeddidəvəlik məbləğ deyil. Nahaq kişini belə qəzəbləndirirəm. Tacir deyir:

Onda yükü al qumaş olan on yeddi dəvəyə təklif edirəm.

Naxırçı əsəbləşib yenə deyir:

Tacir qardaş, sən məni lap uşaq yerinə qoydun.

Tacir tam əmin olur ki, naxırçı bu işin xiridarıdır. Ona görə deyir:

Köhnə dost, mənim yüküm cəmi al qumaş olan yetmiş dəvəm var. Sən mənə yaxşılıq elə. Əvəzində bütün karvanı al. Gələn səfərimdə mən bunun əvəzini tam çıxaram.

Naxırçı tacir dostunun onu təhqir etdiyini güman edir və qəzəblənərək deyir:

Daha bəsdir, hər kəs mənim bu cəhrə daşıma yükü al qumaş olan 70 dəvəlik karvanı dəyişməsə, lap onun atabaatasına lənət.

Tacir bu sözü gözləyirmiş kimi karvanbaşını çağırır və deyir:

Karvanı bu dostuma bağışlayır, əvəzində bu daşı alıram. Hazırlaş səhər tezdən qazının yanına gedib məsələni rəsmiləşdirmək lazımdır. Onlar sövdələşib yatırlar. Tacirin isə gözünə yuxu getmir. Fikirləşir ki, naxırçı daşın yetmiş yox, yeddi yüz karvanına müqabil olduğunu öyrənər və sonradan daşı ondan geri tələb edər.

Nəhayət növbəti fitnəyə əl atır. Düşünür ki, sövdəni qazı rəsmiləşdirərkən, tacir naxırçı ilə sığa qardaş olmaq haqqında hüquqi sənət də imzalatdırmağı təklif etsin. O fikirləşir ki, bir müddət sonra bu xəbəri naxırçıya çatdırar. Naxırçı sarsıntı keçirər, sonra bağrı çatlayar, ölər sonra da yetmiş dəvə yükü olan karvana da şərik olar.

Tacir elə də edir. Səhərisi gün sövdələşmə rəsmiləşəndən sonra niyyətini açır. Siğə qardaş olmaq təklifini sadəlövh naxırçı qəbul edir. Halallaşıb ayrılırlar.

Bir müddətdən sonra tacir öz planı üzrə siğə qardaşına baş çəkməyə gəlir. Onun cəh-cəlalını görür, tamah bir az da üstün gəlir. Tacir deyir:

Əziz siğə qardaşım sənə ciddi bir məlumat verəcəyəm. Sən heç bilirsən ki, o qaş-daşın qiyməti nə qədərdir?

Siğə qardaş deyir:

Nə qədər idi?

Tacir yenə niyyətinə tezliklə yetişmək üçün deyir:

Özünü bərk saxla deyim! Əziz qardaşım, bu daşın qiyməti, yetmiş karvanın yox, yeddi yüz karvanına müqabilindədir

Ancaq tacir olmuş naxırçı sadəlövhlüklə deyir:

Tacir qardaş, heç bilirsən, bu daşı mən neçəyə almışam.

Neçəyə almısan?

Siğə qardaş cavab verir:

Üç almaya!!!

Neçəyə? – deyə tacir ah edərək təəccübündən yerə dəyir, bağrı patlayıb ölür. Bütün var-dövləti də qazının hüquqi sənədinə görə, sabiq naxırçıya qalır. ”

Xalq pedaqogikası nümunələrində bu ideya daha çox oyunlarda öz əksini tapmışdır. Xalq arasında ən populyar olan “Xan-Vəzir”oyununun bir variantını nəzərdən keçirək.

“Xan-Vəzir” oyununun əsas personajları xan, onun vəziri, vəkili, hüquq işçiləri və ittiham olunan şəxsdir. Oyunun yüzlərlə variantı var. Həmin variantların hamısını xan, onun vəziri, vəkili, hüquq işçiləri iştirak edir. Lakin ittiham olunanların şəxsiyyəti müxtəlif olur. Variantın birində ittiham olunan oğru, birində naməlum şəxs, birində çapar, birində tacir və s bu kimi zümrələrdən olanlar iştirak edirlər. Oyun belə başlayır.

Xan öz taxtında oturmuşdur, onun qiyafəsi çox əzəmətlidir, iqtidar görkəmindədir. Bir tərəfdən vəzir, bir tərəfdən vəkil oturur. Hüquq işçiləri əsasən sərbazlardan mühakimə edənlərdən ibarətdir. Vəzirin, vəkilin rəyi əsasında xan son söz dedikdən sonra cəllad icraçı kimi prosesdə iştirak edir. Sərbazlar əyalətin səhəddini pozan adamı tutub hüquq işçilərinin yanına gətirirlər. Hüquq işçiləri onu sorqu-suala tutandan, məsələni aydınlaşdıran- dan sonra iqtidarın hüzuruna gətirir və onların hüzurunda belə bir müraciət edir:

Xan, bir adam tutmuşuq.

Xan deyir:

Vəzir soruş görək, haradan gəlib, haraya gedəndir, nə yolun yolçusudur?

Vəzir deyir:

Möhtərəm xan, icazə verin vəzir bu işi aydınlaşdırsın və s bu oyun beləkilə davam edir.

Xalq pedaqogikasında hüquq tərbiyəsindən danışarkən ailədə hüquq tərbiyəsi problemınədə münasibət bildirmək lazımdır. Ailə tərbiyəsi ilə bağlı xalq məsəllərinə nəzər yetirsək orada ailənin düzgün qurulması, atanın-ananın və övladların hüquqları ilə bağlı xeyli sayda nəsihətlərə, tövsiyələrə və müdrik kəlamlara rast gəlmək olar. “oğul atasından görməyincə, oğul olmaz”, “düz söz kəsərli olar”, “dövlətdə dəvə, övlatda nəvə” və s bu kimi xalq məsəllərin arxasında mühüm hadisələr durur.

Azərbaycan xalq pedaqogikası materiallarında hüquq tərbiyəsi ilə bağlı fikirlərə çox təsadüf olunur. Nümunə üçün xalqımızın tarix boyu hansı hərəkətləri, nələri qadağan

hesab etdiyini xatırlamaq yerinə düşər. Ulu bab və nənələrimiz həmişə oğruları, canıləri başqasının izzət-namusunu ləkələyənləri, xalqa, cəmiyyətə xətər gətirənləri və szidd olan hərəkətləri yasaq hesab etmişlər. Xalqın fikrincə "hamı qanunun qulu olmalı", ədalətli, qanun qarşısında haqq yolunu azanların, rüşvətxorların,qatillərin "boynu qildan da nazik olmalı"dır. Xalqın qadağan hesab etdiyi hərəkətlərə qurşananlar nağıl və dastanlarımızda pislənir və haqq-ədalət divanı qarşısında rüsvay olunur.

Xalq pedaqogikası materialları "Qanun keşiyində durub" qanunsuz hərəkətlərə yol verən qazıları da ifşa edir. Bu baxlmdan lətifələrimizdən istənilən qədər nümunə gətirmək olar.

Xalqın qəti qənaətinə görə, hər kəs öz hüququnu bilməli və qorumalı, izzəti-nəfsini, mənliyini qiymətləndirməyi bacarmalı,eyni zamanda başqasınında hüququna toxunmamalıdır. Hətta qisası da qanun əsasında almalıdır: "Qanı, qan ilə yumazlar", "Qan eylə qasidi ilə" deyiblər. Ancaq müqabil tərəf bunu başa düşmək istəmədikdə yaxud bilə-bilə hüquq qaydalarını pozub "qan tökməyə" hərislik göstərdikdə isə onu susdurmaq, yerində oturtmaq, həddini başa salmaq naminə ən şiddətlitədbirə əl atmaqdan çəkinmək lazım deyil. Bu mənada xalqın "Qana-qan deyiblər", "Qanlını qan tutar", "Ölümə-ölüm, qana-qan" qəbilli nidaları yerində səslənir.

## Mövzu 11. Azərbaycan etnopedaqogikasında iqtisadi tərbiyə məsələləri

### Plan

- **İqtisadi tərbiyənin vacibliyi**
- **İqtisadi tərbiyə barədə xalq fikirləri**

### Ədəbiyyat


- Qurani-Kərim (Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsi), Bakı, «Azərnəşr», 1992.
- Ə.Həşimov.Məktəblilərin hüquq tərbiyəsi,«Azərbaycan məktəbi» jurnalı, 1992, №1-2
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası (dərslik). Bakı, «Ünsiyyət»,2000.
- N.Kazımov, Ə.Həşimov. Pedaqogika. Bakı, «Maarif», 1996.
- Atalar sözləri. Bakı, «Azərnəşr», 1985.
- İ.İbrahimov. Atalar sözü və məsəllər. (Tədqiqlər), I cild, Bakı, 1961.
- Atalar sözü və məsəllər. Bakı, 2007.


- **İqtisadi tərbiyənin vacibliyi.** İqtisadi tərbiyədən danışmazdan əvvəl qeyd etməliyik ki, «iqtisadiyyat» yunanca «ekonomika» sözündəndir. Mənası «ailə təsərrüfatını

idarə etmək»dir. Zaman keçdikcə bu sözün həm coğrafıyası, həm də məna tutumu genişlənmişdir. Yəni, bu gün bütün dünyada «iqtisadiyyat»-«ekonomika» dedikdə, ölkədə maddi nemətlərin istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı başa düşülür.

Bir halda ki, iqtisadiyyat bu qədər həyati əhəmiyyət daşıyan sahədir, demək, böyüməkdə olan nəslə düzgün iqtisadi tərbiyə vermək zəruridir. Ötən onilliklərdə elmi pedaqogika iqtisadi tərbiyəni əxlaq tərbiyəsinin tərkib hissəsi kimi səciyyələndirirdi; ayrılıqda «iqtisadi tərbiyə» anlayışı yox idi. Hazırki yaşam tərzimiz, bazar münasibətləri onu aktuallaşdırmış və tərbiyənin ayrıca tərkib hissəsinə çevirmişdir. Elmi pedaqogika iqtisadi tərbiyə dedikdə, gənc nəslin iqtısadi şüur və iqtisadi mədəniyyətinin formalaşdırılmasını, onlarda təsərrüfatçılıqla bağlı bacarıq və vərdişlərin yaradılmasını nəzərdə tutur.

Xalq pedaqogikası materiallarında "iqtisadi tərbiyə" ifadəsinə rast gəlməsək də, əcdadlarımız hər şəxsin iqtisadi cəhətdən təmin olunması, imkansız adamlara kömək edilməsi, ac-yalavaclara əl tutulması, iqtisadi bəlalara qarşı birgə mübarizə aparılması ilə bağlı qiymətli fikirlər söyləmişlər. Bu qiymətli fikirlər atalar sözü, məsəllərdə, tapmacalarda, rəvayətlərdə, inanclarda və sə bu kimi etnopedqoji nümunələrdə zö əksini tapmışdır. "Ağ itin pambıqcıya zərəri var", "Arpa əkən buğda biçməz", "Bağ vaxtı bağbanın qulağı ağır eşidər", "Qaz vur qazan dolsun, toyuqdan nə fayda", "İtə çörək atarlar yiyəsi xətrinə", "Ərin geydiyini istəməsə də, qarın yediyini istər", "Yaxşı biçinçi xərcini yerdən çıxardar", "Öz çörəyini pzgə süfrəsində yemə" kimi öyüd-nəsihətlər də xalqımız həmişə öz iqtisadi problemlərinhəllində müdriklik göstərmişdir.

Ona görə də iqtisadi tərbiyə məsələlərinə ciddi fikir verilməlidir. Xalq pedaqogikası materiallarında müxtəlif formada təkrar-təkrar deyilibdir ki, iqtisadiyyat olmasa cəmiyyət yaşaya bilməz, qənaətinə riayət edən yoxsulluğa uğramaz, kim qənaətçiliyə əməl edərsə, varlanır, israfçılığa yol verərsə, yoxsul hala düşür, qənaət dolanışığın yarısıdır, çörəyin ətri ananın xətri qədər xoşdur, çörək itirən çörək tapmaz, hər şeyi vaxtında əksən dürr bitər və s.

Babalarımız, nənələrimiz xüsusi məktəblərdə planlı və mütəşəkkil surətdə iqtisadi təhsil almasalar da, iqtisadi məsələləri əksər hallarda çox müdrikcəsinə həll etmişlər. Zəhmət adamları əməyin təşkili formaları, qazanılmış zəhmət haqqından səmərəli istifadə məsələlərində səriştəli olmuşlar: torpağa necə qulluq etmək, məhsulu nə vaxt toplamaq, müvafik regionda təsərrüfatın hansı növü və s bu cür iqtisadi məsələlər sahəsindəzəngin təcrübə qazanmışlar, vaxt büdcəsindən düzgün istifadə etmək, işgüzarlıq və sahibkarlıq keyfiyyətləri ilə fərqlənmişlər. Həqiqətən obrazlı ifadəsi olan həmin kəlamlar indi də öz təravətini saxlamaqda davam edir: "Torpağın qarası üz ağardar", "Torpaqnan oynayan ac qalmaz", "Torpağa bax deyiblər", "Torpaq deyər: döy məni doyurum səni!", "Torpaq deyər: öldürməni dirildim səni!", "Torpaq deyər: sən mənə tər ver, mən sənə zər verim", "Qar yerin yorğanıdır" və s. Gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsində ata-analar, müəllim və tərbiyəçilər uşaqlar məhsuldar qüvvələrin yetişdirilməsində

respublikanın təbii coğrafi şəraitinin nəzərə alınması faktı ilə, həmçinin tarixi- milli amillərlə, xalqın iqtisadi sahə ilə bağlı ənənələri və folklor nümunələri ilə yaxından tanış edilməlidir. Bunlarsız isə böhran keçirməkdə olan iqtisadi həyatı köklü surətdə sağlamlaşdırmaq, onu irəliyə doğru sürətli və səmərəli inkişafını təmin etmək mümkün olmaz. Uşaqlarla adi ünsiyyət prosesində, eləcə də təlim-tərbiyə işində yeri gəldikdə istifadə etmək üçün valideyn, müəllim və tərbiyəçilərə kömək məqsədi ilə Azərbaycan xalqının yaratdığı ilk növbədə məhz iqtisadiyyata aid aforistik fikirlərindən bəzilərini qeyd edək:

Əvvəl təam, sonra kəlam.

Acın imanı olmaz.

Acın gözü çörək təhnəsində olar.

Qənaət xəzinədir.

Qənaət tükənməz bir dövlətdir.

Israf haramdır.

Bağ salan barın yeyər.

Dağ başında xırman düzəltməyin, sovurarsınız, yel aparar, dağ döşündə eədyirman qurmayın, üyüdərsiniz sel aparar.

Yazın hərəkəti- qışın bərəkəti.

Yayda başı bişənin qışda aşı bişər.

Işləyən inci tapar, işləməyən yandan baxar.

Cavanlıqda zəhmət çəkən qocalanada möhnət çəkməz.

Cəhrə əyirərsən don geyinərsən.

Vaxtını itirsən əgər, görərsən böyük zərər.

Çörək yerə düşsə, yaxud bilməyib çörəyi ayaqlasan, gərək onu götürüb üç dəfə öpəsən və gözünün üstə qoyasan, yaxsa çörək adama qənim olar.

Düyünü yerə atmazlar, atsalar bərəkəti qaçar.

Daş üstdə əkin olmaz.

Əkən biçər, əkməyən nə biçər?

Biçinçi haqqını yerdən götürər.

Duman, şeh məhsuldarlığı artırır.

Qarlı qış barlı olar.

Gecə ayaz, gündüz duman – ilin kürüdür, kürü;

Gündüz ayaz, gecə duman – ilin gülüdür, gülü.

Qarışqadan ibrət al, yaz ikən qışa hazırlaş.

Bağa bax üzüm olsun, yeməyə üzün olsun və s.

Bu kəlamlar uşaqlarda qənaətçil təsərrüfatçı keyfiyyətləri, ərzaq məhsullarına və çörəyə qayğıkeş münasibət vaxtından səmərəli istifadə etmək, zəhmətə əkin biçinə məhəbbət və s keyfiyyətləri tərbiyə etməkdə geniş istifadə olunmalıdır.

Qədim dövrlərdə insanlar sözün möcüzəsinə dərin inam bəsləyərək il quraqlıq keçəndə yağış yağdırmaq, yağmurlu keçəndə günəşi çağırmaq, hava dumanlı olanda dumanı qovmaq və beləliklə də iqtisadi baxımdan vəziyyətlərini yaxşılaşdırmaq məqsədilə müxtəlif məzmunlu nəğmələr oxuyar, iqtisadiyyatın asılı olduğu qüvvələrə sözlə təsir etməyə çalışmışlar. Misal üçün xırmanda döyülmüş taxılı heşan atmaq zamanı külək əsməyənədə belə deyərmişlər:

A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.

Yaşlı nəsil uşaqlara söz vasitəsilə təsir edərək onları inandırmışlar ki;

Ilin apyız fəsli ilə yazın əvvəlki ayları yağmurlu keçəndə, yaxud qozağacından, ağacaqovandan yarpaqlar təmiz töküldü, deyərlər, il yüngül keçəcək, məhsul da bol olur.

Çörəyi bıçaqla doğramaq günahdır. Xeyir-bərəkəti qaçar, qıtlıq doğurar. Odur ki, çörəyi əllə kəsmək olar. "Çörəyi əllə kəsmək evdə bərəkətin bolluğudur. Çörəyin tamlığıdır".

Ulularımız uşaqların düşmənə qabiliyyətini inkişaf etdirməkdən iqtisadi cəhətdən zəruri olan biliklərlə silahlandırmaqdan ötrü tapma- ca lar, sayaçı sözlər,bayatı, nəğmə və s növ qiymətli etnopedaqoji materiallar yaratmışlar. Budur onlardan bir neçəsi.

O nədir ki, üstü taxta altı daş (vəl).

Burdan batar, ordan çıxar; qılçıq atar yonca bitər (xış və əkin).

A kişi-kişi dəmirdən dişi, yeyər buğdanı, qalar küləşi (oraq və vəl ).

Bizim evdə bir kişi var təpəsində üç dişi var (yaba).

Çəpər üstə çal xoruz (boranı)

Hallanar, hullanar, yaşıllanar, sallanar (xiyar) və s.

Bir neçə nümunə də bayatı. Sayaçı sözü və holavarlardan verək.

El köçdü dağ bağşına,
Yar örtüb ağ başına.
Könlü yemiş istəyən,
Dolanar tağ başına.

Bağ salıb gül əkməyən,
Gülün yerə tökməyən,
Balın qədrin nə bilər
Arı qəhrin çəkməyən?

Nənəm, a şışək boyun,
Yunu bir döşək qoyun,
Bulamanı bol elə,
Ölməsin uşaq, qoyun.

Üstü zəmi biçərəm,
Altı bulaq içərəm.
Bir şişəyin yolunda,
Candan-başdan keçərəm.

Öküzlər qoşa getdi,
İşlədi coşa getdi.
Kotan macı qırıldı,
Zəhmətim boşa getdi.

Qara kəl gedər işə,
Qorxum var bağrım bişə,
Nola bir bulud gələ,
Yağış yağa, nəm düşə.

Ona görə ki, ölkəmizdə gedən iqtisadi islahatların bütün mərhələlərində xalqımızın müdrik kəlamlarına ehtiyac vardır.

Bəs elmi pedaqogikaya yeni gəlmiş bu mövzuya xalqın münasibəti necədir? Tarixi olaylar onu bu barədə düşündürmüşdürmü? Şübhəsiz, düşündürmüşdür. Azərbaycan xalqı müdrik xalq olduğu üçün çox əhəmiyyətli bir tərbiyə istiqamətini diqqətdən kənarda saxlaya bilməzdi.

- **İqtisadi tərbiyə barədə xalq fikirləri**

Xalqın tarixi yaşam tərzini və söz saxlanclarındakı inciləri araşdırdıqda görürük ki, əmək prosesi, zəhmət, halal ruzi, qazanc, ailə dolanışığı gündəlik və qaçılmaz qayğılardan biri olmuşdur. Əkinçilik, maldarlıq, heyvandarlıq və xalçaçılıq onun ən qədim məşğulluq növüdür. Lakin zamanın tələbi və inkişaf axını ilə bağlı sənətin müxtəlif sahələrində də uğurlar qazanılmışdır. Bunlar hamısı iqtisadiyyatın qaynaqlarıdır.

Böyüməkdə olan nəsli təsərrüfata və sənətə bağlamaq, onlara iqtısadi biliklər vermək və əmək məhsuldarlığını artırmaq baxımından bu günümüzə gəlib çatmış öygülər, mahnılar, holovarlar, sayaçı sözləri, tapmacalar, atalar sözləri, tövsiyələr, nağıl və dastanlar var. Elə buradaca qeyd edək ki, Müqəddəs Kitabımızın müddəaları və Peyğəmbər Əleyhissəlamın kəlamları da iqtisadi tərbiyə işində xalq üçün əsas olmuşdur.

Məsələn, dinimizə görə, israfçılıq haramdır. Yer üzündəki nemətlər ondan istifadə

edənlərin sayı qədərdir. Əgər kimsə israfçılıq edirsə, deyək ki, su krntını açıq qoyub onu boş-boşuna axıdırsa, kıminsə, hansı heyvanınsa, bitkininsə haqqını kəsir. Heç düşünməsin ki, evdə tək özüdür, həyətində bağı, tövləsində mal-qarası yoxdur. Yaranan nemət yer üzündəkilərin hamısınındır, bir ailənin və ya bir nəslin yox.

İqtisadi tərbiyə ilə bağlı Müqəddəs Kitabımızda deyilir:

«Qohum-əqrabaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) müsafirlərə də haqqını ver. Eyni zamanda mal-dövlətini də əbəs yerə sağa sola səpələmə» («Əl-İsra» surəsi, ayə:26).

«Həqiqətən malını əbəs yerə sağa sola səpələyənlər Şeytanın qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur» (ayə:27).

«Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa, qınanarsan, həm də peşman olarsan» (ayə: 29).

«Ölçəndə ölçüdə düz olun, düzgün tərəzi ilə çəkin. Bu (sizin üçün) daha xeyirli və nəticə etibarilə daha yaxşıdır» (ayə: 35).

Mövzu ilə bağlı İslam Peyğəmbərinin bir neçə kəlamına da diqqət yetirək:

- Könüldən keçən hər şeyi yemək israfçılıqdır.
- Acların deyil, yalnız toxların dəvət edildiyi ziyafət məclislərindəki yeməklər ən pis yeməklərdir.
- İbadət yetmiş qapıdır (qismdir), bunlardan ən üstünü halal yolla ruzi qazanmaq üçün çalışmaqdır.
- Tanrı rəhm etsin o kişiyə ki, halal yolla qazanır, təmiz niyyətlə yoxsullara pay verir, yaman günləri üçün də saxlayır.
- Qənaətə riayət edən yoxsul olmaz.
- Kim bahalaşsın deyə satdığı məhsulu ümmətimdən qırx gün gizləyib saxlasa və sonra onu sədəqə olaraq verərsə, belə sədəqə qəbul olunmaz.
- Qoyun saxlamaq bərəkətdir, dəvə sahibi olmaq şərəfdir, ucalıqdır, ata gəlincə, xeyir qiyamətədək atların yalmanındadır.
- Çəkinin başqasından borc almaqdan, çünki, borc adamla bahəm gecələyən dərddir, kədərdir, sıxıntıdır, fikirdir, gündüzlər isə adamı alçaldandır.

Göründüyü kimi, həm Kitabımızın hökmləri, həm də Peyğəmbərimizin tövsiyələri düz və doğru yolla ruzi qazanıb yaşamağa, xeyriyyəçiliyə, amma zəhmət çəkib qazandığını havaya sovurmamağa, xəsislik də etməməyə, lazımi məqamlarda hər zaman səxavətli olmağa səsləyir.

Xalqımızın tarixi adət-ənənələri və söz saxlancında sabitləşmiş qənaətlər də məhz bu ruhdadır. Nəzərə alsaq ki, soy kökümüzün tarıxi dinimizdən qədimdir, onda məmnunluqla deyə bilərik ki, biz İslamdan əvvəlki dövrlərdə də alın təri ilə qazanılan halal ruzinin tərəfdarı olmuşuq. Çörəyi müqəddəs saymış, süfrəsi açıq, özü səxavətli olan insanları çörəkli kişi kimi tanımışıq. Ailəni dolandırmaq üçün çalışmaqdan yorulmayan adamlara hüsn-rəğbət göstərmişik. İslamiyyəti qəbul etdikdən sonra bu keyfiyyətlər bir qədər də

möhkəmlənmiş və xalqın milli xüsusiyyətinə çevrilmişdir.

Təsərrüfatçılıqda əsrlər boyu qazanılmış təcrübə həyat məktəbi səviyyəsinə çatmışdır. Torpaqla işləmək qaydaları, əkin-biçin tərzi, bağ-bostana qulluq, maldarlıq və heyvandarlığın fəsil dəyişmələri ilə bağlı qayğıları böyüməkdə olan nəslə öyrədilməklə əsrdən-əsrə adlamışdır.

Xalq məşğul olduğu bütün əmək sahələrini sözün qüdrətilə vəsf edərək, böyüyən hər kəsə sevdirmişdir. Məsələn, cütçü nəğmələrinə diqqət yetirək:

**Cücər arpam**

**Atdım arpanı torpağa,**
**Qatdım yarmanı torpağa,**
**Qara eldən boylan gəl,**
**Qar altından haylan gəl,**
**Telli sünbülüm gəzər,**
**Yeli xırmanı bəzər.**
**Yaman günün yaşamı,**
**Bərəkətin amanı.**
**Cücər, ay arpam, cücər,**
**Cücər, ay arpam, cücər.**

**Əkin, çəltiyi əkin**

**Ağ çəltiyin iki başı,**
**Darı onun yoldaşı,**
**Şitili bir-bir düzün,**
**Arada yoxdur naşı.**
**Əkin çəltiyi, əkin,**
**Çəltiyə çəpər çəkin.**
**Biçini biçər, gələr,**
**Dağ suyun içər, gələr.**
**Hər il biçin vədəsi**
**Biçinçi uçar gələr.**
**Əkin çəltiyi, əkin,**
**Çəltiyə çəpər çəkin.**

Çoban, ovçu, hana, inəkçi, balıqçı və digər əmək nəğmələri də bu cür işin ağırlığını sezdirməyərək, əksinə, onu sevdirəcək tərzdə qoşulmuşdur.

Eyni zamanda gənc nəslə əməyi sevdirmək və iqtisadi tərbiyə vermək məqsədilə müxtəlif üsullardan istifadə etmişlər. Lakin əyanılıyi çox vacib saymışlar. «Göz gördüyünü götürər», «Dünya gör-götür dünyasıdır» prinsipinə əsaslanaraq uşaqları gücləri

çatan əmək prosesinə qoşmuş, bu zaman nümunə və izahat metodıkasından istifadə etmişlər. Bütün nümunə və izahatların sonu müdrik bir kəlamla ümumiləşdirilmiş, beləliklə də, dinləyənin (uşağın, gəncin) «Qulağından sırğa edilib asılmışdır». Məsələn, «Saxla samanı, gələr zamanı», «Saxla gönü, gələr günü», «Artıq tamah baş yarar», «Bağ salan barın yeyər», «Bal kəsən barmaq yalar», «Yayda başı bişənin qışda aşı bişər», «İşləyən inci tapar, işləməyən yandan baxar», «Cavanlıqda zəhmət çəkən qocalıqda möhnət çəkməz», «Qonşuya ümid olan, şamsız yatar», «Ağa kimi yaşamaq üçün nökər kimi işləmək gərək», «Qoyunu köpəyə tapşıran kababı qurda yedirər», «Yunlu qoyunu qurd yeməz», «Qoyunlu evlər gördüm, qurulu yaya bənzər, qoyunsuz evlər gördüm, qurumuş çaya bənzər», «Bir buğda əkməsən, min buğda biçməzsən», «Səbr ilə halva bişər, ey qora, səndən, bəslənən atlaz olar tut yarpağından» və s.

İqtisadi tərbiyənin bir istiqaməti də **qənaətcilliyə** təşviqdir. Qənaətcillik hazır nemətlərin israfçılığa yol vermədən məsrəf olunmasıdır. Nəyə görə deyilir ki, « Evi qadın tikər?»  Çünki ailədaxili təsərrüfatın vəziyyətini o daha yaxşı bilir. Gələn qazancı o yerbəyer edir, yaxud yerbəyer etmək üçün məsləhətlər verir. Evi məhz qadının tikməsi məntiqində onun ağlı ilə qənaətcilliyinin vəhdəti dayanır. Lakin bu o demək deyil ki, kişinin israfçılğı məqbuldur.

Qənaətin hamı üçün zərurət olduğunu xalq böyüyən nəslə həm məişətdə, həm də həkimanə kəlamlar vasitəsilə təlqin etmişdir. «Ruzi müqəllibdir »,«Çay həmişə selinti gətirmir»,«Sel həmişə kötük gətirmir »,«Qara gün üçün ağlamaq gərəkdir » və s. tövsiyə sözlərin özəyində məhz həmin məntiq dayanır.

«Ruzi müqəllibdir»,yəni qəlibdən-qəlibə düşəndir,dəyışəndir; bu gün çoxdursa,sabah azala bilər. Eləcə də aramsız leysan yağışlar yağanda çay qarşısına çıxan ağacları kötüyündən qoparıb gətirir. İnsanlar selintini toplayıb meşəyə getmədən, dəhrə-balta işlətmədən odun sahibi olurlar. Amma hər gün leysan yağmır; sel də olmur, selinti də. Odur ki, qənaət edib nə vaxt üz verəcəyi bilinməyən, amma labüd olan dar gün üçün «ağlamaq»  - dal yana ehtiyat atmaq məsləhətdir.

Professor Ə.Həşimov xalq pedaqogikasında iqtisadi tərbiyədən danışarkən qeyd edir ki, «Babalarımız, nənələrimiz xüsusi məktəblərdə planlı və mütəşəkkil surətdə təhsil almasalar da, iqtisadi məsələləri əksər hallarda çox müdrikcəsinə həll etmişlər. Onlarda ciddi əmək intizamı olmuşdur. Zəhmət adamları əməyin təşkili formaları və qazanılmış zəhmət haqqından (yaxud, əldə edilən gəlirdən) səmərəli istifadə məsələlərində səriştəli olmuşlar: torpağa necə qulluq etmək, yaxşı bəhrə əldə etmək üçün harada, nə vaxt, nə və necə əkmək, məhsulu nə vaxt toplamaq, müvafiq regionda təsərrüfatın hansı növü, hansı sahəsi ilə məşğul olmaq və s. bu cür iqtisadi məsələlər sahəsində zəngin təcrübə qazanmışlar; vaxt büdcəsindən düzgün istifadə etmək, işgüzarlıq və sahibkarlıq keyfiyyətləri ilə fərqlənmişlər» (Bax. «Azərbaycan xalq pedaqogikası», Bakı, 1993, səh. 266).

Xalq böyüməkdə olan nəslə əməyi hələ kiçik yaşlarından sevdirmək və onları əməyə

bağlamaq üçün tapmacalar da qoşmuşdur: «Dam üstündə dana dingildər» (Sac və qovurğa), «Alçaq damdan qar yağar» (Ələk və un), «Bizim evdə bir kişi var, təpəsində üç dişi var» (Yaba), «Gəzər eli, obanı, altı ayağı var, iki dabanı» (Tərəzi) və s.

Xalqın iqtisadi tərbiyə ilə bağlı sınaqları da var. Bu sınaqlar uzun illərin təcrübəsi və həyati müşahidələr nəticəsində yaranaraq özünü doğrultmuşdur. Məsələn: Çərşənbə axşamı bostana girməzlər, bostan tez solar; xiyar dərməzlər, sonrakı dəfələrdə xiyar acı olar; qışa saxlanılacaq meyvəni şənbə günü dərməzlər, çürüyər; ev tikmək üçün meşədən ağacı ayın qaranlığında kəsərlər, ay işığında kəsilən ağacı qurd yeyər; bir kimsə sizə ağartı payı göndərsə, qabı boş geri qaytarmayın, dibinə azca duz, yaxud su tökün, yoxsa o evdə ağartının bərəkəti qaçar; yaşlaşıb qocalmış ağacı ayın qaranlığında budayın ki, yazda yaxşı pöhrələnsin və s.

Onu da qeyd etmək lzımdır ki, xalq pedaqogikasında iqtisadi tərbıyə ilə əmək tərbiyəsi eyniyyət təşkil edir. Yəni, baba və nənələrimiz öz övladlarına əmək tərbiyəsi verərkən, həm də iqtisadi tərbıyə vermişlər.

## Mövzu 15.
## Ailə - xalq tərbiyəsinin əsas daşıyıcısıdır

**Plan**

- **Uşağı ərsəyə, boya-başa çatdırmaq anlayışı və onun məzmunu**
- **Xalq pedaqogikası anlayışlarının elmi pedaqogika anlayışları ilə vəhtdəti**

**Ədəbiyyat**


- Ə.Həşimov. Azəraycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, «Maarif». 1970.
- Ə.Həşimov. Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə. Bakı, «Maarif». 1991.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı, «Patronat», 1993.
- Ə.Həşimov, F.Sadıqov. Azərbaycan xalq pedaqogikası (dərslik). Bakı, «Ünsiyyət». 2000.


● **Uşağı ərsəyə, boya-başa çatdırmaq anlayışı və onun məzmunu.** Hər bir elmin özünəməxsus qanunauyğunluqları, terminləri, anlayışları var. Bunsuz mümkün deyil. Xalq pedaqoqikasının əsas anlayışı **uşağı ərsəyə, boya-başa çatdırmaqdır**. Bu anlayış uşağın dünyaya gəldiyi vaxtdan ilkin gənclik dövrünə qədər bir zamanı əhatə edir. **Ərsə** sözünün bir neçə mənası var. Bir mənası da **meydan**dır. Xalqın təbirində «uşağı ərsəyə çatdırmaq»-böyüdüb **meydana çıxarmaq** deməkdir. Bunun üçün isə uşağı boya-başa çatdırmaq lazımdır. Elmi pedaqogikanın anatomik – fizioloji və psixoloji inkişaf dövrü

kimi səciyyələndirdiyi mərhələ elə budur. Ərsəyə çatdırmaq anlayışı insanın bir neçə mərhələyə (çağalıq, uşaqlıq, yeniyetməlik, ilkin gənclik) keçdiyi inkişaf yolunu əhatə etdiyi üçün əsas anlayış olmaq etibarilə məzmununda bir sıra anlayışları birləşdirir. Onlar **uşağa qulluq etmək, tərbiyə etmək, yenidən tərbiyə etmək, öz-özünü tərbiyələndirmək, öyrətmək, öyrənmək, vərdiş etmək, vərdiş etdirmək, oxumaq, təhsil, təlim almaq** anlayışlarıdır.

Bu anlayışların hər birinin məna tutumu digəri ilə əlaqəli olmaqla cəm halında şəxsiyyətin inkişafına xidmət edən pedaqoji prosesi yaradır.

**Uşağa qulluq etmək** anlayışı körpəlik və uşaqlıq dövrünü əhatə edir. Qulluq körpənin dünyaya gəldiyi gündən başlanır. Onun sağlam böyüməsi üçün gigiyenik tələblərə cavab verən sakit, rahat mühit yaradılır; düzgün və vaxtında qidalandırılması, yuyundurulması, geyindirilməsi, bələnib qundaqlanması, gəzintiyə çıxarılması böyüklərin, xüsusən, ana və nənənin diqqət mərkəzində dayanır.

Uşağa qulluğun folklor hədiyyəsi laylalar; oxşama və nazlamalardır. Layla asta musiqili səslə oxunur və çağalıq vaxtından başlanaraq uşağı bir neçə il müşayiət edir. Onun ruhuna sığal çəkir, ən zərif tellərlə anaya, ailəyə, həyata bağlayır.

**Tərbiyə anlayışı** uşaq dünyaya gəldiyi andan tam formalaşma başa çatanadək keçən dövrü əhatə edir. Çağalıq dövründən sonra yeriyən, danışan, bir an bir yerdə dayanmayan uşağın sağlam böyüyüb boy atması, ağıllı olması, hərtərəfli inkişaf etməsi qayğısına qalır. Xalq uşağın həyatına yeni tərbiyə vasitələri daxil edir, pedaqoji işin radiusunu genişləndirir, tələbləri artırır. Oturaq və hərəkətli oyunlar, alleqorik nağıllar, düzgülər, sanamalar və s. folklor nümunələri uşaqların həyatını bəzəyir və düzgün ərsəyə çatmasına kömək edir. Tədriclə qızlarla oğlanların oyunları ayrılır. Qızlar daha çox xanımlıq, evdarlıq təlqin edən, oğlanlar hünər, bacarıq, fiziki qüvvə yaradan oyunlar oynayırlar. Böyüklər onların düzgün, aydın, məntiqli danışığı, sağlam təfəkkürü qayğısına qalır.

Mənbələrin təhlili göstərir ki, xalqımız tərbiyəyə yüksək tələbkarlıqla yanaşmış və onun nəticələrini özünəməxsus tərzdə dəyərləndirmişdir. Sözlərlə rəğbətləndirmə, hədiyyələrlə mükafatlandırma gündəlik məişət qanununa çevrilmişdir. Lakin oğlanların tərbiyəsində ən ali məqam onlara əməllərinə görə ad verilməsi olmuşdur. Dünyanın nadir ədəbi-tarixi abidələrindən sayılan «Kitabi-Dədə Qorqud» dastanlarında həmin adət-ənənə qorunmuş, sorağı günümüzədək gəlib çatmışdır. «Dirsə xan oğlu Buğac xan boyu»nda xanın nəzir-niyazla tapılmış yeganə oğluna ad verilməsi belə təsvir olunur: «Deyilənə görə, Bayandır xanın bir buğası və bir buğrası[3] vardı. O buğa bərk daşa buynuz vursa, un kimi üyüdərdi. Bir yazda, bir də payızda buğa ilə buğranı savaşdırardılar. Bayandır xan Qalın Oğuz bəyləri ilə tamaşaya baxar, əylənərdi.

Bir dəfə, sultanım, yenə yazda buğanı saraydan çıxardılar. Dəmir zəncirli buğanı üç kişi sağdan, üç kişi də sol yandan tutmuşdu. Gəlib meydanın ortasında qoyub getdilər. Bu vaxt Dirsə xanın oğlu üç uşaqla meydanda «Aşıq-aşıq» oynayırdı. Buğanı qoyub gedəndə

[3] Buğra- erkək dəvə, nər

oğlanlara «qaç» dedilər. Oğlanların üçü qaçdı. Dirsə xanın oğlu qaçmadı. Hündür meydanın ortasında durdu-baxdı. Buğa da hücum edib oğlana sarı gəldi. İstədi ki, oğlanı həlak etsin. Oğlan buğanın alnına çəpəki bir zərbə vurdu. Buğa dalı-dalı getdi, geri qayıdıb oğlana hücum etdi. Oğlan yenə buğanın alnına möhkəm bir yumruq vurdu; bu dəfə buğanın alnına yumruğunu dayadı, itələyib meydanın başına çıxardı.

Oğlanla buğa xeyli çəkişdilər. Buğanın iki kürəyi üstündə köpük durdu. Nə oğlan, nə də buğa üstün gəldi. Oğlan fikirləşib öz-özünə dedi: «Bir dama dirək vururlar, o dama dayaq olur. Mən niyə bunun alnına dayaq olub dururam?» Yumruğunu buğanın alnından çəkib, yolundan atıldı. Buğa ayaq üstündə dura bilmədi, yıxıldı; təpəsi üstə düşdü. Oğlan bıçağına əl atdı. Buğanın başını kəsdi.

Oğuz bəyləri gəlib, oğlanın başına toplaşdılar, əhsən dedilər. «Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun; özüylə götürüb atasının yanına getsin. Atasından oğlana bəylik istəsin, taxt alıb versin», - dedilər.

Çağırdılar, Dədə Qorqud gəldi. Oğlanı götürüb atasının yanına getdi. Dədə Qorqud oğlanın atasına söyləmiş, görək, xanım, nə söyləmiş-demişdir:

**Hey Dirsə xan! Oğlana bəylik ver,**
**Taxt ver, - güclüdür, ərdəmlidir.**
**Boynu uzun bədəvi at ver,**
**Qoy minsin, hünərlidir!**
**Yaylağından on qoyun ver,**
**Bu oğlana şişlik olsun, cüssəlidir!**
**Qaytabandan qızılı dəvə ver bu oğlana,**
**Qoy yükləsin, hünərlidir!**
**Qızıl tağlı hündür ev ver bu oğlana,**
**Kölgə olsun, ərdəmlidir!**
**Çiyni quşlu cübbə – don ver sən bu oğlana,**
**Qoy geyinsin, hünərlidir!**

Bu oğlan Bayandır xanın uca meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüşdür, qoy adı Buğac olsun. Adını mən verdim, yaşını Allah versin, - dedi».

«Baybörənin oğlu Bamsı Beyrək boyu»nda isə yenə də Qalın Oğuz bəylərinin dua – sənası ilə düyaya gəlmiş bəy oğluna ad verilməsi belə təsvir olunur: «Baybörənin oğlu beş yaşına girdi. Beş yaşından on yaşına, on yaşından on bir yaşına girdi. Bir müddət sonra çaya baxanda öz əksinə şığıyan çal qaraquş ərdəmli, bir gözəl, yaxşı igid oldu.

O zamanlar bir oğlan baş kəsməsə, qan tökməsəydi, ona ad qoyulmazdı. Baybörə bəyin də oğlu atlandı, ova çıxdı. Ov ovlarkən atasının tövləsinə gəldi. Onu əmiraxurbaşı qarşıladı, atdan endirdi, qonaq etdi. Yeyib-içib otururdular. Bu yandan da tacirlər gəlib, böyük Dərbənd sərhəddində dayanmışdılar. Yarımasınlar Evnik qalasının kafirləri, onlardan casusluq etdilər. Tacirlər yatarkən qəflətən beş yüz kafir hücum edib, mallarını çaldılar-çapdılar. Tacirbaşı tutuldu, tacirlərdən biri qaçaraq Oğuz diyarına gəldi. Baxdı

gördü ki, Oğuz yurdunun ucqarında bir hündür alaçıq qurulmuş; bir yaraşıqlı gözəl igid də sağında və solunda qırx igidlə oturmuşdur. Tacir fikrləşdi: «Oğuzun yaxşı igidlərindəndir, gedim kömək istəyim». Tacir dedi: «İgid, igid, bəy igid! Sən mənim səsimi anla, sözümü dinlə! On altı ildir ki, oğuzların içindən getmişdik. Danışıq razılıqla kafirin malını Oğuz bəylərinə gətirirdik. Böyük Dərbəndin Pasnik qalası yanında yatmışdıq. Evnik qalasının beş yüz kafiri bizə hücum etdi. Qardaşım dustaq oldu. Malımızı, azuqəmizi çalıb-çapıb getdilər. Dərdli başımı götürüb, yanına gəldim. Başına dönüm, igid, mənə kömək et!»

Bu dəfə oğlan içdiyi şərabı içmədi. Əlindəki qızıl qədəhi yerə çırpdı. Dedi: «Dediklərimi yetirin, mənim geyimimi, şahbaz atımı gətirin! Hey! Məni sevən igidlər atlansınlar!» Tacir də qabaqlarına düşdü, bələdçi oldu.

Kafirlər də bir yerə çəkilib pul bölüşdürməkdəydi. Bu vaxt igidlər meydanının aslanı, pəhləvanların qaplanı Boz oğlan (Boz atlı Beyrək mənasındadır) özünü yetirdi. Nə bir dedi, nə iki, kafirləri qılıncladı. Baş qaldıranları Öldürdü, cəzasına çatdırdı. Tacirlərin malını xilas etdi.

Tacirlər dedilər: «Bəy igid, sən mərdlik göstərib bizi xilas etdin. İndi gəl, bəyəndiyin malı götür!» İgidin gözü bir dəniz qulunu boz ayğırı tutdu, bir də altı pərli gürzlə dəstəyi ağ tozlu yayı. Bu üç şeyi bəyəndi. Dedi: «Ay tacirlər, bu ayğırı, bu yayı, və bir də bu gürzü mənə verin!» Belə dedikdə tacirlər pərt oldular.

İgid dedi: «Ay tacirlər, çoxmu istədim?!» Tacirlər dedilər: «Niyə çoxdur? Amma bizim bəyimizin bir oğlu vardır, bu üç şeyi gərək ona hədiyyə aparaydıq!»

Oğlan dedi: «Ədə, bəyinizin oğlu kimdir?» Dedilər: «Baybörənin oğlu var, adına Bamsı deyirlər». Baybörənin oğlu olduğunu bilmədilər.

İgid barmağını dişləyib fikirləşdi: «Burda minnətlə almaqdansa, orada atamın yanında minnətsiz almaq yaxşıdır!» Atını qamçılayıb yola düşdü. Tacirlər ardınca baxa-baxa qaldı. «Vallah yaxşı igiddir, insaflı igiddir» - dedilər.

Boz oğlan atasının evinə gəldi. Atası tacirlərin gəlməsindən xəbər tutdu, sevindi. Çətirli çadır, uca alaçıq qurdurdu. Yerə ipək xalçalar saldı. Keçdi oturdu. Oğlunu sağ yanında əyləşdirdi. Oğlan tacirlər barədə bircə söz söyləmədi. Kafirləri qırdığını demədi.

Gözlənilmədən tacirlər gəldilər. Baş endirib salam verdilər. Gördülər ki, o baş kəsən, qan tökən igid Baybörə bəyin sağında oturur. Tacirlər yanaşıb igidin əlini öpürlər.

Bunlar belə etdikdə Baybörə bəyin acığı tutdu. Tacirlərə dedi: «Ədə, əbləh oğlu əbləhlər! Ata dura-dura oğlunmu əlini öpərlər?» Dedilər: «Xan, bu igid sənin oğlundurmu?» «Bəli, mənim oğlumdur!» - dedi. Dedilər: «İndilikdə əvvəlcə onun əlini öpdüyümüzdən incimə, xan. Əgər sənin oğlun olmasaydı, bizim malımız Gürcüstana getmişdi. Hamımız dustaq olmuşduq».

Baybörə bəy dedi: «Ədə, mənim oğlum başmı kəsib, qanmı töküb?» «Bəli, baş kəsdi, qan tökdü, atdan adam saldı!» - dedilər. «Aha, bu oğlan ad qoymaq həddinə çatıbmı?» - dedi. «Bəli, sultanım, ondan da artıqdır!» - dedilər.

Baybörə bəy Qalın Oğuz bəylərini çağırdı, qonaq etdi. Dədəm Qorqud gəldi, oğlana ad

qoydu. Dedi: «Sözümü dinlə, Baybörə bəy! Allah-tala sənə bir oğul vermişdir, əlində qalsın! Ağır bayraq götürəndə müsəlmanlara arxa olsun! Qarşı yatan uca qarlı dağlardan aşarsa, Allah sənin oğluna keçid versin! Sən oğlunu «Bamsın» deyə oxşayırsan; onun adı Boz ayğırlı Bamsı Beyrək olsun! Adını mən dedim, yaşını Allah versin!»

Qalın Oğuz bəyləri əl götürüb dua etdilər: «Bu ad bu igid üçün uğurlu olsun!» - dedilər.

Qeyd edək ki, xalq, tərbiyəsində naqislik olanlara da biganə qalmamış, onlara da əməllərinə görə ad vermiş, yaxud müxtəlif cəzalandırma üsullarından istifadəyə etmişlər. Bu, həm yenidəntərbiyə mahiyyəti daşımış, həm də böyüməkdə olan nəslin tərbiyəsində görk rolunu oynamışdır. («Tərbiyəli, tərbiyəni kimdən öyrəndin? – Tərbiyəsizdən». - məsəli) Elə haqqında danışdığımız «Baybörənin oğlu Bamsı Beyrək» boyundakı Yalançı oğlu Yalancıq buna misaldır. İfadədən göründüyü kimi, oğlanın atası yalançı olmuşdur. Oğlan da düzgün tərbiyə almadığı üçün atasından irsən keçənləri özündə yaşatmış və el arasında nakamil bir adam kimi tanınmışdır.

Maraqlıdır ki, tərbiyənin tərkib hissələri sırasında ideya-siyasi tərbiyənin də izlərinə rast gəlirik. «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy»da Burla xatun kafirin bayrağını qılınclayıb yerə salır. Qeyd-şərtsiz demək olar ki, bu, onun siyasi təfəkküründən təzahür edir.

**Yenidən tərbiyə etmək** (yenidəntərbiyə) anlayışı insanların tərbiyəsindəki qüsurları aradan qaldırmaq və onları düzgün yola istiqamətləndirməklə bağlıdır. Elmi pedaqogikanın tədqiqatları sübut edir ki, yenidəntərbiyə tərbiyədən çətin və mürəkkəb prosesdir. Çünki yenidəntərbiyə zamanı insana sadəcə tərbiyə verilmir, həm də onun tərbiyəsində üzə çıxmış nöqsanlara qarşı mübarizə aparılır. Xalq cəmiyyətin tərbiyəsinə yüksək tələbkarlıqla yanaşdığı üçün yenidən tərbiyə etməyi də diqqətdən kənarda saxlamamışdır. Nağıl və dastanlarda bu mövzuda süjetlər çoxdur. Atalar sözü və məsəllər də bütövlükdə tərbiyəyə xidmət etdiyi üçün həm də yenidəntərbiyəyə fayda verir. Amma xalq tərbiyəni əvvəlcədən düzgün qurmağı tələb edir və tərbiyədə qüsurlar olarsa, onun da vaxtında islah olunmasına çalışır. Çünki müəyyən vaxt keçdikdən sonra qüsur nöqsana-problemə çevrilir. Xalq illərin təcrübəsinə əsaslanaraq bu barədə deyir: «Südlə girən sümüklə çıxar», «Qırxında öyrənən gorunda çalar», «Qozbeli qəbir düzəldər» və s. Buradan belə bir nəticə hasil olur ki, yenidəntərbiyə işi də şəxsiyyətin tam formalaşmadığı ilkin vaxtlarda- uşaqlıq, yeniyetməlik və ən uzağı erkən gənclik çağlarında aparılmalıdır. Əks təqdirdə gecdir.

**Öz-özünü tərbiyələndirmə,** yəni özünütərbiyə anlayışı xalqın şəxsiyyətin qarşısına qoyduğu ciddi tələblərdəndir. Onun bünövrəsi erkən yaşlardan qoyulur. Boya- başa çatma dövrü kimi səciyyələnən yeniyetməlik dövründə böyüklər özünütərbiyə işinə xüsusi diqqət yetirirlər. Proses sonra da davam edir. Nümunə, öyüd - nəsihət, təkid, təəssüf, xəbərdarlıq, hədə - qorxu, cəza, danlaq, qınaq, tənə, qarğış və s. xalqın özünütərbiyəyə kömək

məqsədilə işlətdiyi üsullardandır. Folklor nümunələrindən nağıl və dastanlar ən yaxşı özünütərbiyə vasitələridir.

**Öyrətmək və öyrənmək** xalq pedaqoqikasında ən çox işlənən qoşa anlayışlardır. Xalqın öyrədənə də, öyrənənə də rəğbəti böyükdür. O, öyrədəni ustad, aqil, kamil insan olaraq dəyərləndirir. Öyrənənə isə tövsiyə edir: «Bilməmək eyib deyil, bilməyib öyrənməmək eyibdir». Xalqın təbirində öyrənmək kamilliyə gedən yoldur. Öyrətmək yaşında olan hər kəs öyrənmək yaşında olanı bu yola istiqamətləndirməlidir. Öyrənmək məfhumu özündə üç şaxəni birləşdirir: 1) Elm öyrənmək; 2) Sənət öyrənmək; 3) Həyatı, məişəti, dünyəvi gedişatı öyrənmək. Öyrətmək və öyrənmənin mənbələrinə gəldikdə isə bütün folklor nümunələri və adət- ənənələr öyrətməyə, öyrədilənləri yaşatmağa xidmət edir. Süjetli folklor nümunələrində (nağıl və dastanlarda) elm, sənət öyrənmək üçün qəhrəmanlar çətinliklərdən keçir, bəzən uzun məsafələr qət edirlər. Nəticədə arzularına çatıb xoşbəxt olurlar.

**Vərdiş etmək və vərdiş etdirmək** anlayışlarının kökü xalq adət- ənənələrində yaşayır. Xalq lap kiçik yaşlarından uşaqları mədəniyyət və davranış etiketlərinə, gündəlik həyatda vacib olan işləri görməyə, aydın, məntiqli danışmağa, danışan zaman sözlərdən düzgün istifadə etməyə, təmizkar olmağa və s. digər keyfiyyətlərə vərdiş etdirməyi vacib sayır. Xalqın pedaqoji baxışlarında bütün yaxşı vərdişlər mükəmməl tərbiyənin rəhnidir.

**Oxumaq - təhsil, təlim almaq** xalq pedaqoqikasında ən önəmli anlayışdır. Xalq oxumuş, təhsil görmüş, təlim keçmiş insanları yüksək dəyərləndirir. Ən qədim söz xəzinələrindən olan oğuznamələrdə bu barədə deyilir:

**Ox atmaq, yazı yazmaq, suda üzmək**
**Gərəkdir bu üçü hər kəsə düzmək.**

Demək, xalq bu qənaətdədir ki, düşməndən, təbii fəlakətdən qorunmaq və öz həyatını normal idarə edə bilmək üçün hər kəs minimum təlim və təhsil almalıdır.

- **Xalq pedaqogikası anlayışlarının elmi pedaqogika anlayışları ilə vəhdəti.**

Diqqət yetirsək, görərik ki, xalq pedaqogikası anlayışları ilə elmi pedaqogikanın anlayışları arasında sıx vəhdət var. Onlar bir-birini inkar etmir, hətta eyniyyət təşkil edirlər. Məsələn, elmi pedaqogika da, xalq pedaqogikası da, **tərbiyə** anlayışı ilə səciyyələnir. **Yenidəntərbiyə** və **özünütərbiyə** xalq pedaqogikasının da, elmi pedaqogikanın da tələbidir. Elmi pedaqogika üçün **təlim** və **təhsil** səciyyəvidir. Xalq eynilə bu ifadələri işlətməsə də, **öyrətmək** və **öyrənmək** həmin mənadadır. Elmi pedaqogikada olduğu kimi, xalq pedaqogikasında da, nəticə **inkişaf**la müəyyənləşir. Xalq pedaqogikasında bütün folklor nümunələri tərbiyə vasitəsidir və qənaətlər heyrətamiz şəkildə elmi pedaqogika ilə uyğun gəlir.